50 Qeyrət Məcid
Mənim nəyim vardır sevdadan başqa?



52 Maya İmran
Dəli



57 Fuad Novruzlu
Ən ucuz tac



59 Zəhra Namazlı
Balacanın möcüzəsi



61 Vaqif Yusifli
Ədəbi fraqmentlər



64 Zahid Afşar Eloğlu
Böyükdən uşağa



67 Əli Əmirli
Ustad dərsləri



70 Məhəmməd Zahid Rifat
Tərcümə saatı



73 Tural Cəfərli
Esse



76 Tağı Türk
"Şüşəgöz"



81 Əbdürrəhim bəy Haqverdiyev irsinin təbliğinə mühüm töhfə



83 Seyfəddin Hüseynli
Dərgidə kitab







**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs


**Redaksiya heyəti**
Təranə Vahid
*(Baş redaktor müavini)*
Hicran Hüseynova
*(şöbə redaktoru)*
Dayandur Sevgin
*(şöbə redaktoru)*
Taleh Mansur
*(şöbə redaktoru)*
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Cavid Zeynallı
Məşhəti Musa
Elşən Əzim
Nargis
Şəfa Vəli
Şahanə Müşfiq
Allahşükür Ağa
Türkan Turan
Ulucay Akif
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)


**Bədii redaktor**
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 15.03.2022
"Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**"ASPOLİQRAF LTD" MMC-də** çap olunub.
Sifariş №3, Tiraj: 300
Qiyməti: 1 man.
**1967-ci ildən çıxır.**
**Şəhadətnamə № 238**




**"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA" MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"KİTABEVİM.AZ"**

**"Ulduz"** jurnalını burdan əldə edə bilərsiniz.

**Jurnalın**
**1 aylıq abunə qiyməti – 1.00 man.**
**illik abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566-77-80**

**498 – 79 – 89**

**nömrəli telefonlara zəng edə bilərlər.**

ISNN 0134-522 İNDEKS AZ 1000 1 AZN



## Şamil ƏNVƏROĞLU

# özüylə söhbəti...

– Niyə ədəbiyyat?

– Bu sual məni həmişə düşündürüb.

Niyə məhz ədəbiyyat?

Cəlb edən hansı tərəfləri var ki?

Uşaq ikən məhlə uşaqları ilə oynamağı boş verib kitablara sarılmaq və bir səssiz küncə çəkilmək istəyi nədən yaranırdı axı?

Məktəb tapşırıqlarını 1-2 saatın içində hazır edib sonra da qalın-qalın romanları oxumağa başlamaq həvəsini hansı səbəb tətikləyirdi ki?

Qarma-qarışıq 90-cı illərdə ucqar bir dağ kəndində, işıqların tez-tez söndüyü o gecələrdə, o zamanlar dəbdə olan fənərli maqnitofonun işığında,ya da hamı yatandan sonra gizlincə şam işığında bitirməyə çalışdığın o kitablara maraq nədən qaynaqlanırdı?

Bu daxili tələbat, bu ruhsal ehtiyac nədən yaranmışdı axı?

10-cu sinifdə ayılasan ki, artıq qonşuların adlarını kitabdakı obrazlarla səhv salırsan.

Hələ bununla bağlı dəfələrlə başına gülməli hadisələr də gələ...

Sonralar hərbi xidmətdə olanda da "kaptyorka"da gizlətdiyin və boş vaxt tapan kimi dərhal oxuduğun kitablar ilə bu qədər sadiq dost olasan...

BDU-nun tarix fakültəsini oxuyasan, ancaq hara getsən, hansı evdə kitab rəfi görsən, gözün həmişə bədii əsərlər axtara böyük həvəslə...

Bu barədə həmişə düşünmüşəm, səbəbləri çözməyə çalışmışam...

İnsanı daim axtarışa, öyrənməyə səsləyən "NİYƏ? NƏDƏN? HANSI SƏBƏBƏ GÖRƏ?" sualları olur.

Ona görə də hadisələrin səbəbləri nəticələrindən daha maraqlı və daha cəlbedici olub həmişə...

Mənim üçün ədəbiyyat tarixdən həmişə 1:0 öndə olub.

Bəlkə də, bir tarixçinin belə düşünməsi qəribə gələ bilər.

Ancaq mənə elə gəlir ki, tarixin "mənbə" deyib bizlərə sırıdığı "gerçəklər", əslində, nağıllar toplusundan başqa bir şey deyil.

Tarix kimlərinsə fantaziyasıdır, faktlarla oynanmış halıdır...

Ən əsası da siyasətin əlindəki təbliğat vasitəsidir tarix...

Tarix alət ola bilir, hətta inandıra bilir insanları buna.

Ədəbiyyat isə lap cəhd etsə belə, bacara bilmir yaltaqlığı, dərhal üzə çıxır qeyri-səmimi nəsə olanda...

Çünki ədəbiyyat dürüstcə yanaşır bütün hadisələrə, niyyəti nə olursa-olsun, çəkdiyi "rəsm"də hər şey doğru şəkildə öz əksini tapır.

Təqdim etdiyi lap nağıl da olsa, onu elə nağıl kimi də təqdim edir bizə.

Nağıl demişkən, əslində, hər birimizin həyatı elə bir nağıldan ibarət deyilmi?

"Cırtdan"ların "div"lərə qalib gəldiyi nağıllar dünyasında yaşamırıqmı?

Qardaşlarını su quyusunda ölümünə tərk edən "qardaşlar" yoxdurmu ətrafımızda?

Maraqların duyğuları üstələdiyi bir dünyanın sakinləri deyilikmi hər birimiz?

Üzlərdəki saxta gülüşləri, dillərdəki "xoşbəxtəm" deyən yalanları, gözlərdən oxunan "İMDAD!" çağırışlarını oxuduğumuz insanlarla yaşamırıqmı bu cəmiyyətdə?

Yazan olsa, neçə nağılların baş qəhrəmanı deyilikmi hər birimiz?

Bir məsəl var, deyir ki, yer bataqlıqsa, orada boy atan ancaq "qamışlar" olar.

"Qamışlar"ın bitdiyi bataqlıqda hansı gül-çiçəyi bitən görmüşük ki?

Bu dünyada bütün ruhu gözəl, ürəyi təmiz yaradıcı və həssas insanları çəmənlikdə bitən gül-çiçəyə bənzədirəm – hərəsinin öz ətri, öz sevəni var...

Və ətrafına "yad insan" kimi görünən necə gözəl insanımız bu nağıllar dünyasında min bir əziyyət çəkmirmi?

Hər nağılın sonunda düşəcəyini gözlədiyimiz o "üç alma" isə yaşaya bilmədiklərimizin TƏƏSSÜFÜ, etdiklərimizin PEŞMANLIĞI, və edə biləcəyimiz, ancaq etmədiklərimizin KAŞ Kİ-ləridir, əslində...

Nədənsə axtardığımız dürüstlüyü insanlarda tapmayınca əsərlərdə axtarmağa başlayırıq zamanla.

Hətta o fikrə gəlirik ki, əsərlər öz müəlliflərindən daha dürüst, daha ədalətli, daha səmimi və daha təmizdir.

Bəlkə də, əsərlər müəllifin olmaq istədiyi, ancaq ola bilmədiyi bir obrazı yaratmaq cəhdidir.

Ya da əsərlər yazarların içlərində basdırdığı duyğuların yenidən həyata doğuluşudur...

Bəlkə də, bizə ədəbiyyatı sevdirən hiss o gerçəkdə tapa bilmədiyimiz təmizliyi, ədaləti və haqqı əsərlərdə tapmaq istəyidir...

Axı həyatın rəsmini çəkən rəssamdır ədəbiyyat...

Axı öz tablomuza yaxından baxmaq marağıdır oxuduğumuz əsərlər...

Tarix dərsdir bizim üçün...

Ədəbiyyat isə:

– əsl həyatın özüdür,

– mənəvi yüksəlişdir,

– ali insan olmağa can atmaq duyğusudur...

Söhbətimiz uzandıqca ədəbiyyata vurğunluğumuzun nədən qaynaqlanması məsələsi çözülür, deyəsən...

Deməli, türk yazıçısı Əlif Şəfəqin belə bir deyimi var:

"Xoşbəxt mühitdə böyüməyən gənclər üçün ədəbiyyat ən gözəl sığınacaqdır".

Razılaşdığım bu fikrə icazənizlə bir neçə əlavəni də mən edim.

İnsan mənəvi varlıq olmaqdan öncə bioloji varlıqdır və müəyyən yaşa qədər də o cür də qalır, əlbəttə...

Hər kəs bioloji varlıqdır, ancaq hər kəs də mənəvi varlıq deyil...

Səbəblərə gəldikdə isə, çox müxtəlif ola bilər.

Öncə onu qeyd edək ki, insanı yetişdirən və kamilləşdirən böyüdüyü mühit, yaşadığı həyat və sosial çevrəsi olur.

Kimi düzgün bəhrələnib kamilləşə bilir, kimi də şablon fikirləri əxz etməkdən o yana gedə bilmir və ya getmək istəmir...

Fəlsəfənin dediyi kimi, şəxsiyyəti sosial mühit yetişdirir.

Ancaq sual olunur: "Hər kəsmi yetişə bilir?"

Yaxud da səni SƏN edən dəyərlər, doğrudanmı, bir tək yaşadığın mühitlə bağlıdır?

Bəs genetik kodların payı nə qədərdir?

Cavabı 50/50-yə demək, əslində, asana qaçmaqdır.

Asana qaçmaq isə düşünmək yerinə inanmağı seçməkdir...

Şəxsiyyəti formalaşdıran həm də psixoloji durumlardır, ya müsbət yöndə yetişdirə bilir, ya da mənfi yöndə dəyişdirə bilir.

Əlbəttə, insanın ən gözəl müəllimi özü olduğuna görə "dərs"ini nə qədər yaxşı alması da çox önəmli faktdır.

Qayıdaq o fikrə ki, niyə ədəbiyyat?

– Ruhu təmiz insanlar həmişə sığınmağa bir təmiz məkan, ya da bir doğru mühit axtarırlar.

– Görəndə ki elə dürüst çevrəsi yoxdur, o zaman çəkilirlər tənhalığa.

– Əslində, tənhalıq həyata və insanlara qarşı ən üsyankar etiraz formasıdır.

– Əlbəttə, anlayana...

– Ədəbiyyat təmiz ruhlu insanların ən gözəl məkanıdır, çirkablardan uzaq olmaq cəhdidir, özünü İNSAN kimi qorumaq istəyidir...

– Çirkli ətrafdan bezib üz tutacağımız tək mənəvi sahəmiz ədəbiyyatdır, və ya mədəniyyətin digər sahələridir...

Məşhur Livan yazıçısı Xəlil Cübran yazırdı:

"Böyük yazar bizim sükutumuzu ifadə edə bilən yazardır".

Səssizliyin özü ədəbiyyatın həm pıçıltısı, həm də hayqırışıdır.

Anlayan üçün pıçıltıdır, anlaya bilməyənlər üçün bağırtıdır...

Və bizim uşaqlıq tarixin ən kəskin dövrlərindən birinə düşmüşdü:

– Sovetlərin çöküşü, müstəqillik dövrünün başlanması...

– Qaçqınlığın və yoxsulluğun ən ağır günlərini yaşamağımız...

– Bir kisə unun qiymətinin 15 şirvana olduğu və bir qoyun satıb bir kisə un aldığımız illər idi o illər...

– Bayramdan bayrama ət yediyimiz illər idi o illər...

– Ancaq gözlərimizin güldüyü, gələcəyə min bir həvəslə baxdığımız illər idi o illər...

Elə qarışıq və çətin günlərdə tək təsellimiz dərslərimizi yaxşı oxumaq, böyüyəndə oxuyub adam olmaq ümidi idi.

Yarı kirill, yarı latın qrafikalı, üzü qopmuş dərs kitabları, odun sobası ilə isinən kənd məktəbi, ancaq müəllimlərimizin göydən enən bir mələk olduğunu sandığımız illər idi o illər...

Axşamlar odun sobası üzərində duzlu dilim dediyimiz bişmiş kartof dilimlərini yeyə-yeyə anamızın danışdığı nağılları dinləmək, bəlkə də, o illərin ən şirin anları idi.

Anamızın: "Dur bala, uzan yerinə" – deməsi ayıldardı bəzən yuxudan.

Çox vaxt da yerimizə uzanıb yarımçıq qalmış əsəri oxuyardıq ala-qaranlıq otaqda.

Bizi ədəbiyyata itələyən əsas maraq dünyanı və insanları tanımaq, ətrafdakı qayğılardan uzaqlaşmaq istəyidir, bəlkə də...

Mütaliə alışqanlıq yaradır zamanla:

– Bir də baxıb görürsən ki, bir günə 300 səhifəlik kitabı oxuyub bitirirsən.

– Oxumadığın günlərdə isə sanki çox dəyərli bir əşyanı itirmiş kimi olursan...

Yadıma gəlir ki, "Kapitan Qrantın uşaqları" kitabının təsirindən 2-3 ay çıxa bilməmişdim uşaq vaxtı.

"Səfillər" bizim həyatımızın bir parçasını anladırdı sanki, o qədər doğma gəlirdi ki bizə...

Əsərlərdə özümüzü axtara-axtara rayon kitabxanasında nə qədər kitab varsa, hamısını bitirdiyim gün elə bil dünənki gün idi.

Kitabxanaçı Rəbiyə xala deyəndə ki artıq oxumadığın kitab qalmayıb bizdə, onda da keçdik müəllimlərimizin evlərindəki kitablarına...

Və bir də o zaman ayıldım ki, əsərləri oxuya-oxuya xeyli "kvadrat" şeirlər də yazmağa başlamışam...

Yazmaqdan daha çox sanki özüm-özümlə danışırdım şeir dilində...

Bəlkə də, insanın ən səmimi həmsöhbəti elə onun özüdür.

Çünki daha içdən, daha güvənli və daha dürüst dərdləşməkdir belə ünsiyyət.

Psixoloqlar bunun bir səbəbi kimi uşaqlıq travmalarını qeyd edirlər. Digər tərəfdən də zəkalı olmağın bir əlaməti sayırlar...

Mənim də özümlə hər mövzuda söhbətim olub və düşünürəm ki, insanın özünə kənardan baxması və öz yanlışlarını görməsi baxımından bu, çox gözəl bir addımdır.

Daha doğrusu, bu, bir daxili tələbatdır, ruhun bədənlə ünsiyyətidir... Zamanla özümüzün ədəbiyyatın içində olmağımızdan daha çox, ədəbiyyatın bizim içimizdə olduğuna inanmağa başladıq.

Mənə elə gəlir ki, ədəbiyyat təmiz ruhlu, həssas ürəkli insanların dayaq nöqtəsidir, kamilliyə gedən yolda yol göstərən mayakdır...

Və son olaraq gələk ümumiləşmiş nəticəyə...

Əgər kimsə mənə indi durub desə ki, niyə ədəbiyyat?

Ona heç düşünmədən verəcəyim qısa cavabım da belə olar: "Ədəbiyyatı bu cəmiyyətdə tək təmiz bildiyim və özümü azad saydığım ruhsal bir məkan olduğu üçün..."

Folkner deyirdi ki, milləti ədəbiyyat yaradır. Düşünürəm ki, insanlarımız nə qədər çox ədəbi əsərlər oxusalar, elmi bəlgəsəllər izləsələr, fəlsəfi və psixoloji filmlərə baxsalar, o qədər də daha yetkin və daha mükəmməl insan ola bilərlər...

Gələcəyimiz naminə, mənəviyyatımızın inkişafı naminə, İNSAN kimi qalmaq naminə ədəbiyyatımıza sadiq olaq həmişə...

## İNSANLIQ NAMİNƏ SEVDİK, SADƏCƏ

Bilirsən, dostum, sən zəngin bir ailədə böyüyüb, qayğısız uşaqlıq illəri yaşayanda biz öz qaçqın taleyimizlə barışıb uşaqlığımızı qurban verdik o illərdə.

Uşaqlığımızla birgə göz açıb da gördüyümüz, ancaq ayaq açıb yeriyə bilmədiyimiz o torpaqda gəzə bilmək istəyimizi də qurban verdik o illərdə.

Bilirsən, dostum, sən təzə formada, təzə kitablarla təzə məktəbə qədəm qoyanda biz yamaqlı şalvarda, üz qabığı olmayan kitablarla köhnə bir məktəbə qədəm qoyduq. Elə o cür kitablarla da oxuyub insanlara faydalı olmağı, insanları anlamağı öyrəndik yaşadıqca.

Bilirsən, dostum, sən o möhtəşəm villanda, bəzəkli bir qəfəsdə tutuquşu böyüdüb həzz alanda biz bir qaçqın daxmasında, yaralı bir ürəkdə arzu böyüdürdük – təhsil alıb bu VƏTƏNƏ, bu MİLLƏTƏ layiqli övlad olmaq arzusunu...

Və yuvasından yerə düşən hər quş balasını da, azad yaşasın deyə, sağaldıb göylərə buraxardıq.

Bilirsən, dostum, sən qızların sevgisini əyləncə bilib hər ay birinə “sevirəm” deyəndə və zərrə qədər də bundan narahat olmayanda biz birini seçib SEVMƏYİ və əsla da UNUTMAMAĞI bacardıq. Sən bir ürəkdə min-min insana şəhvət hissi bəslədiyin halda, biz bir ürəkdə bir TƏMİZ SEVGİNİ bəsləməyi öyrəndik.

Bilirsən, dostum, sən bu dünyanın varını, pulunu, vəzifəsini sevib bunları çox rahatlıqla əldə edərkən biz İNSANLARINI SEVDİK bu dünyanın, İNSANLARINI...

Və həm də min bir əziyyətlə qəpik-qəpik qazanmağı öyrəndik öz gücümüzə, bir kimsənin köməyi olmadan.

Və sən sabah o varı, o vəzifəni itirəndə özün də məhv olacaqsan ruhən. Daha o salamlar, o yaltaqlanmalar olmayacaq həyatında.

Sən, sadəcə, rahatlığına alışdığın bu həyatdan heç var olmamış kimi də gedəcəksən. Adın isə bir tək məzar daşında qalacaq.

Ancaq o insanlar uzun illər yaşayacaq ki, onların hər arzusunda, hər əməlində İNSANLIQ var, insanlara SEVGİ var.

Və sən ona görə dostumsan ki, sən də bu dünyaya gəlmiş bir İNSANSAN, lap elə İNSANLIĞI bacara bilməyən bir İNSAN. Səni isə İNSANLIQ naminə sevdik, sadəcə.

## KİTABLAR VƏ ADAMLAR

Kitab var ki, hər yandan görünən uca bir dağ kimidir. Ona yaxınlaşdıqca zirvələrinə qalxmalı olursan. Qalxdıqca özün də ucalırsan. Bir də o zirvələrdən baxırsan hər yana. Hər şey o qədər aydın görünür ki, insanların təkcə üzünü deyil, qəlbini də görməyə başlayırsan.

Ürəklər görürsən – daş olanını, sevgiylə döyünənini, məzarlığa çevriləni. Və bir də insanlığa olan sevgisi ilə dolub-daşanlarını görürsən.

Kitab var ki, dinləyib heç vaxt doya bilmədiyin cümlələr kimidir. Hər sətrində öz yaşantını, sevgini, acını görürsən. Danışırsan obrazlarla sanki. Birlikdə çay içirsən, əylənirsən, darıxırsan, sevişirsən. Özünü atırsan o kitabların üstünə. Özünü aldadırsan kitablarla bəzən. Ancaq o nağıllardakı saflıqla, dürüstlüklə bir az da ovudursan özünü. Özün olmaqdan çıxsan da, o kitablar sayəsində özünə gəlməyi də bacarırsan.

Kitab var ki, dünyaya həyat verən su kimidir. Bəzən ömür yollarında bir ümid dalınca qaçıb susadığın zaman yanğını söndürə biləcək, bəzən də ürəklərdəki çirkabı yuyub aparacaq su kimidir. Onlardan və həyatın özündən öyrənəcəksən yaşamağı bütün çılpaqlığı ilə. Və hər dəfə də yorulsan belə, bu həyatı sevəcəksən, bir rahatlıq tapacaqsan kitabların içində.

## TƏNHALARIN MONOLOQU

İnsan bir xoş təbəssümlə gizlətməyə çalışar gözlərindəki kədəri.

Baxarsan üzündəki təbəssümə “necə də xoşbəxtdir” – deyə düşünərsən.

Baxarsan gözlərinə, illərin acısını, yalqızlığını oxuyarsan o gözlərdən.

Gözlərini gizlətmək istəyər həmişə ürəyi acılarla dolu insan.

Əsla istəməz onun içindəkiləri kimsə bilsin. Ən qiymətli əşyası kimi qoruyar içindəki acıları. Heç vaxt paylaşmaq istəməz ürəyinin dərd yükünü. Dolduqca kövrəkləşər, inciyər səbəbli-səbəbsiz hər kəsdən. Özünü isə ən xoşbəxt insan kimi aparmaq istəyər insanlar arasında.

Və bir tək gecələr yatağında özü ola bilər o insan. Gündüz oynadığı rollardan qurtular gecələr.

Bir həzin melodiyaya köklənib doyunca ağlayar için-için. Sonra gözlərini silib başını qoyar əlləri arasına. Gözlərini tavana zilləyib öz-özünə danışar. Hətta səssiz deyil, ucadan danışmağa başlayar. Özü sual verib, özü də cavab verməyə çalışar:

– Görəsən, insanlar niyə yaşlandıqca boyları kiçilir?

– Yəqin, illərin yükündən.

– Bəs görəsən, iş yerindəki aşpaz qadın niyə tez-tez gülür?

– Yəqin, qəlbinin acısından.

– Görəsən, yoldaşı hər gün evə sərxoş gələn o qonşu gəlin niyə aldanır insanların yalanlarına?

– Yəqin, özünü ovudacaq yeganə təsəllini şirin yalanlarda gördüyü üçün. Həyatındakı acı həqiqətlərdən bezdiyi üçün.

– Görəsən, insanlar niyə qaçır dərdli insanlardan?

– Yəqin ki, özlərini xatırlatdığı üçün.

Sabah yenidən davam edər bu eyni ahəng, bir az da yeni obraz və yeni monoloqlarla.

Və beləcə ötər günləri ömrünün sonuna qədər...

## YADLAŞAN ÜRƏKLƏR

Qopur insanlar bir-birindən. Yoldaş yoldaşından, qardaş qardaşından, qohum qohumundan uzaqlaşır.

Yadlaşan ürəklərdən axıb gəlir yad sözlər.

Baxışlar dəyişir, maraqlar ürəklərə hakim kəsilir.

İnsanlar görürsən, bir anın içində həm ağlaya bilir, həm də gülməyi bacarır. Anlaya bilmirsən bu necə hissdir, bu necə ürəkdir ki, belə tez öz halını dəyişə bilir.

İndi hər kəsin içində bir üsyan var, hərəsinin də öz səbəbi.

Kimi Tanrıya, kimi bəxtinə, kimi dövlətinə, kimi də insanlara üsyan edir.

Ancaq elə insanlar da var ki, elə özünü günahkar bilib özünə üsyan edir.

İçində böyütdüyü min-min arzuların ağrısını çəkməklə özünə zülm edir.

İnsan da var özünü elə göstərməyə çalışır ki, sanki bundan xoşbəxti yoxdur dünyada.

Aldadılan və aldanan insanlar çoxalır indi.

Hərə bir cür oynayır bu çirkab içində olan dünyadakı öz rolunu.

Hər kəs də elə beləcə yaşayır aldadıb aldandığı insanlar arasında.

Ayrılıqlar qovuşmaqlardan daha çoxdur indi. Bütün ayrılıqlar öncə şübhələrdən başlayır. Sonra düşüncəyə hakim olur.

Sonra baxışlardan görünür bu biganəlik, bu soyuqluq.

Bir də ayılıb görürsən ki, böyük bir uçurum var arada. Və əsla o uçurum heç vaxt qapanmır.

Düşünə bilərsən ki, bəlkə, güzəşt edim nəyinsə xatirinə.

Bu cəhdin də işə yaramayacaq.

Elə an gələcək ki, mənasız əyləncələrlə başını qatmaq istəyəcəksən.

Sonunda isə yenə məğlubsan. Çünki bu sən deyilsən.

Özünü unutduğun an da gələcək sonunda.

Ancaq bir gün mütləq bütün yanlışlıqların əsl səbəbini anlayacaqsan.

Və onda biləcəksən ki, yaşamaq dediyin, sadəcə, sənin bütün yaşadıqlarına dözmək deyilmiş, həm də özünü tapmadığın, isinə bilmədiyin o mühitə, o insanlara etiraz hayqırtın imiş yaşamaq...

Bu etirazı isə bacarmadın ömrünün sonuna qədər də.

Və neçə-neçə ömür də beləcə başa çatır səssizcə...

# GƏL, DOSTUM, GƏL BİR AZ DA HƏQİQƏTDƏN DANIŞAQ

Oxu, dostum, oxu, lütfən. Oxu və bil ki, yaşadıqların təkcə sənlik deyil, həm mənlik, həm də bizim kimi minlərlə insanlıqdır. Hər birimiz yaşayırıq sənin yaşadığını. Fərq odur ki, kimi susur, kimi də üsyan edir durumuna. İndi isə diqqətlə oxu bu yazını. Çünki bu yazı elə sənin kimi ruhən mənə yaxın olan insanlar üçündür.

Gəl sənə bir az həqiqətdən danışım. Bu gün çox az səslənən, şirin yalanların kölgəsində darıxan həqiqətdən.

Sən də, mən də, elə çoxları da beləcə narahat addımlayırıq həyatın yoxuşu çox olan, daşlı-çınqıllı yollarında. Bu yollarda nələr gördük, nələr yaşadıq bu illər ərzində. Əlimizdən tutanlardan daha çox ayağımızdan çəkənlər oldu hər addımda. Bir az müharibə dövrünün yaşatdığı ağrılar, qaçqınlıq həyatı, bir az da inandıqlarımızın yanımızda olmaması büdrətdi bizi, yıxa bilməsə də. Bir az nağıllara inandıq uşaqcasına. Hətta elə inandıq ki, səhv saldıq reallıqla nağıl dünyasını. Qardaşının ipini kəsib quyuya atan qardaşları, qalib olan cırtdanları qəhrəman saydıq. Saf insanları əzablar içində, şərəfsizləri saraylar içində gördük nağıllarda. Hələ bir ətrafımıza baxaq, elə bu günün qalibləri də o cür cırtdanlar deyilmi?

Təkcə boyları ilə deyil, daxilən də balaca olan belə insanlar bu gün də divlərə meydan oxumurmu?

Və bu gün də qardaşlarını quyuya atacaq qədər şərəfsiz olan “qardaşlar” yoxdurmu?

Əlbəttə, var, həm də indi daha çoxdur belələri.

Hə, dostum, bir az da böyüyəndə oxuduğumuz kitablara inandıq. İdeal cəmiyyətlər, mükəmməl insanlar gördük əsərlərdə çox zaman. Gerçəkdə də belə olacağına inandıq nədənsə. Böyüdükcə fərqinə vardıq yanlışlığımızın. Sən demə, bu dünyanın əşrəfi sayılan insan həm də bu dünyanın üz qarasıymış. Yazıçıların yazdıqları, əslində, onların arzusu imiş. Onların kamilliyə səsləyişlərinə inanan insanlara çevrildik zamanla.

Sonra reallıqdakı insanları tanıdıq, saflıqla, məsumcasına. Ayıra bilmədik, ya da heç istəmədik yaxşını pisdən, doğrunu yalandan ayıraq. Çünki o qədər pisliklər, o qədər yalanlar gördük ki, yaxşılığın və doğrunun olduğunu unutduq az qala. İnsanları qırmamaq üçün susduq və susduqca da özümüz qırıldıq, özümüz süründük yaşamaq yerinə. İllər ötdükcə necə sifətlər gördük, dostum. Bizi öz “məsumluq”larına inandıran neçə cür sifətlər tanıdıq. Bütün hisslərin safını yaşamaq və yaşatmaq istədik. Bu da alınmadı bu hissləri də alınıb-satılan dünyada.

Sonra cılızlaşmış insanlar gördük. Yalnız varı, pulu düşünən, övladlarını “ailə” adıyla pula satan valideynlər tanıdıq. Zamanla insanlara olan güvəncimizi itirdik. Hər kəsin bir marağını görüb təmənnalı baxışlardan da uzaqlaşdıq. Və zaman keçdikcə baxdıq ki, elə inandıqlarımız öldürür bizim həyata olan sevgimizi.

Ey haradasa sabahını ümidlə gözləyən dostum, sənə “hər şey yaxşı olacaq” ümidini vermək istəmirəm. Aldatmaq istəmirəm səni. Sən hamıdan çox özünə inan, özünə güvən. İnanma bir başqasına da, elə mənə də. Sadəcə, özünə inan. Yox, əgər fərqli bir həyatının, parıltılı bir yaşamının olmasını istəyirsənsə, onun da bir çarəsi var bu gün. İcazə ver sənə deyim bu “yüksəliş”in sirrini. Dinlə və sonra özün qərar ver, hansı yolu tutacaqsan. Öncə onu deyim ki, oxuma səni aldadan kitabları. Kiminsə uydurduğu nağıllar sənin nəyinə gərəkdir ki. Ürəyini ağrıtma belə mənasız şeylərlə. Əylənmək istəyəndə efirlərimizi izlə. Əmin ol ki, əyləncələr alacaq səni öz qoynuna. Bundan başqa, inanıb ağlama hər gözü yaşlının halına. Bir imkansızın sənə uzanmış əlini görəndə üzünü yana çevir, görməməzliyə vur özünü. Tez-tez öz-özünə təkrar elə ki, “yaxşı adam olsaydı, Tanrı onu bu günə salmazdı”. Bax ha, heç vaxt ağlına gətirmə ki, o insan yaltaqlığı, şərəfsizliyi bacarmadığı üçün bu günə düşüb. Ancaq bu da var ki, çətin günlər yaşayan qürurlu, əyilməyi bacarmayan insan heç vaxt kimsədən kömək ummaz. Acından ölər, ancaq əyilməz, əsla əyilməz.

Sonra belə halları görüb bir az sərt, bir az da daş kimi ol. Yoxsa ürəyinin yumşaqlığından

neçə-neçə səfil yapışacaq yaxandan. Qəddar olmağı bacarmalısan varlandıqca. Zatən öz-özünə baş verəcək bunlar o zaman. Unutma, çox vaxt istədiyin kimi yaşamaq üçün insanlığından, vicdanından, abır-həyandan, şəxsiyyətindən nə qədərsə qurban verməlisən. Dostum, bacara bilərsən bütün bu dediklərimi? Yox, əgər sən də mənim kimi bilmirsənsə, onda uzaq dur yalanlardan və yalançılardan. Deməк, sənə də şirin yalanlar lazım deyil, sən də acılı da olsa, həqiqətləri axtarırsan ətrafında. Acıdığın, həm də hiss etdiyin həqiqəti axtar onda hər zaman. Hələ bir ətrafına bax. Kimə lazımdır ki sənin saflığın? Kimə lazımdır ki sənin düşüncə tərzin? Əlində heç bir imkanın, heç bir səlahiyyətin yoxdursa, sənə kim inanar ki? Sənmi düzəldəcəksən çirkaba batmış, öz yalanına özünü inandırmış insanları? Düzəlməz, dostum, əsla düzəlməz. Boş ver sanki dünyanı düzəldəcək düşüncələrini. Boş ver səni dünənində qoyub gəlmiş insanları. Səni gələcəyə aparacaq insanların əllərindən tut, ancaq hər kəslə də paylaşma içindəkiləri. Əgər sənə uzanmış bir əl varsa, geri çevirmə, lütfən. Çünki bu dünyada o əli tutacaq qədər vaxtın ola bilər sənin. Və unutma ki, səni anlayacaq insanlar da var haradasa. Bəlkə də, elə onlar da sənin kimi düşünür hər şeyi. Bəlkə, elə onları da anlayan yoxdur bu dünyada. Bunu da unutma, dostum, hardasa yaxşı insanlar var. Əslində, “yaxşı insan necə olur?” sualına da bir cavabım yoxdur. Ancaq dəqiq bilirəm ki, var yaxşı insanlar. Və nə yaxşı ki, var...





Allahşükür AĞA

## ALASAN DÜNYANI QOL ARASINA

Yarından küsəndə, deyirəm, bir gün
Qoşulub gedəsən bal arısına.
Dilini bildiyin başa düşmədi,
"Can" söylə dünyanın lal arısına.

Düz oldum, düzümü bilən olmadı,
Üz tutdum, üzümə gülən olmadı.
Gözüm yolda bitdi, gələn olmadı,
Saldım öz başımı qal arasına.

Yaxandan qopmaya dünyanın əli,
Qoşma, müxəmməsi, təcnis, qəzəli.
Dünya Leyli ola, səndə ki dəli,
Alasan dünyanı qol arasına.

## İSMİN 7-Cİ HALI

Gəlin belə düşünək,
Nizələrin qan daman ucu
Əslində, bir parça torpaq deyilmi?

Güllələrin özü də,
Lap qırma düyməciklər –
Başlarında torpaq yaddaşı daşıyırlar.
Ekskavatorla başladı ayrılıqlar,
Zülmlə ayırdılar torpaqdan filizi...
Hələ də ağlayır anası torpaq üçün dəmir.
Torpağı axtarır deyə, özünü hər yerə çırpır,
Hər yerə dəyir.

Bəlkə də, insan bədəni də tanışdı ona,
Tanışdı yox, yaddaşdı ona.
Torpaqda bir yaşayırdılar,
Elə ki ayrıldılar,
Hərəsi bir adda
Çağırıldılar.

Biz yaratdıq ayrılıqları,
Torpaqdan dəmir ayırdıq,
Can ayırdıq,
İndi həsrətlilər qovuşanda ölürük,
Dönürük ismin 7-ci halına.

## ŞƏKİL

Mən səni yadımda belə saxladım,
Danışıb-eləmə, şəkil kimi qal.
Əlini tərpətmə, gəl keç yanımdan,
Gördün, darıxırsan, xəyallara dal.

Şəklin xəyalları çox dərin olur,
Nəyi düşünürsən, götür özünə.
Guya ki, bu səhər gəlin köçürsən,
Şəklini örtüktək dur çək üzünə.

Gözündə qəribə kədər varıydı,
Güldürmə, qoy elə eləcə qalsın.
Xalqın gəlinləri böyüyüb getsin,
Qoy mənim sevdiyim balaca qalsın.

Bir axşam üzündə qəmi sındırıb,
Anan söyləməsin, Allaha şükür.
Bax onda gözündə şəklini cırıb,
Verər küləklərə bu Allahşükür...

## YENƏ BU QIŞDA

Güllə qızdırıbdı ayaqlarını,
Tutub ayağını dimdiyində quş.
Xəyaltək çırpınır, qalxır göylərə;
Cüt qanad sevincdi, cüt qanad alqış.

İndi yuvasına çatan kimi o
Yığacaq altına ayaqlarını.
Bəlkə, ayağına qurban deyəcək
Əl kimi çırpınan qanadlarını.

Batacaq al-qana yumurtaları,
Balalar ilk dəfə qan görəcəkdir.
Yaralı ayağa yerdi günahkar,
O yerə ah kimi hönkürəcəkdir.

Göylər qanadını yaxşı saxladı,
Yerlər ayağını qırdı bu quşun.
Çöllərin şaxtası, sazağı kimi
Ovçusu qəddardı yenə bu qışın.

## QAR DƏNƏCİYİ TEOREMİ...

Qar dənəciyinin içində günəş zərrəsi
Milyon il əvvəl
Yazı kimi qoyulanda...
O qar dənəciyi milyon ildi
Bizə tərəf uçanda,
Uça-uça əlimizə
və ya
Kirpiyimizə qonanda
Ağlımıza gəlmədi ki, həmin qar dənəciyini
Yarıb içindəki günəş zərrəsindən xəbərdar olaq.
Bir dəfə bunu mən etdimsə də,
bacarmadım.
Çünki milyon il bundan qabaqkı əlifbanı bilmədiyimdən,
Hərfləri tanımadığımdan
Eləcə qar dənəciyini atdım yerə.
Atan kimi
Qar dənəciyindən çıxan
Bir sarı çiçəyin təşəkkürü
Sevda kimi açıldı ürəyimdə.

## BALIQLAR, QUŞLAR, UŞAQLAR

Tilov atıb balıqların yuxusunu qaçıran oğlan,
Sənin də başından tilov sallanır,
Xəbərin varmı?
Göyə baxsana!
Balıqların üzməyi nizamıdır dünyanın,
Bu nizamı sədəf boyda tilovla uçurmağı,
Qurdla balıqları aldatmağı bacardınsa,
Sonra küçədə dilənən uşağa bir parça çörək versən,
quşa dən səpsən,
zülüm-zülüm ağlayaram mən.
Üç şey məni həmişə ağladar:
Göydə quşlar,
Çayda balıqlar,
Yerdə uşaqlar –
Onlar yeməyə aldanırlar.

## MƏNİ KÖVRƏLDƏ BİLMƏZ

Məni kövrəldə bilməz
daha güllər,
Güllərin üstündə şehlər,
Ayrılıq dolu şeirlər,
Şeir dolu ayrılıqlar...

Məni kövrəldə bilməz
şəhid evləri,
İslanmış yaylıqlar,
Enmiş bayraqlar,
Rənglənmiş divarlar,
Şəhidin 3-nə gətirilən
Düyülər,
Qəndlər, çaylar,
Ağlayan əmilər və dayılar...

Zəncirində dartınan itlər,
İtə yal bişirməyi unudan qadınlar.
Ailədə şəhidin tək oğul olmağı belə
Məni kövrəldə bilməz.

Məni kövrəldə bilməz
Qolumun kəsilməyi belə,
Ayağımın itkin düşməyi
Məni düşündürməz,
Mən nədən belə
Yox oldum, İlahi?..



Günel NATİQ

# Narıncı yuxular

Özünü tanıyandan xəyallarla nəfəs alırdı. Sevdiyi adamla ilk görüş film kimi olacaqdı. Qəfildən üz-üzə gələcəkdilər. Qızın kitabı yerə düşəcək, oğlan da tez kitabı qaldırıb ona verəcək və dinib-danışmadan yanaşı yol gedəcəkdilər. Arabir qızın çiyinlərinin titrəməsi hisslərinin ürkək ifadəsi olacaqdı. Axı söhbət sükutun gözəlliyini pozur. Sükutda dinləyəcək, hiss edəcək, həzz alacaq o qədər gözəl şeylər var ki. Sükutun söyləyəcəyini bir dastanlıq söz də əvəz edə bilməz. Sükutun rəngləri bir başqadır...

Beləcə, sükutun rəngləri içində yol gedəcəkdilər, onun sevdiyi narıncı rəngin yağışına tutulacaqdılar. Narıncı rəngi çox sevirdi, atası zarafatla deyirdi ki, gərək sən narıncı bayraqlı Niderlandda doğulardın.

Atasını hüznlə xatırlayırdı. Ona yaxın olan tək adamı. Atası heç nə deməsəydi belə, onu başa düşdüyünü hiss edirdi. Qızının dinməzliyini, komplekslərini, yad adamların içində özünü itirib əllərini hara qoyacağını belə bilməməsini...

Keçdiyi yollar xəyallarının yükünü daşıyırdı. Çünki illər keçdikcə xəyalları yükə dönüb ona əziyyət verirdi. Bir gün bu yükü atacağından qorxurdu, yaman qorxurdu.

***

– Xanım, bu şlyapa sizindir?

Dönüb baxdı. Qonur gözlü bir adamdı. Atasının da gözləri qonur idi. Bəlkə, ona görə adam ona çox doğma gəldi.

– Şlyapa sizindir?

Oğlanın əlinə baxdı, sonra qeyri-ixtiyari əlini başına atdı.

– Ay aman... Mənimdir... Hardan tapdınız? Küləkmi aparıb?

Oğlan gülümsədi:

– Mən sizin arxanızca gəlirdim, küləyin sizin şlyapanızı uçurduğunu görəndə düşdüm dalınca, şükür ki, tuta bildim... Yoxsa...

– Yoxsa...

– Yoxsa belə gözəl xanım bu cür havada şlyapasız qalacaqdı...

Utandı. Qızardı. Və ağlına ilk gələn sözü söylədi:

– Bakının küləyindən də olmaya...

– Sizə bir söz deyim?

– Bəli...

– Mən bu küləyi sevdim...

– ...

– Mən bu küləyi sevdim, -oğlan təkrar edib əlindəki şlyapaya baxdı, elə bil sevgisini şlyapaya izhar edirdi. Amma o bilirdi, bu oğlan sevgisini kimə və niyə izhar edir.

Bəzən gözlənilməyən bir fəlakət ardınca elə gözəl şeylər gətirir ki... Heç gözlənilməyən anda... Adam yenə danışdı. Qız da düşündü ki, görəsən, ürəyinin döyüntülərini ölçsələr, neçə olar?

Sonra yanaşı getdilər. Narıncı sonsuzluğa doğru. Bu sonsuzluqda yaşadılar, yaşlandılar. Bir narıncı xoşbəxtliyi o götürdü, birini bu götürdü… Elə bil inanclı xaç suyuna çəkilən kimi, biri bunları narıncı xoşbəxtliyə çəkdi.

***

– Aman, bu əməliyyat nə yaman uzandı... Özü də təhlükəli yerdədi, boyun damarının yanında. Zərrə qədər ehtiyatsızlıq etsək, qanaxmanı saxlamaq olmayacaq.

– Doktor, bəlkə, boyunun bu tərəfindən müdaxilə edəsiz?

– Olmur, assistent, olmur... Xəstə, özünüzü necə hiss edirsiz?

– Yaxşı... Yuxu görürdüm... Narıncı...

– Narıncı yuxu? İlk dəfədir eşidirəm. Özünüzü narahat hiss etmirsiz ki?

– Yox, yox.

– Bir balaca dözün, bu, kiçik əməliyyatdır, görürsünüz, heç narkoz da verməmişik. Bizə boyundakı limfa düyünündən lap kiçik bir parça lazımdır- biopsiyə vermək üçün. Şişin xarakterini öyrənməliyik. Hmm… Zəhrimara qalsın...

– Doktor, sizin işinizi uzaqdan anlamaq olmur. Amma çox çətinmiş…

– Çətin də sözdür? Bütün zərbələr də ən çox həkimə dəyir. İndi bir balaca əlim sürüşsə, vay halımıza. Son dərəcə diqqətli olmaq lazımdır. Tibb bacısı, pinseti verin.

Üç nəfərin-həkimin, assistentin və tibb bacısının haray-həşirlə kiçik şişin üstünə düşməsi o narıncı yuxunun yanında önəmsiz göründü. Eheyy, o dağları görmüsüz-narıncı dağları? Onların yanında bu şiş nədir ki? Bəsdirin, siz Allah. Boş verin. Şişdir də, öz həyatını yaşasın. Bəlkə, onun da arzu-kamı var...

– Xəstə, özünüzü necə hiss edirsiz?

– Yaxşıyam, doktor. Yuxu görürdüm. Narıncı…

– Bir az səbirli olun, az qalıb.

– Eynəyimdən nigaranam... Heyif ki, çıxarmalı oldum.

– Narahat olmayın, eynək bizdədir, əməliyyatdan sonra verəcəyik. Həm eynək indi sizin nəyinizə lazımdır?

– Öyrəşmişəm, doktor. Gözümdə olanda özümü rahat hiss edirəm.

– İndi narahatsız? Ürəyiniz sıxılmır?

– Yox, yox, narıncı yuxular məni sıxılmağa qoymur.

Doktor əməliyyat otağında eynəyini tələb edən xəstənin narıncı yuxu görməsini normal hesab etdiyindən daha heç nə soruşmadı.

– Tibb bacısı, pinset. Zəhrimara qalsın. Çıxmır ki. Aman Allah!

– Doktor, bəlkə, bu tərəfdən müdaxilə edəsiz...

– Onu da sınaqdan keçirim, görək nə olur.

Yavaş-yavaş gərilməyə başlayırdı. Gözlərini yumub özünü narıncı rəngin boşluğuna buraxdı. "Narıncı Niderland, narıncı futbol komandası, narıncı köynəkli futbolçulara azarkeşlik edən atam… Narıncı rəngin enerjisi, sevinci və xoşbəxtliyi… Həmişə düşünmüşəm ki, narıncı geyim üzümün qarayanızlığını gizləyir, daha gözəl göstərir məni. Ay aman, axı mən niyə gözəl doğulmadım? Bəlkə də, gözəl olsaydım, bu şiş qıymazdı mənə. Qoyardı öz ömrümü yaşayım. Öz kəpənək, öz qarışqa ömrümü yaşayım. Bəlkə, bu naxələf şişə üz tutum, dərdləşim onunla? Həmişə onu görməzdən gəlmişəm, dərdimi deməmişəm. soruşmamışam ki, niyə mənim həyatımı məhv etdin, oğul-uşaq üzünə həsrət qoydun?.. Həkim "əgər ana olsan, öləcəksən" dediyi anın ağırlığına ürək tab gətirər? Bəlkə də, o vaxt üzümü tutub desəydim ki, Allahın verdiyi quruca canımda nə tapmısan ki, əl çəkmirsən məndən. Allah da küsüb, sən küsmürsən. Ay şiş, açıl boynumdan, vallah, səninlə sevincimi-kədərimi bölməkdən yorulmuşam. İndi ki belə oldu... Bax, mən sənə inad, uzun ömür yaşayacam, 60, 70, 80… yox, lap 90 il yaşayacam və səni xatırlayanda qəhqəhə çəkəcəm... Hə, qəhqəhə çəkəcəm... Mən səni..."

– Şükür! Xəta-bəlasız şişdən kiçik bir parça götürə bildim.

– Ura, doktor, təbriklər! Sizinlə işləməkdən qürur duydum.

– Sağ ol, assistent.

– Dedim də, alınacaq.

– Hə. Çox həssas işdir, bir balaca oyan-buyan olsaydı, xəstəni qan aparacaqdı. Xəstə, siz yaxşısız?

– Bəli, yaxşıyam…

– Yenə o yuxunu... hmm… narıncı yuxunu görürsüz?

– Artıq görmürəm.

– Niyə?

– Görmək istəmirəm çünki.

Həkim eynəyinin altından xəstəyə nəzər saldı, qorxulu bir şey olmadığına əmin olandan sonra son tapşırıqlarını verib, otaqdan çıxdı. Yara tikildikdən sonra o da durdu, pijamasını ağır-ağır geyindi, eynəyini taxdı və birdən hönkürüb ağlamaq istədi.

***

Sonrakı günlərdə ağır və yorucu müalicə dönəmi başladı. Maddi və mənəvi ağrılara mətanətlə sinə gərdi, çünki başqa yolu da yox idi. Bir şəkildə çıxmalıydı bu vəziyyətdən. Həm özünə söz vermişdi. Daha doğrusu, özünə yox, onu bu hala salan naxələf şişə söz vermişdi, onu bədəninin içində ram edib axırına çıxacaq və əsla təslim olmayacaqdı.

Saçlarını yellər aparanda (kimyaterapiyanın qurbanı olanda) da dözdü. Bir də ki, saçları xəstəliyin təsirindən onsuz da zəifləmişdi, cansız olmuşdu, yerinə təzə, qüvvətli tüklər gələcəkdi. Sağlam, qapqara saçlar. Həm də xəyal qurmaq üçün yeni arzuları doğmuşdu: "Saçlarım gələcək, onları darayacağam, hörəcəyəm, bax, bu sancağı da taxacağam. Qoy gözümün qabağında dursun, baxanda təsəlli tapmaq üçün".

Həm də ki, çoxdandır uzun saçların xəyalını qururdu. Lap vaxtıdır. Gözəl pariklər satılır, gerçəyindən seçilmir, həm də uzun... Onlardan birini alaram. Yəhudilər deyir ki, hətta ən pis vəziyyətdən də faydalı bir şey qazanmaq olar.

Təzə parik sifət quruluşunu dəyişmişdi, onu olduğundan gözəl göstərirdi. Adamların maraq dolu baxışları qənaətini doğrultdu. İşdə onu tanıya bilməyənlərə isə tanış mimikalarla özünü nişan verməyə çalışdı, alınmayanda da gülümsəyib keçdi. Evə qayıtmaq üçün avtobus dayanacağına gedərkən onu görənlərin çaşqın və fikirli baxışlarını düşündü.

Saçlarını külək yelləyirdi, sonra bir anlıq parikin altlığı yerində oynadı, amma rezini bərkitmişdi, təhlükə yox idi.

Sənin olmayan saçlarla da küləyə qarşı getmək olar. Küləyə inad, həyata inad, bunları sənin həyatına soxmuş naxələf şişə inad...

Hər şey qəfil oldu. Taxma saçları başından çıxdı, azadlığa can atan quş kimi öz yuvasından uçdu. Hər şey elə ani oldu ki, o geri çevriləndə saçların küləyin dirijorluğuyla qəribə bir ritmdə süzərək uzaqlaşdığını gördü.

Sonra öləziyən ümidlə əlini başına çəkdi. Amma əlinin hissiyyatı ona çirkin həqiqəti dedi.

Sonra ətrafa baxdı. İnsanlar ağır kadrlardakı kimi irəli-geri gedir, bəzisi ona baxır, bəzisi gözlərini bərəldir, bəzisi isə çaşqın-çaşqın gülürdü. Hər şeyin gec olduğunu anlasa da, gödəkçənin papağını başına keçirdi.

– Xanım, bu sizindir?

Əlində pariki tutmuş oğlan qaçaraq ona yaxınlaşdı.

Gözlərini yayındırmağa çalışaraq:

– Mənimdir, – dedi.

Oğlan pırtlaşıb kol-kosa oxşayan pariki onun əlinə verdi. Bu oğlan narıncı xəyallarından ona tanış olan, şlyapanı küləyin əlindən dartıb qoparan və müzəffər döyüşçü kimi ona gətirən adama heç bənzəmirdi. Bəlkə də, tale onun xəyallarını lağa qoymuşdu?..

Pariki alıb əlini üstündə gəzdirdi. Elə bil yolunda getməyən nələrisə hamarlayıb düz yola salacaqdı. Görəsən, parikin uçduğunu görən adamlar hələ yan-yörədədirlər? Görəsən, keçib gediblərmi? Yoxsa onun sirrini bilən adamlar hələ ətrafında qalıb?

Bəs maşınlar? Yəqin ki, maşındakı adamlar da gördü. Görəsən, həmin maşınlar ötüb keçdilərmi? Görəsən, maşındakı adamlar hələ də ona baxıb gülürlər? Bəlkə də heç gülmürlər, məgər keçəl adam heç görməyiblər? Heç onların xəstəsi olmayıb? Heç vaxt saçları tökülmüş qadın görməyiblər?

Oğlan nəsə deməyə özünü borclu hiss edirdi elə bil:

– Bilirsiz, mənim bacımda da beləsi var. Uzun saçları sevir, tez-tez istifadə edir.

– Mənim saçlarım heç yoxdur, ona görə taxıram.

Oğlan papağın uclarını əlində saxlamaq üçün onun necə cəhd göstərdiyinə baxıb kəkələdi:

– Qorxmayın, saçlar elə tez gəlir ki. Mən də saçımı yayda qıxdırmışdım, bir aya gəldi.

Pariki əlində bərk-bərk sıxıb gülümsəməyə çalışdı.

– Bilirəm, sağ olun.

Ağlamamağa söz vermişdi. Dönüb yola düzəldi. Külək hələ də sakitləşməmişdi, hələ də ondan nələrisə bölüşməyi tələb edirdi. Görünür, taleyə borclu olduğu çox şeylər vardı...

***

– Doktor, saçlarım nə vaxt gələcək?

– Müalicə bitən kimi gələcək.

Müalicə bitən kimi saçlarının yolunu gözləməyə başladı. Hələ bir gəlsin, onları çox sevəcəkdi. Lap qısa da olsa, əzizləyəcəkdi, qırmızı sancaqlar taxacaqdı.

Artıq küləkli havalarda ehtiyatlı olmağa çalışırdı. İki əliylə tuturdu pariki. Süni tüklərdən düzəldilmiş parik çox tez köhnəlib keyfiyyətini itirmişdi, uzun saç kimi cazibədarlığı da qalmamışdı. Bir-birinə dolaşmışdı, lap quş yuvasına oxşayırdı, ya da başı soyuqdan qoruyan papağa. Bəzən hər şeydən bezib elə adamların içində bu mənasız saç yığınını başından çıxarıb yerə atmaq, “əslində, mən buyam; keçəl, saçsız adam” – demək istəyirdi. Sanki parik onun əsl kimliyini qapayan, üstünə çökən, havasızlığa tərk edən, əsl saçını, başını, üzünü gizləyən bir əcinnə idi.

Yatanda keçəlliyini özündən gizləmək üçün başına yaylıq bağlayır, sonra havası çatmayanda yavaş-yavaş açırdı, örtük sinəsinə düşür, o da saçsızlığıyla barışan kimi olurdu. Ancaq yalnız bir gecəlik.

Bir dəfə mağazada iki qadının ona baxaraq nəsə danışdığını sezdi, onların yaxınlığındakı vitrinə əyiləndə qadınlardan birinin sözü qulağını dəlib keçdi:

– Parikdi, hə, düz deyirsən. Allah, sən saxla! Cavan adamdı, görəsən, başında parik niyə gəzdirir?

– Ay qız, bəlkə, dərdi var, bəlkə, saçı yoxdur?

Başını qaldırdı, qadının düz gözünün içinə baxdı.

– Hə, düzdür, saçım yoxdur. Keçələm mən, keçəl. Baxmaq istəyirsiz?

Qadın çaşqınlıqdan qızardı.

– Aaa, dəlidi ki bu...

– Azz, gəl gedək, baş qoşma buna, – deyə rəfiqəsi qolundan tutub qapıya çəkdi. O da dönüb onlar gözdən itənə kimi dallarınca baxdı. Elə bil iblis şişə deyəcəklərni gözləriylə onlara deyirdi.

Həmin gün qırmızı sancaqlarını çıxarıb baxdı, təzədən yerinə qoydu. “Sizə inad sağalacağam”, – dedi. Birdən fərqinə vardı ki, başının dərisinin qaralır, təzə tük çıxırdı. Səməniyə oxşatdı özünü, güldü. Saçının eşqinə güzgünü də sevdi, o güzgünü ki, aylardan bəri baxmağı tərgitmişdi…

***

Bir aydan sonra saçları bir buğda boyu da artmışdı, amma hələ pariksiz küçəyə-bacaya çıxmaq olmazdı, çox qısa idi, bir növ, keçəl kimi…

Amma özünü nağıldakı “saçı uzun Buray xanım” kimi hiss edirdi, “başımda parik olsa da, saçım var” – deyə için-için gülürdü. Ona kədərlə baxanlara da özlüyündə gülürdü. “Onlar nə bilsin ki, artıq mən də onlar kimiyəm... Tam olmasa da, demək olar ki… onlar kimi”.

Bir dəfə oxumuşdu ki, qadınlar saçlarıyla kosmosla əlaqə qururlar. “Uzun saçlının ahından qorxun” deyə bir məsəl də vardı. Çoxdan idi ki, bu deyimlərlə özü arasında əlaqəni itirmişdi. İndi həmin rabitəni tapdıqca qorxu-hürkü hiss etmədən şərin üstünə gedirdi.

***

Müalicə bitdiyi gündən dörd ay keçdi. Həmin vaxta qədər oğrun-oğrun çıxan kövrək tüklər oğlansayağı vurulmuş qadın saçına oxşamağa başladı. Və nəhayət, uzun aylardan bəri ilk dəfə pariksiz küçəyə çıxdı. Paltarlarını saçına uyğun seçdi. Qısa ağ gödəkçə və cins şalvar dik duran qısa saçlarla modern və dəbli görünürdü. Qarşıdan iki cavan oğlan gəlirdi, onların baxışlarını öz üstündə hiss edəndə gərginləşdi, özünü növbəti zərbəyə hazırladı, amma oğlanlardan birinin yanından keçərkən dediyi:

– Sən bir stilə, tərzə bax! – sözlərinin kompliment olduğunun fərqinə varanda kefi yerinə gəldi. Başını qaldırıb havanın qoxusunu içinə çəkdi, dərindən nəfəs aldı. Özünə... yox, naxələf şişə verdiyi sözə, deyəsən, əməl edəcəkdi.

Saçlarının azadlığının ilk gününü dənizlə birgə bayram etmək istəyirdi.

Skamyada yerini rahladı. Yolüstü aldığı simitdən bir dişlək götürdü. Dənizin havası çoxdan bəri yadırğadığı azadlıq qoxusuna bənzəyirdi.

Simiti ovub göyərçinlərə atdı. Ağ, boz, göyümtül quşlar ürkək-ürkək onun yanına gəlir, yemi dimdikləyib qəniməti ələ keçirəndən sonra qanad çalırdılar. Quşları öz xəyallarına bənzətdi. O xəyallar ki, beləcə ürkək-ürkək yaxınlaşır, onun əlindən bəslənir, qanad çalırlar, amma uzaqlaşmırlar, çünki...

– Xanım, bu quşları sizin əlinizdən almaq olar?

Başını qaldırdı, tanış bir adam ona baxıb gülümsəyirdi. Onu elə bil hardansa xatırlayırdı, amma məhz hardan? – Kəsdirə bilmədi. Xəyallarındakı adam idimi- şlyapasını küləyin əlindən alıb romantik cəngavər kimi ona təslim edən adam, yoxsa uçan pariki tutub gətirən oğlan? Bəlkə də, heç biri deyildi, bəlkə də, hər ikisiydi, kim bilir...

– Quşları əlimdən almaq? Necə yəni?

– Eləcə. Çörək gətirmişəm, onlara verəcəkdim, amma elə siz tərəfə uçurlar, ona görə paxıllığım tutdu.

Adam bunu deyib gülümsədi. Qız da gülümsədi.

– Oturmağıma etiraz etməzsiz?

– Yox, buyurun əyləşin , – deyib skamyanın kənarına çəkildi.

Adam əlindəki çantanı böyrünə qoyub oturdu. Çantadan içində çörək qırıntıları olan səliqəylə bükülmüş sellofan çıxardı.

– Siz bunu məxsusi quşlar üçün gətirmisiz?

– Əlbəttə. Quşları sevirəm. Və quşları sevən insanları. Xanım, yoxsa siz sevmirsiz?

– Kimi?

– Kimi? Hmm… Quşları…

– Quşları sevirəm.

– Bəs quşları sevən insanları?

– Quşları sevən insanları... Hmm…

Adam bic-bic güldü. Qız bilərəkdən onu dolaşığa saldığını anlayıb başını təbəssümlə yellədi.

Adam onlara yaxınlaşan göyərçinlərə işarə edib:

– Ailəyə bənzəmədikmi? – dedi. – Siz, mən və bizim uşaqlarımız.

Bunu deyib elə məsumca gülümsədi ki, qızın da dodaqları qaçdı.

– Qəribə oğlansız.

– Elə siz də qəribə qızsız. Bir də bilirsiz nə var? Nə yaxşı ki, ikimiz də qəribəyik, yoxsa heç tapışmazdıq.

Bunu deyib, böyüyən, genişlənən, düz dünyanı və onun itkilərinin yerini tutan şirin qəhqəhəylə güldü. O da oğlana qoşuldu. Quşlar da ürəklənib yaxına gəldilər. İndi, doğrudan da, ailəyə oxşayırdılar.

***

…Və sonra yanaşı getdilər. Narıncı sonsuzluğa doğru. Bu sonsuzluqda yaşadılar, yaşlandılar. Bir narıncı xoşbəxtliyi o götürdü, birini bu götürdü… Elə bil xaç suyuna çəkilən inanclı kimi, biri bunları narıncı xoşbəxtliyə çəkdi.





## Nina SİMİÇ-PANİÇ

Serbiyalı tərcüməçi, yazar Nina Simiç-Paniç 1994-cü ildə Belqradda doğulub. Bakalavr təhsilini Belqrad Universitetinin fəlsəfə fakültəsində "Ədəbiyyat və ədəbiyyat fəlsəfəsi" ixtisası üzrə tamamlayıb. Magistr təhsilini də elə həmin universitetin mədəniyyət və media fakültəsində, ictimai əlaqələr ixtisası üzrə bitirən Nina bir neçə əcnəbi dil bilir. İngilis, rus, ispan, italyan, türk və Çin dillərini peşəkar səviyyədə mənimsəmək üçün mütəmadi dərslər alıb.

O, Vojvodina Müstəqil Jurnalistlər Assosiasiyası, Serbiya Ədəbi Tərcüməçilər Assosiasiyası və Serbiya Yazarlar Assosiasiyasının Beynəlxalq Kooperasiya bölməsinin üzvü, PEN Beynəlxalq Fondunun (mərkəzi Slovakiyada yerləşən) fəxri üzvüdür. O, Hüseyn Cavid, Vaqif Səmədoğlu, Haydar Ergülen, Tugrul Tanyol, Vyaçeslav Kupriyanov, Andrey Qalamaqa və s. bir çox görkəmli şair və yazarların ədəbi irsinin tərcüməçisi kimi nüfuz qazanıb.

Hazırda rəsmi olaraq, "Computech Ltd" nəşriyyat agentliyində tərcüməçi və pr menecer kimi fəaliyyət göstərir. Ötən il bütün bu fəaliyyətinə, Serbiya ədəbiyyatı və mədəniyyətinə verdiyi töhfələrinə görə Mədəniyyət və Təhsil Cəmiyyəti və Serbiya Mədəniyyət və İnformasiya Nazirliyi tərəfindən "Zlatna Znacka" mükafatı ilə təltif olunub.

### ƏZƏMƏTLİ PALIDIN SİRRİ

Hilal görkəmli bıçağın getdikcə zəifləyən
parıltısının itiliyi,
taca bəzək olsa...
Ay işığı kimi parıldayan ağ daşlar
ən saf halında – xammal kimi qaldı.

Əslini itirməkdən ehtiyatlanan
bu möhtəşəm mənzərə üçün
dərin minnətdarlığınızı dilə gətirin,
qaranlığın ortasında açdığınız
yaqut kimi qırmızı şərabı
bu sirli qüdrətlə dolu palıdın
müqəddəs köklərinin şərəfinə qaldırın.

Barmaq uclarınızı
dərin çatlağın qabıqları üzərində gəzdirin,
bəşər övladının tarix boyu
keçdiyi həyat yolunu oxuyurmuş kimi,
bəzən çox gizli işarəni gizlətmək istəyirmiş
sayaq
barmaqlarınızla örtün çatlaqların üzərini:
Göy üzünün cənnətinin gizlədiyi kosmik ip
yumağı –
bu ağacın hər bir yarpağı
sanki Tanrının sözü ilə bəzədilən bir iynə ilə
tikilib.
Sanki bu yarpaqların arxasındakı
tikiş yerləri
kölgəsinə sığınan müdriklərə yol göstərir...

Nəfəs alan hər canlının haqqını qoruyaraq
və sevərək yaşamağın sirrini öyrənmək
vacibdir.
Bu sirr isə bu qüdrətli palıdın köklərində
İlahi bir ehtiyatla gizlədilib.
Sanki bir kaman səsinə doğru qanad çırpan
quşun

tüklərindən səpələnib ağacın üstünə,
torpağa da, yarpaqlarına da.
Bir sirrin yaradılışı, əslində, bu qədər sadədir.

## BLAZAR*

Dərin səmanın canlı keçidləri arasında,
Ulduzlararası zülmətin qatılığında
güclü bir axın var gücü ilə sovrulur girdabda.
Yol özü də ip yumağı kimi fırlanmağa başlayır,
Qalaktik boşluğun nüvəsi ətrafında hərlənir...
Bu baş verən ən xırda hərəkət
milyonlarla günəş işığı qədər böyük
əhəmiyyət kəsb edir.
Yerdə möhkəm qoz qabığının çatlamasının
belə
göylərdəki bu sonsuz dövrlə əlaqəsi var.
Həyatın hər an yenidən başlaması da
bundandır.
Ürəyi soyudan bir tələskənliklə sovrulan
kosmik toz buludunda
Yerdəki tüstünün də,
içilən romun da,
dərilən moruğun da öz ətri var.
İqlimlər ayrılır bu sovrulmadan,
sanki ən xırda kosmik kapilyarı da
bu bəşəri ritmə və rəqsə həvəsləndirir.
Arxetipik şüaların əsl mənbəyi
və ruhundakı o uzanma, çatma arzusu
sancılı bir doğum kimi başlayıb,
Yer üzünün yumşaq səthinə nüfuz edir...
Qara dəlikdən çıxan bu işıq
göz qapaqlarımız arasından sıyrılıb,
yenidən qara bir dəliyə qərq olur.

*Tərcümə edən:*
Fərid **HÜSEYN**

---

* – *Kosmik qara dəliyi xatırladan, durmadan dairəvi şəkildə hərəkət edən toz buludu*

# İKİ DÜNYA ARASINDA



Məmməd MƏMMƏDLİ

Yerin mənzərəsini illüminatordan seyr edirdi. Ağappaq, seyrək buludlar süd kimi dağlara, dənizlərə dağılmışdı. Gözlərinin qarşısından keçib gedən yaşıl meşələr, mavi okeanlar, sapsarı qumlu səhralar gerçək bir nağıla bənzəyirdi. Bu gözəlliyi seyr edincə sevincindən gözləri yaşardı. Qəfldən Yer ondan aralandı və o qədər uzaqlaşdı ki, sonda ağappaq ulduza dönüb gözdən itdi. Ulduzların arasında günəşi aramağa başladı. Görəsən, harda idi, geriyə yolu necə tapacaqdı? Özünü toparlayıb baxışlarını kainatın bölgələrində gəzdirdi. Ulduzlar buradan nöqtə kimi görünmürdü, əksinə, daha şiddətlə sayrışırdılar. Hərəsi bir rəngdə, bir çalarda görünüşlərilə sanki zülmətə meydan oxuyurdular. Və ona elə gəldi ki, ulduzlar o qədər də uzaqda deyil. Bu zaman sürət artdı, gözünün qarşısındakı mənzərə sanki rəssamın qarışıq boyalarla kətan parça üzərində çəkdiyi anlaşılmaz bir rəsmə bənzədi. Gözləri torlandı, heç nəyi ayırd edə bilmədi. Ona elə gəldi ki, qarşısında nə vardısa, ondan uzaqlaşır, amma qalaktikanın kiçildiyini ayrıd edəndə hardan gəldiyini anladı… və insanlardan bu qədər uzaqda olmasından xoflandı. Tənhalığın vahiməsi canına üşütmə saldı. Bu zaman arxadan çiyninə dördbarmaqlı bir əl toxundu:

– Narahat olma, biz səni olduğun yerə aparacağıq, – dedi.

Arxaya çevriləndə baxışları boz rəngə çalan bir cüt iri gözlə qarşılaşdı. Gözlər bu yalqız insan övladının ürəyindəkilərdən xəbərdarmış kimi, onda səyahətin maraqlı keçəcəyinə əminlik yaradırdı…

Bu dəfə isə illüminatordan baxanda qarşısında tam başqa bir mənzərə açıldı. Mavi ulduzun sehrinə düşdüyündən qamaşan gözlərini ondan çəkə bilmirdi. Bu, Deneb idi. Bir qədərdən sonra gözləri gur işığa alışdı. Daha sonra kosmik aparat ona doğru uçmağa başladı. İndi ulduz elə nəhəng görünürdü ki! Ətrafa saçdığı od-alovun işığı üzünə çökmüş vahiməqarışıq təbəssümü aydınlatdı. Deyəsən, arzusuna çatmışdı, ancaq nədənsə Denebin orbitində canına yenidən qorxu düşdü. Az keçmiş maraq bu əcaib qorxunu üstələdi və özündə güc hiss etdiyindən hədsiz bir acgözlüklə tamaşasına davam etdi. Mavi ulduzun səthindəki tünd ləkələrdən gözünü çəkə bilmirdi. Amma yaxınlaşdıqca bu ləkələrin dağlar, dərələr olduğunu gördü. Necə də sirli bir görüntü idi! Bu görüntünü heç nə əvəzləyə bilməzdi! Yavaş-yavaş ulduzun atmosferinə daxil oldular. Uçduğu kosmik aparatda uğultuya qarışan cırıltılar beynini elə sancırdı ki, az qala qulağının pərdəsi deşiləcəkdi. Bu arada hərarət endi və bədəni soyumağa başladı. Büzüşüb bir küncə qısıldı. Bayıra baxmağa cürət etmirdi. Kosmik aparat

dərələrin birinə enəndə boz rəngli gözlər yaxınlaşaraq ona şüuraltı məlumat ötürdü:

– Qalx ayağa, çatmışıq. İndi bayıra çıxa bilərsən.

Əyninə əcaib bir skofandrı təzəcə geyindirmişdilər ki, ayaqlarının altında balaca bir dəlik açıldı və getdikcə genişlənməyə başladı. Nəhayət o, dəlikdən keçib yavaş-yavaş aşağıya endi. Ayağını ulduza basan kimi dəlik kiçilib yox oldu. Özünü itirmiş halda ətrafa göz gəzdirdi. Ucu-bucağı görünməyən dərə sanki onu sonsuzluğa buraxmışdı. Ayağıyla yeri yoxladı. Bura ilk baxışda möhkəm, sərt təsir bağışlasa da, bəzi yerlərdə çatlar yaranmış və ulduzun qaynayan nüvəsindən özünə yol tapmış mavi rəngdə maye axıb çökəklikləri doldurmuşdu. Buralar çox soyuq idi. Şaxtalı havanı yararaq dərədə gəzişməyə başladı. Əyildi ki, yerdən bir nümunə götürsün, ancaq alınmadı. Yer düşündüyündən də möhkəm idi. Əllərini qoşalayıb civəyə oxşar mavi rəngli mayeni ovcuna aldı. Ovcunda öz əksini görəndə yaddaşını itirmiş kimi oldu, kimliyini, hardan gəldiyini unutdu. Haldan-hala düşdü, bu müəmmalı maddə sanki ruhunu canından sovururdu. Birdən yerin çatları aralanmağa başladı. Maye qaz ətrafı bürüdü və o, dizə qədər qalxan bu sehrli maddənin içində var-gəl etdi. Hərarət durmadan artırdı. Canına istilik gəldi. Hər yan oda büründü. Cəhənnəm alovu ətrafı külə çevirirdi. Qəflətən baş verən güclü partlayış hər şeyi göyə sovurdu… Təyyar qışqırıb yerindən dik atıldı. Anası hövlnak özünü içəri atdı:

– Nə oldu sənə, qadan alım, yuxu görürdün?

– İşığı yandır! – Təyyar həyəcanla səsləndi.

– A bala, səhərdi, hər tərəf işıqlıdı.

– Ana, mən görmürəm…

– Allah məni öldürsün, ay oğul, niyə görmürsən?

Təyyar gözlərini ovuşdurdu, qorxu qəlbini çulğasa da, anasını sakitləşdirməyə çalışdı:

– Narahat olma, ana, keçib gedər.

Təyyarın gözündə hər yer zülmətiydi. Amma təlaşı çox sürmədi. Bir qədərdən sonra gözlərinə yavaş-yavaş işıq gəldi. Bədəni tər içindəydi. Anasının yanından sivişib hamam otağına keçdi. Soyuq duş qəbul etdikdən sonra səhər yeməyini yedi, sonra da əlini telefona atdı. Xəttin o biri ucunda Emin dəstəyi götürdü:

– Alo!

– Salam! Gəl Malakan bağına, sənə deyiləsi sözüm var…

Dostlar tez-tez görüşdükləri Malakan bağına üz tutdular. Bağın kənarındakı kafeyə keçib masaların birində özlərinə yer elədilər. Təyyar pivə sifariş etdi. Nədənsə mətləbə keçmək onun üçün çox çətin idi. Bilmədi, sözə hardan və nədən başlasın. Nəhayət, Emin dilləndi:

– Bilirsən, təqvim oğrusuna məhkəmədə neçə ay iş verdilər?

– 12 ay.

Təyyar belə əyləncəli sualları dostundan tez-tez eşidirdi, bu dəfə hazırcavab oldu və bayaqdan qəlbini sarmış həyəcanını söndürmək üçün eyni ahənglə məzəyə keçdi:

– Bəs sən bilirsən qatil əylənmək istəyəndə nə edir?

– Vaxt öldürür?

– Əhsən! Yaxşı, bəs ona neçə il düşür?

– Bax bunu hakimdən soruşmaq lazımdı.

Ofisiant Təyyarın sifarişini gətirdi və pivənin qapağını ehmalca açıb, bakallara süzüb aralandı. Emin bir siqaret alışdırdı, Təyyarsa çəkib qurtardığı siqaretin kötüyünü külqabına basaraq yenisini yandırdı.

– Emin, zarafat qalsın bir yana, amma inanmazsan, dəhşətli, həm də canlı bir yuxu görmüşəm – deyib, alnının tərini sildi.

– Nə yuxu?

– Bilirsən, elə bir əsrarəngiz yerdəydim ki… – dərindən ah çəkib, yuxusunu birnəfəsə danışdı.

Bu qarışıq, çarpaşıq yuxudan bir şey anlamayan Emin soyuq, laqeyd halda əlini yellədi:

– Hə, nə var burda, yuxudu də. Bircə ona təəccüblənirəm ki, bu boyda əhvalatı yadında necə saxlamısan. Adətən, yuxular yaddaşdan tez silinir.

– Bu, adi yuxu deyil, gerçəklikdi… eh, səni necə başa salım… Bilirsən nə var, gəl Xaçmaza gedək.

– Xaçmazda nə ölümümüz var?

– Sənə möcüzə göstərmək istəyirəm.

Təyyar yol boyu hələ də ötən gecə gördüyü yuxunun təsirindən ayıla bilmirdi. Nədən

danışırdısa, yenə mövzunu o əsrarlı yuxunun üstünə gətirirdi.

– Sən lap kino görmüsən ki… – Emin yuxu haqda təəssüratını belə tamamladı. Sonra dostunu indicə görürmüş kimi diqqətlə üzünə baxdı:

– Mənə sarı çön görüm, elə bil gözündə çəplik var.

– İndi görürsən bəyəm? Bu, anadangəlmədi. Sağ gözüm dartmır…

Onlar Xaçmaza gecəyarı çatdılar. Emin maşını meşəlikdə yerləşən istirahət mərkəzinə sürdü. Özlərinə rahat bir ev tutdular. Yolun yorğunluğundan otağa girən kimi çarpayıya sərələndilər. Ancaq çəyirtkələrin cırıltısı, bir də mələfələrə hopmuş meşənin nəmişliyi yuxularına zəhər qatırdı. Təyyar yerinin içində bir siqaret yandırıb tüstünü hərisliklə içinə çəkdi. Emin də əlini alışqana atdı. Adda-budda nə danışırdılarsa, söhbət yenə möcüzəvi yuxunun üstünə gəlirdi.

Söhbətin qızğın yerində bayırdan gələn güclü işıq dalğası pəncərəyə elə çırpıldı ki, şüşələr çilik-çilik olub otağa səpələndi. Səbəbini anlamayan dostlar qorxu içində baxışdılar, bircə anda gözlərinə qaranlıq çökdüyündən yerlərindəcə qurudular. Bəbəklərinə nüfuz edən fotonlar canlarına yayılıb, elə bil hüceyrələrini yerindən oynatmışdı… Handan-hana gözlərinə işıq gəldi.

– Bu nədi, ə? Nə baş verir burda?

– Mən sənə demişdim axı… Bu da sənə möcüzə. – Təyyar cəld özünü bayıra atdı.

Aralıda iri ağacların arasından boylanan ağ rəngli bir şar nəzərini cəlb etdi. Şar o qədər böyük idi ki, qaranlıq meşənin səssizliyində insanı vahimələndirirdi. Təyyar yadplanetlilərin ondan ötrü gəldiyini zənn etdi və şara doğru qaçmağa başladı. Canında xof olsa da, hansısa bir cazibə qüvvəsi onu şara sarı çəkirdi. Uzaqdan əcaib məxluqları görən kimi “Mavi ulduz! Yay üçbucağı!



Deneb!" – deyə qışqırmağa başladı. Ancaq yadplanetlilər ona əhəmiyyət vermədən kosmik aparatlarına mindilər. Təyyar sürətini artırıb onlara çatmağa çalışırdı, "bir dayanın, məni də götürün" – deyib, elə hey qışqırırdı. Bu vaxt ayağı büdrəyib üzüqoylu gölməçəyə yıxıldı. "Mavi ulduz! Mavi ulduz!" – deyib, əlini onlara sarı uzatdı. Ancaq gec idi. Şar sürətlə göyə qalxıb, bir göz qırpımında gözdən itdi. Təyyar sevimli oyuncağını itirmiş uşaq kimi çox məyus oldu. Kim bilir, belə bir fürsətlə bir də qarşılaşacaqdımı… Təngnəfəs halda ayağa qalxıb üst-başını çırpdı və suyu süzülə-süzülə geriyə döndü.

Otağa girər-girməz Emin suallarını uc-uca caladı:

– Dostum, nə baş verir burda? Bu nə möcüzədi?

Təyyarın arzusu bir anda içindən tüstüsü çıxan çürümüş qoz kimi puç olmuşdu. Heysiz halda mızıldandı:

– Filmin belə sonluqla bitəcəyini heç gözləmirdim...

Onlar bütün gecəni gözlərinin qarşısında baş vermiş hadisəni müzakirə etdilər. Söhbət o qədər uzandı ki, nə vaxt yuxuya getdiklərindən belə xəbərləri olmadı. Axşamdan cırıldaşan çəyirtkələr də səslərini kəsmişdilər…

Hava küləkli idi. "Əlif Hacıyev" Elmi-tədqiqat gəmisi dalğaların arasında yırğalanırdı. Gilavar göyün üzünü alan qara buludları ora-bura qovur, onlar da sanki buna etiraz olaraq hirsini şimşəklə çıxarırdılar. Gəminin göyərtəsində qapıdan bərk-bərk yapışıb qəzəblə yağışı seyr edirdi. Bədəni titrəsə də, soyuğu hiss etmirdi. Yırğalandıqca ürəyi bulanır, gəmidəki otağına çəkilmək istəyirdi. Ancaq ona verilən tapşırıq bütün planlarını pozdu. Kapitanın göstərişilə batmış sualtı qayığı tədqiq etmək üçün arxası üstə dənizə kəllə vurdu. Yavaş-yavaş Xəzərin dərin qatlarına dalmağa başladı. Su bulanıq olduğundan üç-beş metrdən uzağı görmək mümkün deyildi. Yan-yörəsindən balıqlar şütüyüb keçirdi. Onların gümüşü pulcuqları bulanıq suda sanki ay işığının altındaymış kimi parıldayırdı. Balıqlar çox yaxında üzürdülər. Hətta əllə onlara toxunmaq istədi. Ancaq balıqlar bunu hiss edən kimi dərhal suda itir, sonra da kabus kimi qəfildən peyda olurdular. Qolundakı cihaza baxdı – 130 metri göstərirdi. Hələ bir qədər də enməli idi, çünki bu ərazidə suyun dərinliyi 240 metrə çatırdı. Dərinliyə daldıqca suyun hərarəti yavaş-yavaş aşağı düşürdü, o isə buna əhəmiyyət vermir, "görəsən, sualtı qayıq hansı səbəbə batıb? Onu tapmaq mümkün olacaqmı?" – sualları ilə beynini yükləyirdi. Nəhayət, dənizin dibinə çatdı. Başındakı fənəri yandırdı. Su o qədər bulanıq idi ki, bir neçə metrdən qabağı görmək olmurdu. Əlini qumun üzərində gəzdirdi. Lil səhrada qopan fırtına təki suyu bulandırdı. İrəliyə doğru üzməyinə davam etdi, çünki gəmini tapmaqda israrlıydı. "Belə onu tapa bilməyəcəm", – deyib, ziqzaqvari üsulla axtarışına davam etsə də, qayığın qırıntılarına belə rast gəlmədi. Bu zaman kütüm sürüsü onu əhatəyə aldı. Başının üstündə, ətrafında fırlanan balıqlar əvvəlcə ona yaxınlaşmağa cürət etməsələr də, sonradan oğlanın kombinezonunu dartışdırmağa başladılar. Təkləndiyini görəndə əl-qol atıb onları özündən kənarlaşdırmağa çalışdı. "Bəlkə, məni yemək istəyirlər?", – bir anlıq ağlından keçirdi. Ancaq balıqlar pərən-pərən olub, yenidən sürü halında ona doğru üzəndə yəqin etdi ki, bu dilsiz-ağızsızlar nəyisə göstərmək istəyir. Dərhal arxalarınca üzməyə başladı. Xeyli üzmüşdü ki, relyefin dəyişdiyini hiss etdi. Dənizin dibində şiş qayalar gördü. Balıqlar onu qayalıqların arasıyla aparırdılar. Qarşıda üstü lillə örtülmüş böyük, dəyirmi bir lövhə diqqətini çəkdi və buranın bir keçid olduğunu düşündü. Dəmir lövhə torpağın səthində üfüqi şəkildə quraşdırılmış olsa da, ağzı bağlı idi. Özünə yol açmaq üçün qaynaq aparatını işə saldı və təxminən bir metr enində olan dəmir plitəni kəsdi. Açdığı yerdən içəri daxil oldu. Bura beş-altı metr uzunluğunda otaqvari bir yer idi. "Dənizin dibində ağzı bağlı dəmir otaq kimə lazımmış, görəsən?" – düşündü. Bu zaman gözü divardakı qırmızı düyməyə sataşdı. Altında "сброс воды" sözü yazılmışdı. Bildi ki, burada daha bir keçid olmalıdır. Barmağı ilə düyməni bassa da, heç nə baş vermədi. Dərhal bölmənin divarlarını, döşəməsini nəzərdən keçirdi. Döşəmə tərəfdə başqa bir lük gördü və nə qədər güc verdisə də, ağzını aça bilmədi. Tələsirdi. Qolundakı saata baxdı. Vaxtına az

qalmışdı, qayıtmaq məcburiyyətində qalsa da, maraq onu üstələdi və o yenidən qaynaq aparatını işə saldı. Lükün ağzını açıb növbəti otağa daxil oldu. Burada divarın yan tərəfində bir qapı gördü. Eyni hərəkətlə özünə yol açıb içəri sivişdi. Geniş dəhlizlə irəliyə doğru üzdü və sonda daha bir qapı ilə rastlaşdı. Bu dəfə də qapını kəsib növbəti məkana keçəndə buranın böyük bir hərbi baza olduğunu zənn etdi. Su bazanı basmışdı. Aşağıya doğru gedən pilləkən onu geniş bir məkana apardı. Bir az da irəlidə düşündüklərinin doğruluğuna əmin oldu. Qarşıda bir-birinin ardınca şaquli vəziyyətdə düzülmüş qitələrarası, nüvə başlıqlı raketlər gördü. Buranın radiaktiv bir yer olduğunu bilən kimi tez ayaqlarını işlədib bazanı tərk etməyə çalışdı. Pilləkənə çatanda havanın azaldığını hiss etdi. Təşviş içində gəldiyi yolla üzməyə başladı. Dəhlizdə isə havası tamamilə qurtardı. Hava udmaq ümidilə bir neçə dəfə dərindən nəfəs aldı. Boğula-boğula yerində çabalayırdı ki, Emin onu yüngülcə silkələyib ayıltdı:

– Deyəsən, pis yuxu görürdün. Danış görək, bu dəfə başımıza nə gələcək?

Təyyar gözünü açdı, zəndlə dostuna baxdı, harda olduğunu anlamağa çalışdı. Özünə gələn kimi:

– Bu dəfə dənizdə olacaq, – dedi.

– Nə olacaq? Yadplanetlilərdi yenə?

– Yadıma salma. – Təyyar əynini geyindi və bir siqaret yandırdı. – Axşamtərəfi sahilə gedərik.

Çimərlikdə iki nəfər xilasedici qumun üstündə özlərini axşam günəşinə verirdilər.

– Başlayanda xəbər eləyərsən. – Eminin səsindəki həyəcan açıqca hiss olunurdu.

Təyyar dostunu çox gözlətmədi:

– İndi başlamalıdı, – deyib, sınayıcı nəzərlərlə onu süzdü.

Sahildən xeyli aralıda böyük bir gəmi suyun üzərində lövbər vururdu.

– Görəsən, o nə gəmidi elə? – Emin xəbər aldı.

– Ora bax! Balıqları görürsən?

Emin nəzərlərini sahilə cırmaq atan dalğaların üzərində gəzdirdi. Balıqlar sudan sıçrayıb özlərini qumun üstünə elə atırdılar, elə bil duzlu su onların məskəni deyilmiş. Təyyar başa düşdü ki, balıqlar ona hərbi bazanın yerini göstərmək istəyir. Tezcə ayağa qalxıb özünü dənizə atdı.

– Dayan, hara gedirsən? – Emin arxasınca qışqırdı.

Təyyar ona əhəmiyyət vermədən dalğaların arasında ağır-ağır irəliləyib, suya kəllə vurdu. Özünü sahilə yan alan gəmiyə çatdırmaq istəyirdi. Gəmi isə hələ xeyli uzaqda idi. Təyyarın əhədi kəsilirdi. Emin isə bayaqdan sahildə var-gəl edir, dostunu gözdən qoymurdu. O, əl-qol atıb suyun üzündə görünməz olanda Emin onun boğulduğunu başa düşdü və dərhal özünü xilasedicilərə yetirdi. Onlar motorlu qayığa minib Təyyarın itdiyi əraziyə üzdülər. Köstəbək kimi o tərəf-bu tərəfə boylansalar da, Təyyarı tapmadılar. Sahildə dayanıb bütün bunları həyəcanla izləyən Emin səbirsizlikdən dırnağını çeynəyirdi. Bu zaman dalğaların arasında lövbər vuran Təyyarın yaşıl köynəyini gördülər. Amma tapdıqları yalnız köynək oldu. Ərazini yenidən yoxladılar və nəhayət, gözləri Təyyarın suda yırğalanan qollarını aldı. Qayıqdakılar qarmağa keçmiş balıq kimi onu sudan çıxardılar. Sahilə çatan kimi onu qumun üstünə uzadıb, süni nəfəs verməyə başladılar. Təyyar palçıq vulkanı təki daxilindəki mayeni qusdu, sonra da dərindən bir neçə dəfə təmiz havadan uddu. Damarlarına nüfuz edən oksigen onu həyata qaytardı.

Yol boyu heç biri danışmadı. Evlərinə çatanda bir dəstə polisin dünən gecə baş vermiş partlayışla bağlı adamları sorğu-suala tutduğunu gördülər. Vəziyyətin dəyişəcəyini anlayan dostlar tez maşına minib aradan çıxdılar…

Qürub çağı qaranlıq bir məkana daxil oldu. Hər tərəf zülmət içində idi. Əl fənərini yandıranda bu yerin kiçik bir mağara olduğunu anladı. İşığı mağaranın divarlarına tutdu. Yuxarıdan aram-aram tökülən su damcılarının əks-sədası səssizliyi pozurdu. Damcılar hər dəfə yerə düşdükcə ürəyində saymağa başladı. Bir, iki, üç... Ayağını gölməçənin üstünə basıb, irəliyə doğru bir-iki addım atıb dayandı. Fənərini üzüyuxarı tutaraq nəm tavandan sallanan damlaların qopub düşən rəqsinə tamaşa edəndə mağaranı kəşf etmək həvəsinə düşdü. Damcı səsləri addımlarında itdi. Az

getmişdi ki, daş divara dirəndi. “Mağara elə bura qədər imiş”, – deyə düşündü. Daş divara zəndlə baxırdı ki, gözü balaca bir oyuğa sataşdı. Əlini uzadanda oradan sərin mehin əsdiyini hiss etdi. Bildi ki, mağaranın ikinci çıxışı da olmalıdır. Deşiyi böyütmək istəyəndə hörülmüş divar soyuqda ayaq altda qalan donmuş gölməçə kimi çatladı. Buzqıran gəmitək özünə yol açdı. Uçurduğu divarın arasından keçmək istəyəndə arxadan gələn səs elə bil onu yerə mıxladı:

– Getmə, dayan! Geriyə qayıt!

Bu, çəp gözlərlə ona baxan başqa bir Təyyar idi.

– Sən kimsən? – Qorxacaq səslə soruşdu.

Özünü tanısa da, gözlərinə inanmadı.

– Qayıt geriyə! – Yerində fırr eliyib gözdən itdi.

Fənərin işığında ora-bura göz gəzdirdi, amma bir ins-cins gözə dəymədi. Gördüyü Təyyar qeybə çəkilmişdi… İnadkarcasına yerə tökülmüş daşların arasından keçib dar bir məkana daxil oldu. Bura o qədər nəmişlik idi ki, lap ürəyi sıxılırdı. Elə bu zaman yuxarıdan qopub düşən daş parçası zərblə başına dəydi və o, müvazinətini itirib yerə yıxıldı. Gözləri qaraldı. Uzanıqlı halda barmaqlarını saçlarının arasında gəzdirdi. Başı əməllicə yarılmışdı. Qan aram-aram üz-gözünə axırdı. Əlini fənərinə atıb güclə ayağa durdu. Ona elə gəldi ki, mağara indi çökəcək, amma geriyə qayıtmaq istəmədi. Qan axan yeri əliylə bərk-bərk sıxıb künc-bucağı yoxlamağa başladı. Bu zaman gözü dar bir keçidə sataşdı. Mağaranın bu tərəfi nisbətən aşağıya doğru gedirdi. Dar boğazdan sivişib ayağını yerə basmaq istəyirdi ki, sürüşüb qurşağadək suya batdı. İşığını ətrafda gəzdirdi və buranın çox geniş bir yer olduğunu gördü. Üzə-üzə irəli keçdi. Gur işığın altında bərq vuran mərmər çıxıntılar mağaranı əlvan rənglərə boyadı. Bayaqdan canında gəzdirdiyi xof sovrularaq bir anda yox oldu. Mağaranı kəşf etməsinə çox sevinirdi. Elə oradaca düşündü ki, bu yer haqqında heç kəsə danışmayacaq. İrəlidə üst-üstə yığılmış iri sandıqlar gördü. Maraq ona güc gəldi. Cəld sandıqlardan birinin ağzını açdı. Daş-qaşları, qızıl sikkələri görüncə heyrətləndi. Ağzı açıla qalmışdı, sevincindən az qala bayılacaqdı. Vaxt itirmədən ciblərini doldurub aradan çıxmaq istədi. Ancaq düşdüyü yerdən qalxa bilmədi. Hər dəfə çıxmaq istəyəndə sürüşüb suyun içinə düşürdü. Ha çalışdı, ha cəhd elədi, düşdüyü yerdən çıxa bilmədi ki bilmədi.

– Bu dəfə səninlə gedirəm. Dost deyilik, xəzinəni aramızda bölərik. – Emin onun yuxusuna qulaq asdıqca şirniklənir, ləl-cəvahirata sahib olmaq istəyirdi.

– Xəzinə o qədər böyükdü ki, hamısını apara bilməyəcəyik.

– Yaxşı, bəs bu xəzinə harda, hansı mağarada gizlədilib?

– Şahdağda.

– Sən buna əminsən?

– Əlbəttə. Mən yuxularımda səyahət edirəm.

– Necə yəni səyahət edirsən? – Emin təəccübləndi.

– İnsan yuxuda paralel dünyaya keçir və ruhu bədənindən ayrılandan sonra uzaq məsafələri qət edə bilir. Yəni bizim yaşadığımız gerçəklik eynilə paralel dünyada da mövcuddur. Mən buna inanıram – deyib, zəndlə gözlərinə baxdı.

– Sənə inanıram. Sabah yola düşürük.

– Danışdıq.

Araya süküt çökdü. Dostlar hələ bir qədər skamyada oturub, yemə toplaşan göyərçinlərə dimməzcə tamaşa etdilər.

Səhər obaşdan Emin qapının ağzını kəsdirdi. Təyyar vaxt itirmədən bel çantasını götürüb evdən çıxdı. O, ürəyinə gələnləri dostundan gizlətmədi:

– Hiss edirəm ki, bu dəfə paralel dünyaya keçə biləcəm.

– Mənə də elə gəlir…

Dağın yamacında maşını saxlayıb yoxuşla təzəcə qalxmağa başlamışdılar ki, göyün üzündə süzən nəhəng bir qartal başlarının üstünü kəsdirdi. Ancaq başları söhbətə qarışdığından quşa fikir vermirdilər.

– Görəsən, xəzinəni orada gizlətmək kimin ağlına gəlib? – Emin soruşdu.

Təyyar böyük bir sirr açırmış kimi pıçıltıyla dilləndi:

– Xəzinə Qacarlar dövründən qalıb. Düşmən əlinə keçməsin deyə, mağarada gizlədiblər.

– Yaxşı, bəs sən o yeri necə tapacaqsan?

– Mağaranın girişinin hər iki tərəfində ağac əkilib. Biz ora yaxınlaşanda bunu görəcəyik.

Qarşıda sıldırımlı qaya yolu kəsdiyindən dostlar onu yan tərəfdən keçməli oldular. Yandırıcı günəş başlarına döysə də, oğlanlar dayanmadan, qan-tər içində dikdiri dırmaşırdılar. O qədər hündürə qalxmışdılar ki, başları gicəllənirdi. Bu yerlərdə otlar susuzluqdan saralıb solmuş, tək-tük görünən ağaclarda isə quşlar yuva qurmuşdu. Dönüb arxaya baxdılar, gözlərinin qarşısında gözəl bir mənzərə açıldı. Bir-birindən aralı, nizamsız tikilmiş kənd evləri, gül kələminə bənzəyən hamar meşələr, onlardan da o yana alçaq dağlar… Bayaqdan başlarının üstündə dövrə vuran qartal qəflətən qıyya çəkib onların üstünə şığıdı. Dostlar yırtıcı quşun caynağına keçməsinlər deyə, hərəsi bir tərəfə çəkildi.

– Mən onu görürəm, ora bax! – Təyyar əliylə dostuna mağaranın girişini göstərdi.

– Mən də gördüm. Gəl tez dırmaşaq, canımız da bu quşdan qurtarsın. – Emin onun yaxasından yapışıb özünə tərəf çəkdi.

Bu zaman qartal qırıcı təyyarətək yenidən onlara tərəf şığıdı, bir göz qırpımında Təyyarı caynağına alaraq havaya qaldırdı. Quşla əlbəyaxa olan Təyyar onun boğazından yapışdı. Vəziyyətin dəyişdiyini görən yırtıcı şikarını caynağından buraxdı, ancaq Təyyar tutduğu yerdən bərk yapışmışdı. Və ikisi də göydə vurulan təyyarə kimi "tüstüləyə-tüstüləyə" yaxınlıqdakı sal qayanın üstünə çırpıldılar. Emin bir mağaraya baxdı, bir də yerdə zarıyan dostuna… Cəld dağı enməyə başladı. Təyyar ağrıdan canını dişinə tutaraq qıvrılmışdı. Emin onu çiyninə aldı, çətinliklə də olsa, dağı asta-asta endi. Yaralını dərhal maşının arxa oturacağına uzadıb vaxt itirmədən rayon xəstəxanasına çatdırdı.

Təyyarın dörd qabırğası sınmışdı. Həkim ilk yardım kimi ona ağrıkəsici iynə vurub palataya yerləşdirdi. Sonra Eminə xəbərdarlıq etdi:

– Dostun hələ bir neçə gün burda qalmalı olacaq.

Emin bütün gecəni dostunun çarpayısından aralanmadı. Gecənin səssizliyində Təyyar üz-gözü sarıqlı halda baş verənləri zarıya-zarıya Eminlə müzakirə edirdi:

– Mən ba-şa düş-düm. Ayyy… – Təyyar ağrıdan qırıq-qırıq danışırdı – Hər şeyi indi başa düşdüm. Paralel dünya ilə yaşadığımız gerçəklik arasında bir sədd mövcuddur. Mən onu neçə dəfə aşmağa çalışdım, arzularımın arxasınca düşdüm. İndi özümü sanki iki dünya arasında asılmış kimi hiss edirəm…

Təyyar o səddi aşa bilməsə də, əmin idi ki, yuxularında arzuladığı yerə səyahət edib. İnanırdı ki, paralel dünyada ayağını ulduza basıb, Xəzərin dibindəki hərbi bazada olub, mağarada xəzinə tapıb. İnanırdı ki, röyalarında yenə ora qayıdacaq. O buna inanırdı…





## Aysel XANLARQIZI SƏFƏRLİ

## BAĞIŞLAYARAM…

Baxıb dalğın üzünə bir yarımçıq kölgənin,
Boynuna kəndir atıb ümidsiz bir "bəlkə"nin.
Ürəyimin başından soyaram yana-yana
Bəyaz ruhuma düşmüş saf sevgimdən ləkəni,
Səni bağışlayaram...

Götürərəm yanında nə əmanətim varsa,
Dizlərinin dibində günahım da qalarsa!..
Yığıb od öpüşləri yorğun xatirələrdən,
Gecələr pəncərəndə ulduz-ulduz solarsa,
Səni bağışlayaram...

Daha poçt qutusundan məktub çıxmaz
şeirimə,
Hər misranı ocağa ataram köz yerinə.
İtər ağzının dadı sevgi qafiyələrinin,
Daha sual qoyaram ömrün nöqtələrinə,
Səni bağışlayaram...

Bir qatar göndərərəm bir biletin ardınca,
Boğularam içimdə olanları dadınca...
Sonuncu sərnişintək çıxaram qollarından,
Yığıb çamadanlara nəyim varsa, qadınca
Səni bağışlayaram...
Səni bağışlayaram...

## SƏNİN PƏNCƏRƏNDƏ…

İslanıb ayağı yenə şəhərin,
Göylərin səhəngi yerə dağılıb.
Gecəni narahat keçirib Allah,
Səmada bir qara bulud boğulub...

Küçələr çırmanıb topuğa kimi,
Yolların qolu yox çamur götürə...
Elə isladıb ki məni bu həyat,
Ehtiyac qalmayıb daha çətirə.

Gecəsi mənimlə nəmlənən şəhər
Günəşi çiyninə atacaq səhər.
Gəmisi tufanda batan ümidəm,
Gözümü limantək sevir dənizlər.
Zülməti qoynuna alan otağım
Birtəhər yuxuya verər kədəri...
Mənim pəncərəmdə şimşəktək çaxar,
Sənin pəncərəndə yağar gözlərim...

## SƏN GƏLDİN…

Xatirələr kirlənmişdi o gecə,
Yudum, yudum, kirpiklərimdən asdım.
Yad əllərdə isitdiyin əlini
Köz eləyib əllərimə dağ basdım.
Mən ovcumda öləcəkdim,
sən gəldin...

Bir uçqunda dağıntılar altından
Ölməmişdim, yaralanıb çıxmışdım.
Bir gecədə əllərinin tumarı
Boya kimi saçlarımdan axmışdı...
Mən saçımdan öləcəkdim,
sən gəldin...

Gözlərimdə qayıq oldu həsrətin,
Boğulanda tutub çıxdım naəlac.
Bu dünyanın hər nəyinə tox ruhum
Təkcə sənin saf eşqinə acdı, ac,
Mən acından öləcəkdim,
sən gəldin...

Ürəyimə gün doğmadı bir dəfə,
Ömür keçdi gecə kimi qoynumda...

Unutmağa güc yığırdım içimdə,
Soyunurdum bu sevgini əynimdən.
Mən gücümdən öləcəkdim,
sən gəldin...

Son şeirimi son nəfəstək yazmamış
Söz içində öləcəkdim,
sən gəldin...

## ŞİKƏST HƏYATIM...

Mənim zirvələrimdə son bahar hərarəti,
Sənin yamaclarında hansı fəsildir, görən?..
Min bir ağrılar ilə qoynumda böyütdüyüm
Son ümidi kim idi ovuclarımdan dərən?..

Nə sağlıq deyən oldu könlümdəki sevgiyə,
Qədəhimə doldurub payızı qurtumladım.
Tullayıb başım üstdən qırılmış çətirləri,
Süzdüm yağışı gözdən, göy üzün
qurtumladım...

Boyasını dəyişdi unutduğun saçlarım,
Çiynimdə izi qalan bir boş yerin ağrısı...
Xatirələr daşdıqca acı qəhvətək gözdən
Səni bir qəza kimi yaşayıram, doğrusu...

Gəl açma ürəyimin gizli, qara qutusun,
Ruhum radarda azmış bir təyyarə pilotu...
Ağrılardan uyuşmuş bəxtimin yollarında
Sürət həddini aşmış mənim şikəst həyatım...

***

Bir təyyarə qanadı yardı üfüqlərimi,
Mən sənin göylərində ayaq açıb yeridim.
Qaçdım sənin dalınca – buludlardan yuxarı,
Getdin, elə islandım, damla-damla əridim...

Sən gedəli yerdən də küsdü bu dəli ruhum,
Bütün uçuşlar keçir ayağım altdan indi...
Məndən heç nə qalmayıb, götürmüsən özünlə,
Axı sənə demişdim, nəyim varsa, sənindi...

Limanları səhv düşən bu qəzalı ömrümün
Açsam qara qutusun, həsrətin töküləcək...
Aldığım neçə nəfəs sənsiz gücün itirib,
Bir hava boşluğunda çarmıxa çəkiləcək...
Bir bilet də mənə al, ömrünə yan almağa,
Qanadım qırılmasın qoy uçuş zolağında...
Sən getməyə həvəskar, mən gözləməkdən
yorğun,
Gözlərində boğulub qalmışam Allahın da...



# QISA FİKİRLƏR XƏZİNƏSİ



**Jül RENAR**
*(1864–1910)*

Bir kəndlinin bir başqa kəndliyə nifrət elədiyini görəndə adamın ürəyi ağrıyır.

***

Ədəbiyyat elə bir məşğuliyyətdir ki, istedadın olduğunu hər dəfə istedadsızlara yenidən sübut eləməlisən.

***

Aydın üslub – ədəbiyyatçının nəzakətidir.

***

Bəxtli – başqalarının görməyə hazırlaşdığı işi artıq görən kəsdir.

***

Bundan sonra oxumalı olacağım kitabları düşünəndə özümü xoşbəxt sanıram.

***

Cavan o kəsdir ki, dilinə hələ yalan gəlməyib.

***

Dahilərin mükafatı odur ki, ölümlərindən çox illər keçsə də, heç kəs qəti deyəmmir “onlar ölüblər”.

***

Doğruçu insanın istehzasından füsunkar daha nə ola bilər ki?

***

Dovşan yuvası dovşan olmayanda belə qorxaqlıqla doludur.

***

Heyvanlara baxanda onlar haqda lətifələrimə görə utanıram.

***

Ən ehtiraslı mübahisələri bu sözlərlə qurtarmaq gərək: “Bütün deyilənlərdən başqa, xatırladaq ki, tezliklə hamımız öləcəyik”.

***

Hər şeyə rəğmən, həyatı sevəcəyik... Heç bəhanə axtarmayın! Yaşamaq gözəldir.

***

Hər şeyi həddən artıq aydın görürəm və bu üzdən də gözlərim ağrıyır.

***

İnsan oğlu bunca pis olmasaydı, ətrafında gözəl çox şey görərdi.

***

İnsanlara gülməzdən əvvəl onları gərək bütün qəlbinlə sevməyi bacarasan.

***

Qanadları kəsiləndə quş ağrı hiss eləmir, ancaq sonra o artıq uça bilmir.

***

Məndən uzaq gəzin ki, sizə hörmət bəsləyim.

***

Mənə inanın, səfehliyin xüsusi qoxusu var. Adam hətta susanda belə, o qoxunu hiss edirsən.

***

Nitsşe? Onun barəsində nə fikirləşirəm? Deyirəm, soyadında nə çox samit varmış.



**Bertran RASSEL**
*(1872–1970)*

Müdriklik qorxu üzərində qələbədən başlayır.

***

Son gücündən yararlanmayınca başqalarından əsla yardım istəmə.

***

Çox adam ancaq bədbəxtliyə düçar olanda anlayır ki, bir zamanlar xoşbəxtmiş.

***

Keçmişin pis olduğuna dair ümumi qənaət məhz təkamül nəzəriyyəsi ilə birgə formalaşıbdı.

***

İnsanlar həqiqəti özlərinin bildiklərini sandıqları üçün bir-birlərinə zülm edirlər.

***

Acınacaqlı da olsa, adamlar, əslində, onlara nə maraqlı gəlmir, onunla razılaşırlar.

***

Qərarsızlıqdan betər yorucu və faydasız heç nə yoxdur.

***

Napoleon olmadan belə Müqəddəs Yelena adasında ölmək olar.

***

Tibb elə bir səviyyəyə yüksəldi ki, sadəcə sağlam insan qalmadı.

***

Çin olmayan arzularımız da bəxtiyarlığımızın ayrılmaz parçasıdır.

***

Öz xoşbəxtliyinizi istəyirsinizsə, başqalarının da xoşbəxt olmağına razılıq vermək məcburiyyətindəsiniz.

***

Çox adam düşünməkdənsə ölməyi üstün tutur. Elə əslində, ölürlər də...

***

Elə məşğulam ki, ölməyimi başqa vaxta keçirəsi oldum.

***

Filosofun əsl işi kainatı dəyişdirmək deyil, onu anlamaqdır.

***

Darıxmaqlıq, düşünürəm ki, yüksək intellektin göstəricisidir...

***

Deyirlər, insan ağıllı heyvandır. Bütün ömrüm boyu bu fikrin təsdiqi üçün heç olmazsa hansı isə dəlil-sübut axtardım.

***

Mən insan qəlbini anlamaq istəyirdim. Anlamaq istəyirdim ki, ulduzlar nə üçün işıq saçır...

***

Zənnimcə, bədbəxt adama baxanda xoşbəxt adamın naxoşlayıb ağrıması ehtimalı xeyli azdır.



**Rey BREDBERİ**
*(1920–2012)*

Gülümsə ki, fəlakətə keyf yaşatmayasan.

***
O adamları xilas etmək lazımdır ki, onlar buna layiqdirlər.

***
Kitabları yandırmaqdan daha dəhşətli cinayətlər var. Məsələn, onları oxumamaq...

***
Oxunmayan kitablar intiqam almağı bacarır.

***
İndi oxunanları yazmaq ürəyimi bulandırır.

***
Jül Vern – atamdır. Herbert Uells – çox müdrik əmimdir. Edqar Allan Po – dayım oğludur... Siz indi qohum-əqrəbamı tanıyırsınız...

***
Bizim boş vaxtımız kifayət qədərdir. Di gəl, düşünməyə vaxtımız varmı?

***
Yaşamaq üçün həyatın mənasını arayıb-axtarmağı tərgitmək lazımdır. Həyat elə özü-özlüyündə cavabdır.

***
Mənim üçün ən başlıcası – heyrətlənməkdən qalmamaqdır.

***
Vicdanlıydım və elə bu üzdən də məni görən gözləri yox idi.

***
Möcüzə baş verən vaxt heç vədə onu şübhə altına almayın.

***
Əsl alim – romantikdir. Yalnız romantiklər hər şeyin mümkünlüyünə inanırlar.

***
Xeyir şərə hər zaman şər olaraq görsənəcək.

***
Bəşər övladı necə yolunu azmışdısa, elə də qalıb.

***
Gözlərini geniş aç və elə bir acgözlüklə yaşa ki, sanasan, onca saniyə sonra öləcəksən.

***
Allah-təala bizə ağılı ondan ötrü verib ki, xəlq olunanları araşdırıb öyrənək, daha falçılıq eləyib gələcəkdə bizi nə gözlədiyindən qorxmaq üçün verməyib...

***
Şərin bir tək gücü var ki, həmən gücü də ona elə özümüz veririk.

***
Zəngli saata ehtiyac yoxdur, fikirlərim özü məni oyadır...





**Ali İZZƏTBEQOVİÇ**
*(1925–2003)*

Şükürlər olsun ki, tarixə Allah hökm edir.

***
Bizi torpağa gömməyə çalışdılar, amma toxum olduğumuzu bilmirdilər.

***
Uca Yaradana and içirəm ki, kölə olmayacağıq.

***
Biz savaşda öldüyümüz vaxt deyil, düşmənlərimizə bənzədiyimiz vaxt uduzarıq.

***
Tanrısız bir dünya cənnəti qurmaq xülyasına qapılanlar bu xülyalarının xarabalıqları altında qalmağa məhkumdurlar.

***
Tanrı inancı olmadan heç bir əxlaqi sistem qurula bilməz.

***
İnsan hələ tarix səhnəsinə çıxan zaman başlanğıc üçün müəzzəm bir əxlaq sərmayəsinə malik idi... Bu günəcən insanlığın böyük simaları daim eyni əxlaqı aşılamışlar. Əxlaqi həqiqətlər... əbədidir.

***
Mənim üçün Yer üzündə yaxşı, doğru və gözəl olan nə varsa, adı İSLAMdır.

***
Mən Avropaya başım önə əyili getmirəm. Çünki uşaq, qadın və qoca öldürmədik. Çünki heç hansı müqəddəs yerə soxulmadıq. Ancaq onlar bunların hamısını elədilər...

***
Qərb heç vaxt mədəni olmayıb və bugünkü rifahı da davam etməkdə olan sömürgəçiliyi, axıtdığı qan və çəkdirdiyi acılar üzərində qurulur.

***
İstədiyiniz qədər dağlara xaç dikin. Göy üzünə hər baxanda aypara görəcəksiniz.

***
Günəşin çoxdan batdığı yerdə gecənin bütün hərarəti yenə günəşdəndir...

***
Dindarlıq şəhərin böyüməsiylə azalır... Çünki şəhər böyüdükcə üzərindəki göy də o qədər kiçilir, ufalır. Təbiət, çiçək və aydınlıq o qədər az; beton, duman, teknika isə o qədər çox olur. Biz də o qədər az şəxsiyyət, o qədər də çox kütlə oluruq. Şəhər nə qədər böyüyərsə, cinayətlər də o nisbətdə artar...

***
Bütün canlılar acı çəkər, fəqət bir tək insan iztiraba fikir geydirər.

***
Eşq və nifrətlə şeir yaza bilərsiniz, amma tarix yox!

***
Həyat – inananlardan və əməlisaleh olanlardan başqa heç kimsənin qazana bilmədiyi bir oyundur.



**Karlos KASTANEDA**
*(1925–1998)*

Atdığı hər addımı Yer üzündə özünün son döyüşü kimi görən kəsin gücü qarşısında güc dayanmaz.

***

Bu gözəl dünyada belə də gözəl zamanda yaşadığınçün cavabdehlik daşıman gərək.

***

Düşün ki, heç vaxtın qalmayıb. Yalnız bu yolla addımına əsl güc qazandırarsan. Əks halda hər addımını qorxa-qorxa, qətiyyətsiz atacaqsan.

***

Gözlərimiz önündəki bu hərgünkü dünya olsa-olsa çocuqkən bizə aşılananların nəticəsidir.

***

Mən "savaş" deyirəm, ona görə ki, insan bütün həyatı boyu çarpışır...

***

Dünyaya sevginin gözüylə nəzər yetirdiyimiz zaman dünya da bizə özünün ən yaxşı tərəflərini aşikar edir.

***

Dünya sirlərlə dolu bir sonsuz aləmdir. O sirlərə də tam anlamıyla heç vaxt vaqif ola bilməyəcəyik. Odur ki, dünyayla qovğa etmək yox, onun sirləri və qüsursuzluğuna sayğı göstərmək ən doğrusudur.

***

Sadəcə, ürəyi olan yollarda gəzməkdəyəm, ürəyi olan hər hansı yolda; o yolda irəliləyir və inanıram ki, dəyərli olan tək şey bir yolu sonacan qət etməkdir.

***

Bir yolda ki ürək yoxdur, o yol üçün ömür sərf etməyinə dəyməz.

***

İnsan itirəcəyi heç nəyi olmayanda cəsarətlənir. Ancaq ətəyindən yapışa biləcəyimiz bir şey olunca qorxaq, ağciyər biriyik.

***

Qaçdığın nə isə, sürəkli qarşılaşacağın da odur. Qaçma, savaş! Öhdəsindən gəlməyin bir yolu var, amma qaçmağın yox.

***

Dünyaya yaydığın mənfi enerji qat-qat artığıyla öz üstünə geri dönər... Pis düşüncələr zehni, cismani və ruhi xəstəliklərə yol açar. Başqalarının qəlbini incitməyəsən. Verdiyin acının zəhəri özünə qayıdar. Hər zaman dürüst ol.

*Toplayan, tərcümə və tərtib edən:*
**C. Məmmədov**



## FATEH

***

Mənim qaranlığımdan kimə zərər gəlib ki?
Niyə çəkmək lazımdı məni o ağ tərəfə?
İlahi, mən qonağam sənin bu Yer kürəndə,
Ev yiyəsi gəlməyib hələ qonaq tərəfə.

Vaxt da gedir, daralır ömrün zaman damarı,
İçimizdən təlaş da çəkilmir ki, qadası.
Bu gün məni unutmaq gör nə gözəl seçimdi,
Bundan yaxşı olmazdı bu cür ölüm havası.

Gəl indi birgə gülək bu həyata, bu ömrə,
Gözündən yaş süzülsə, barmaqlarım daş olar.
İnsan qəmli baxışla necə gözəl görünər?
İstəmərəm daş düşsün göz yaşının başına...

***

Vaksin pasportum da itdi,
Kimsə paylaşmadı sosial şəbəkələrdə...
Ki, filankəs pasportunu düşürüb, kimindirsə,
gəlsin, götürsün deyə...
Yenə ayaqqabı bağlarım açıqdı,
Yenə sarı saçlarım uçuqdu,
Təngnəfəs
İnşaatçılar metrosunda
Polislə gəldik üz-üzə,
“Ay vətəndaş, bəri gəl!”
Bəri gəldim, pasportumu istədi
“İtirmişəm” - dedim.
Şəxsiyyət vəsiqəsinin fin nömrəsini de,
Onsuz da portalda baxacam, – dedi.
Nömrəni dedim, adım çıxmadı...
Özüm çıxdım bayıra,
Axx, o şirin medsestra...

***

Yaman təlaşlısan, hiss olunur bu –
Bayırda uçuşan kəpənək təki.
Birtəhər yaşayıb ömür sürürəm,
Axtarıb tapammır ölüm hələ ki.

Mən də bu dünyanın bircə dərdiyəm,
Üstəgəl, xatirəm pozulub yenə.
Sənin həyatının ən şirin anı
Dərd kimi alnıma yazılıb yenə.

Bəlkə, ahıl kimi görünməz daha,
Yəqin, bu ağaclar qocala bilmir.
Nə yaxşı, qanadı olmayan adam
Özündən yüksəyə ucala bilmir...

***

Bir ümid cücərib içimdə bu gün,
Bir ağac əkmisən, meyvəsi də biz.
Dünyanı tərsinə çevirdim bu gün,
Çevirdim, alındı bizim küçəmiz.

Sığmağa yerim yox, gizlət içində,
Bu gecə tapmasın qoy heç kim məni.
Axtarıb tapmasan, küçəmizə gəl,
Yəqin, tanıyırsan bizim küçəni.

Dostlar da şütüyür maşınsayağı,
Qoy ömrün yolundan geri qalmasın.
Hamının öləndə nəfəsini kəs,
İlahi, qoy heç kim diri qalmasın.

Bir gün başdaşından şəklim asılar,
Susacaq içimdə ağlayan kəniz.
Dünyanı tərsinə çevirdim bu gün,
Çevirdim, alındı bizim küçəmiz...

***

Mənim kədərimi ikiyə bölmə.
Onsuz da gücüm yox dərd azaltmağa.
Adıyla böyüsün dedilər əvvəl,
Sonra düşürtdülər ad ucaltmağa.

Mən uşaq cildində qalaydım gərək,
Susub oynayardım oyuncaqlarla.
Gizlənpaç oynamaq nəyimə lazım
Yurdu bilinməyən yad qucaqlarda?

Yaxşı ki, şad gündə yoxsan yanımda,
Yaxşı ki, uzaqsan bu günümə sən.
Özümü göylərə bağışladım ki,
Mənim təkliyimi görə biləsən...

***

Bu adam bənzəməz heç bir adama –
Üzündən, gözündən yağmayıb şadlıq.
Bilirsən, əslində, hamı ağıllı,
Sadəcə, ikimiz bir az axmağıq.

Külək pəncərəni oynadır yenə,
Uşaqdı elə bil, ağlı da kəsmir.
Sən axı bilmirsən, darıxmağımı
Ruhumu sızladan ağrı da kəsmir.

Yenə saatların kəfkiri yorğun,
Yenə zaman durub baxışın altda.
İlahi, yadından çıxan balalar
İslanır səpdiyin yağışın altda...

***

Fikrim uzaqlara gedir arabir,
Dönüb qayıdanda tanımaq olmur.
Nədəndi, görəsən, şair olanda
Heç kimin işinə yaramaq olmur?

Darıxmaq evimi yıxacaq sonda,
Bu qoca dünyada yer olmaz mənə.
Bu yanda evimi yıxan İlahi,
Yəqin, o tərəfdə toxunmaz mənə.

Sənin nə yaşın var, nə dərdin ola,
Mənimlə deyinən anam, bilirəm.
Sənin böyütdüyün oğul önündə
Dinməyə üzüm yox, lalam, bilirəm.

Sadəcə, mən bir az qərib adamam,
Bəlkə də, sevməyə yoxdu ürəyim.
Bəlkə də, ən adi bir hadisədi
Bu qoca dünyada qəribsəməyim...

Fikrim uzaqlara gedir arabir,
Dönüb qayıdanda tanımaq olmur.
Ən böyük düşmən də sənin özünsən,
Özünü özündən qorumaq olmur...

***

Bu küçə nə yaman uzanır belə,
Bizim küçəmizə bənzəmir nəsə.
Hər gün bu küçədən çörək alıram,
Yıxılıb uyuyan xatirələri
yığıb aparmaqçün xərək alıram.

Fikirli-fikirli keçib bu yoldan
Hansısa uzağa gedirəm hər dəm.
Bizim küçəmizdən, bəlkə, nə vaxtsa
Fikirli-fikirli yüyürüb Adəm...

Körpə uşaq kimi bağrına basır,
Küsməyi bacarmır bir insan kimi.
Heç kimə dil açıb danışammıram
Buludtək boşalıb-dolan fikrimi.

Görən, nə deyim ki, toxunmasın qoy,
Görən, nə danışım mən yazıq indi?
Ya da ki susuram ən yaxşısı mən,
Susub dayanıram, Allah kərimdi...

***

Yəqin, axtararlar məni haçansa
Bir vaxtlar incidib gülən adamlar.
Dünyada doğulmaq günahım üstə
Başıma cavabtək gələn adamlar.

Bir Allah görəcək ilıq göz yaşın,
Bir Allah biləcək ağrımı mənim.
Sənin yaşatdığın əzaba şükür,
Yaddan çıxarmışam olub bitəni.

Bir də görəcəksən bulud da küsüb,
Yağış da yan keçir daha bu yerdən.
Kaş mənim göz yaşım sənin üzündən
Süzülüb damcıtək axa bu yerdə.

Bilmirəm, gedəcəm hara, bilmirəm,
Bir onu bilirəm, bir az ömür var.
Bəlkə də, nə vaxtsa mən də biləcəm
Hardasa işıqlı, bəyaz ömür var.

Ehh, yaman qaranlıq gecədi bu gün,
Ulduzlar görünür, nə var saymağa?
Özüm də bilmirəm necə sığmışam
Dəriylə örtülən darısqallığa...

***
Əgər külqabın yoxdursa,
Bu o demək deyil ki, siqaret çəkən deyilsən.
Əgər evin yoxdursa,
Bomj da deyilsən 90%.
Ya nənəngildə qalırsan,
Ya babangildə
Əgər ayrılıblarsa...
Bir gün ordasan,
Bir gün burda.
Həyat da belədi,
Bir gün Şeytan nənənin yanındasan,
Sabah Allah baba səni çağıracaq...

***
Bilirəm, sən mənim olmayacaqsan,
Anlamaq çətindi, ağıla düşmür.
Bizim bağımızdan gizlincə dərib
Yediyin almalar nağıla düşmür.

İndi sən bir daha görünməz oldun,
Daha SƏN bənizli adamım yoxdu.
Kimdənsə kirayə olan ömrümün
yolunda SƏN izli yalanım yoxdu.

Buludun süzdüyü yağış da olma,
Külək də hörməsin saçını daha.
Nə mələk, nə şeytan olum dünyada,
Bir ümid yeri də saxla sabaha...






# ŞAİR CİLDİNƏ GİRMİŞ SÖZ

Şair-publisist, "Azərbaycan" jurnalının poeziya şöbəsinin rəhbəri Qəşəm Nəcəfzadədən müsahibə almaq üçün Bayıldakı evinə getməli oldum.

Günün ikinci yarısı idi... Şairin evinin beş addımlığında görüşdük. Evə çatanacan ayaqüstü söhbətlə müsahibimin şeir nəbzini yoxladım. Yoxladım ki, görüm verəcəyim suallara almaq istədiyim cavabları varmı. Narahatlığım əbəsmiş, şarin düşüncəsi və təfəkkürü şeirə köklənmişdi. Hər zaman olduğu kimi. Bir az da həmişəkindən daha çox. Mənə də lazım olan elə bu idi.

Nəhayət, gəlib şairin evinə çatdıq. İş otağına keçdik. Müsahibə boyu hansı sualı verdimsə, söhbətin bir ucunu şeirə, sözə bağladı. Məni də, suallarımı da şeir fikirlərinin gözünə qatıb, özünün, daha doğrusu, sözünün dünyasına sarı apardı.

Bəzən deyirlər ha, filankəs sözə xatir yaşayır. Qəşəm Nəcəfzadə təkcə sözə xatir yaşamır, xatirində, batinində sözün özü var. Bəlkə də, sözün şair şəklidi. İnsan kimi yaşamaq istəyən, şair cildinə girmiş sözdü. Bəlli bir təxəyyül gücünə malikəm, amma düşüncəmi bütövlükdə səfərbər etsəm də, mən Qəşəm Nəcəfzadəni şeirdən bir misra uzaq təsəvvür edə bilmərəm. Bu mənada, mənə elə gəlir ki, o, hansısa yazmaq arzusunda olduğu məşum bir misranın arxasına düşüb, gəlib çıxıb bu yaşına. Söz onun sarvanıdı, şeir də karvanı. Şeir karvanı yeriyən yolların ağırlığını öz kürəyinə, ürəyinə çəkib. Yolun kürəyinin üstündən keçib getməyə qıymır, ürəyinin içindən keçib gedir. O ürəyinə ki, iş otağındakı rəflərin boş yerlərində bir zamanlar qərar tutmuş könül kitablarını köçürüb. Mən bu dolu şairin rəflərindəki boşluğu başqa cür izah edə bilmədim...

**– Qəşəm müəllim, daha çox sizə verilən suallar üzərində baş sındırırsınız, ya özünüzü narahat edən suallara cavab tapmağa çalışırsınız?**

– Fərqi yoxdur mənimçün. Zaman-zaman hər ikisi ilə qarşılaşmışam. Əsas odur ki, verilmiş suallara da, özümü düşündürən

suallara da verəcək cavablarım var. Hər halda, insan yaradıcılığına, idrakına, təfəkkürünə söykənib, istənilən suala cavab verə, özünü ifadə edə bilər. Suala cavab vermək də hazırlıq və yaradıcılıq tələb edir. Daha doğrusu, suala cavab vermək şeir yazmaq kimi bir şeydi. Ümumiyyətlə, yaradıcılıq sistemli olmalıdı. Məsələn, şair var, bu gün ağaca, quşa şeir yazır, sabah da anaya, vətənə, nə bilim, çörək növbəsinə. Bu, yaradıclıq deyil. Yaradıcılıq şairin içində formalaşan dövrdü. Gərək özünü ifadə etmək üçün formalaşdığın dövrün sistemindən çıxış edəsən. Yaradasan və cavab verəsən. Şair var ki, öz sistemi var, lakin özünü ifadə etməkdə çətinlik çəkir, zəif görünür. Şair də var ki, sistemi olmasa da, yaşıdlarını, özündən böyükləri ustalıqla imitasiya eləyib, özünü güclü yazar kimi qəbul elətdirir. Hər bir halda mənimçün şeirin ən yaxşısı zəif görünən və sistemə daxil olan şeirlərdi ki, daha orijinal və içdən gələndir.

Bir dəfə Anar müəllimdən soruşdular ki, kimdən ilham alırsınız? Dedi, özümdən. Tək başqalarını deyil, öz yaradıcılığını da oxuyub bəhrələnmək olar. Çünki axtardığın şey özündədir, başqasında deyil. Eləcə də özünü narahat edən suallarla yanaşı, başqalarını düşündürən suallara da cavab tapmalısan.

Cavabın da şeir kimi əsası olmalıdı. Görürsən biri şeir yazıb ki, bu dünya bir körpədi. Onun körpəliyini nəynən sübut edə bilərsən? Gərək onu da deyəsən də, onu demirsən axı.

Şair dövrün hadisələrinin fövqündə dayanmalıdı. Deyirlər ki, Əli Kərim işdən çıxarıldığına görə kədərli, nisgilli şeirlər yazıb. Bir şairin işdən çıxarıldığına görə şeir yazması çox cılız görünür. Ola ki Əli Kərim kimi bir şair. Əsl şair istər işdən çıxsın, istərsə də ən yüksək vəzifəyə təyin edilsin, onun içində əbədi bir ayrılıq və kədər var. Bu, qopub gəldiyimiz yerin ayrılığıdı, Allahdan ayrı düşməyin kədəridi. Niyəsə bu kədərdən çox qorxurlar. Bax Əli Kərimi misal çəkdik. Əli Kərimin kədərli şeirlərində kədərin işığı sevincin işığından da, bəlkə, gurdu. Eynilə də qaranlıq sualları işıqlı cavablar aydınlatmalıdı.

**– Daha çox keçmişdən danışmağı xoşlayırsınız. Həm də onu müşahidə etmişəm ki, bu günlə bağlı daha çox susur və ya düşünürsünüz. Bəs gələcəklə bağlı?**

– Bax biz neçə dəqiqədir müsahibəyə başlamışıq, söhbətimiz bitməyib, amma başlanğıc artıq keçmişdi. Anın ömrü bir kəndirin üstü qədərdi. İndiki zamanın özü də durmadan keçmişə dönür. Keçmiş indidən də, gələcəkdən də böyükdü. Keçmişdə xammal daha çoxdu, gələcəkdən isə xəbərim yoxdu. Mən indi nədən daha çox danışmalı və yazmalıyam? Əlbəttə, xəbərim olandan, bildiyimdən, keçmişdən. Keçmiş gələcəkdi, gələcək də keçmiş. Keçmişdə yaşadıqlarımız periodik olaraq fırlanıb qarşımıza çıxır. Ən yaxşı təzəlik unudulmuş köhnəlikdi. Keçmişin elə şeylərini xatırlayarsan ki, təptəzə görünər. Misal üçün, Xətib Təbrizi deyirdi ki, ey ölüm, gəl, həyat bizi öldürdü. Modern şeir, fikir təsiri bağışlayır, amma əsrlər öncə deyilib. İndi buna köhnə demək olarmı? Yaxud R. Taqor deyirdi: “Yarpaq sevəndə çiçək olur, çiçək sevəndə meyvə”. Nə qədər təzə fikirdi. Keçmiş bir də ona görə əzizdir ki, orda sənin təfəkkürün və düşüncələrin görünür. Görünmək demişkən, mən əlliyə yaxın gənc yazar, bir o qədər də dünyasını dəyişmiş şair haqqında yazı yazmışam. Həm də ürəkdən, sevərək yazmışam. Bir dəfə sual verdilər ki, başqalarından niyə bu qədər yazırsan? Dedim, niyə yazmayım ki? Yazdıqlarımın səksən faizi özüməm, özüm boylanıram o yazılardan. Oxucuya kiminsə yaradıcılığında gördüklərimi, tapdıqlarımı, kəşf etdiklərimi göstərmək üçün görünürəm. Həmin an oxucu bədii mətndə kəşf etdiklərimin məzmunundan çox mənim tapmaq bacarığımı alqışlayır.

**– Bir müsahibənizdə demişdiniz ki, İmişlidəki ata yurdunuzun təməlindəki daşlarda barmağınızın qanı var. Bu evinizin təməlində də dolayısıyla şair sözü – Xalq şairi Zəlimxan Yaqubun sözü var. Məhz onun qayğısı ilə bu yerdə yurd salmısınız. Bu haqda təsirli bir yazınız da var. Evlərinin təməlində şair qanı və şair sözü olan Qəşəm Nəcəfzadənin şeirinin təməlində nə dayanır?**

– Mənim şeirimin dili – atamın, anamın, nənəmin, dayımın dilidi. İlk şeirlərimi mənə onların dili, danışığı, davranışları yazdırıb. İndinin özündə də gecələr yuxum gəlməyəndə

onlarla bağlı xatirələri yada salıb şirin yuxuya gedirəm. Təsadüfi deyil ki, mən öz tərəkəmə keçmişim haqda 150 hekayə yazmışam. Belə demək mümkünsə, evimin təməlində olduğu kimi, şeirimin təməlində də qanım, genim, keçmişim və öz sözüm var.

Allah Zəlimxan Yaquba rəhmət eləsin. Onun sözüylə yanaşı, bu evin təməlində də əlimin qanı var. İmkansızlıq üzündən ev tikdirəndə fəhləliyi özüm eləmişəm. Çətinliklə başa gəldi bu ev, bir az tikirdik, gəlib sökürdülər. O vurhavurda, min bir əziyyətin içində fikirləşirdim ki, bax indi bu betonun içinə armatur qoyuram. Görəsən, nə vaxtsa bu ev söküləndə biləcəklərmi bunu mən qoymuşam? Həmin an hansı hisslər keçirdiyimi duya biləcəklərmi?

Evimin təməlini bənzədirdim əruza, divarlarını hecaya, dam örtüyünü isə sərbsət şeirə. Heca əruzun üzərində dayanıb, sərbəst şeir də hecanın. Təməldəki əruzda boşluq varsa, heca, hecada boşluq varsa, sərbəst şeir yıxılacaq. Ən yaxşı sərbəst şeiri yazan ən yaxşı heca şeirini yazandı.

Mənim sərbəst şeirlərimdə motivlər bir-biri ilə qafiyələnir, sözlər, misralar yox. Misal üçün, çalışdığım Yazıçılar Birliyinin pəncərəsindən baxıb fikirləşirəm ki, o biri küçə ilə gedən oğlan bu küçədə gedən qızla qafiyədi. Və yaxud kişinin əlinin qabarı ilə həyat yoldaşına aldığı paltar bir-birinə qafiyədi.

Bir dəfə Gənc Ədiblər Məktəbində görüşdə dedim ki, yaxşı şeirlə pis şeirin arasında millimetrdən də az fərq var, qələmin ucunu azacıq əysən, yaxşı şeir olacaq. Amma çox adam qələmi əymir, düzünə getməyi doğru bilib düz yazır. Düzünə yazmaq isə hələ doğru və yaxşı yazmaq deyil.

Bu ev tikiləndə bir gecə gördüm, qapı döyülür. Açdım ki, ustadı. Nə üçün gəldiyini soruşdum. Divarı hörmək üçün çəkdiyi tarım kəndiri boşaltmağa gəldiyini dedi. Səbəbini soruşdum. Dedi, gecə kəndir tarım qalanda qollarımın ağrısından yata bilmirəm. Səhər qolunun ağrısını soruşdum. Dedi: "İpi boşaldandan sonra qollarımın ağrısı keçdi, rahat yatdım". Bu, bir mistikadı, sirdi. Ev tikmək də şeir yazmaq kimi bir şeydi. Gərək tikdiyin evin təməli divarlarıyla, divarları daşlarıyla, daşları tirləriylə, bütün tikinti materialları və hissələri də bir-biri ilə qafiyələnsin. Əsl ustalar qafiyələndirməyi bacaran adamlardı.

Mənim kitabxanam da, qazandığım təcrübə də, şeirimin materiallarını duyub görə biləcək texnikam da beynimdədi, mən artıq bütün bunları, daha doğrusu, özümü qazanmışam. Mənimçün ən vacibi şeirin yazıldığı an, yer və vəziyyətdi. Sonrası təfərrüatdı. Bir də şeiri yazanda gərək onun kontingentini düşünəsən. Misal üçün, nə qədər ki məktəblər, universitetlər, müəllimlər, şagirdlər və sevənlər var, "Sənin dərsin" şeirim həmişə yaşayacaq.

Bəzi şeirlər var ki, zərurətdən və dövrün tələbindən doğulur. Ya da əksinə. Çox şükürlər ki, torpaqlarımız işğaldan azad olundu. Bu zəfər heç bilirsən, nə qədər vətənpərvərlik şeirlərinin üstündən xətt çəkdi. Nə qədər nisgilli şeirlər doğulmadan öldü?

**– Razıyam... 1992-ci ildə Şuşa işğal olunanda "Ay vətən" şeirini yazmışdınız. Şuşa düşmən tapdağından azad olundu. Düşünmürsünüzmü ki, müəyyən mənada dillər əzbəri olan bu şeir də öz aktuallığını itirə bilər?**

– Xeyr, elə düşünmürəm. Şuşanın bir də işğal olunmasının qarşısını bu kimi şeirlər alacaq. Vaxt gələcək, deyəcəklər ki, görəsən, şair niyə "Şuşam getdi, bir balam var, dinmədim, Mənim kimi balan ölsün, ay Vətən" – deyib. Unudanlar, yaxud bilməyənlər hər bu misraya rast gələndə Şuşanın işğalını xatırlayacaqlar. Bu misrada işğal sözü bilərəkdən getmək sözüylə əvəzlənib. Çünki Şuşa xəyanətin qurbanı idi. Bu mənada, bədii həqiqət tarixi həqiqətə nisbətən daha uzunömürlü və etibarlıdı. Tarixi həqiqəti silib təzədən yaza bilərlər, bədii həqiqəti isə əsla.

**– "Həyat bir daş kimi alnıma dəydi" – "Həyat" şeirinizdəndi bu misra. Alnımıza dəyən daşlar alın yazımızdakı hansı sözə tuş gəlir?**

– Şübhəsiz ki, düzlük, saflıq, təmizlik, yaxşılıq kimi sözlərə dəyir daha çox. Alnımıza dəyən daşlar alın yazımızdan keçib birbaşa içimizə, ürəyimizə düşür. Ürəyimizi, ruhumuzu zədələyir. Mənim alnıma həmişə daşlar dəyib.

Bax mənim on dram əsərim var, beş-altı şeirimə mahnı bəstələnib. Daha çoxuna yazıla bilərdi, amma bəstəkarlar özlərinə əziyyət verib, dərin mənalı şeirlərə mahnı yazmaq istəmirlər. Mətndəki elə orijinal sözlərin üstündən xətt çəkirlər ki, yana-yana qalırsan. Bəstəkarlarda nəyi görmüşdümsə, rejissorlarda da eyni şeyi gördüm. Çox asan həzm olunan şeylərə qaçırlar. Nəinki gənclər, öz yaşıdım olan rejissor və bəstəkarlar da anlamaq istəmirlər məni. Mən ruhumu, düşüncəmi səfərbər edib yazdığım kimi, sən də istedad və bacarığını qoy ortaya, şeirimi mahnı elə, dram əsərimin səhnə həllini tap də. Bu kimi şeylər də yaradıcılığımızın könlünə, alnına, ürəyinə dəyən daşlardı.

**– Ürəyə dəyən daşlar dediniz, yadıma illər öncə yazdığınız "Ay ürək" hekayəsi düşdü. Hekayədə belə bir yer var: "Cəmil müəllim darıxa-darıxa əriyirdi, balacalaşmışdı. Yarısı harasa çıxıb getmişdi. Canı jaketinin, köynəyinin boğazından süzülüb çıxmaq istəyirdi...". Hekayənin sonunda Cəmil müəllim motosikletlə qəzaya düşür. Gəlib görürlər ki, paltosu boşdu, özü də qeybə çəkilib. Darıxanda ürəyinizdən Cəmil müəllim kimi yoxa çıxmaq keçibmi?**

– O qədər... Amma alnıma daşlar dəyəndə də, Cəmil müəllim kimi darıxıb yoxa çıxmaq eşqinə düşəndə də məndə cəmiyyətə, insanlara qarşı aqressiya baş qaldırmayıb. Özümdən qisas almamışam. Pis vərdişlərə qurşanmamışam ki, yaralarımı sağaldım, darıxmağım keçib getsin. Hər şeyi rahat qarşılamışam, səbirlə davranmışam. İçib sərxoş olanda belə özümə: "Qəşəm, eləmə bunu, sən peşman olacaqsan", – deyirəm. İnanmazsan, amma o dəqiqə ayılıram, sərxoşluğum keçib gedir. Mən o qədər özümü gözləmişəm ki cəmiyyətdə. Yəni şairliyimə salıb dəlilik eləməmişəm. Ağıllı surətdə daş dəyən yerləri sağaltmışam, darıxanda paltomun içindən sivişib çıxmışam, darıxmağım keçəndə geri qayıtmışam. Heç kim də bilməyib.

O hekayəni 1981-ci ildə – 41 il öncə yazmışam. Əslində, Cəmil müəllim mən özüməm. Onda mən qonşu kənddə müəllim işləyirdim, piyada gedib-gəlirdim. İstəyirdim ki, motosikletim olsun. Cəmil müəllim kimi mənə də tənə edirdilər ki, bəs müəllim motosiklet sürməz-filan. Onda heç ailəli də deyildim. Heç bilmirdim ki, gələcək qayınatamın da adı Cəmil olacaq.

**– Bu evdə iki yazı masası var, biri sizin, biri də oğlunuz yazıçı Kəramət Böyükçölün. Qəşəm Nəcəfzadənin yazı masasından Kəramət Böyükçölün yazı masasına nəzər yetirək...**

– Kəramət istedadlıdı, amma öz yaradıcılığının qayğısına qalmır. Onun təkcə "Çöl" romanı haqda 19 məqalə yazılıb, Rafiq Tağıdan tutmuş, Cavanşir Yusifliyə kimi. Özündən xəbərsiz bu yazıların hamısını yığıb saxlamışam. Dəfələrlə demişəm ki, bu yazıları topla, kitab halında çap elətdir, baş qoşmur. Türkiyədə iki kitabı çıxıb, maraqlanmır ki, o kitabları bura gətirə. Onun hekayələrini oxuyanda həyəcanlanıram, hətta oxuduqlarımı böyük həvəslə həyat yoldaşıma da danışıram. Bir sözlə, dünya vecinə deyil bu adamın. İndi bilmirəm, o, düz yoldadır, ya mən? Amma ömür keçir, gərək həyatınla, yaradıcılığınla bağlı hər şeyi konkretləşdirəsən də.

Mən ona yaşı qədər, nə az, nə çox, düz otuz beş şeir yazmışam. Heç şair sevdiyi qadına o qədər şeir yazmır. Ona yazdığım şeirlərin çoxunu oxumayıb Kəramət. Övladlarımın üçünü də çox istəyirəm. Etiraf edim ki, heç vaxt intriqalara getməmişəm, kiməsə pislik etməmişəm. Qorxmuşam ki, kimsə heyfimi balalarımdan çıxar.

**– Viktor Hüqo deyirdi ki, qırx yaş cavanlığın qocalığı, əlli yaş qocalığın cavanlığıdı. Bu fikri altmış üç yaşlı Qəşəm Nəcəfzadə davam etdirsəydi, altmış yaşı necə xarakterizə edərdi?**

– Bəlkə də, altmış da ölümün gəncliyidi... Onu tam olaraq xarakterizə edə bilməyəcəm, amma əvəzində insanlar nəyə görə rahat öldüklərini deyə bilərəm. Məncə, adamlar ona görə rahat ölürlər ki, tanıdıqları adamların çoxunu itirirlər. Doğmalarını, tay-tuşlarını, dostlarını, tanışlarını... Və yavaş-yavaş ömür sərhədləri zəbt olunur, yaddaş kiçilir, tutumu azalır. Ətrafında çox adam olanda düşünürsən ki, mən bunlardan necə ayrılacam? Ölmək çətin gəlir adama. Amma elə ki ətrafın bütövlüklə

zəbt olundu: dağ adamları, çay adamları əcəl zəbt elədi, sən də razılaşmalı olursan ölümlə. Yaş mənə təsir edir, çox düşünürəm bu şeylər haqda. Söz yox, mən özümü otuz, qırx yaşdakı kimi hiss edirəm, amma rəqəm çox pis təsir edir, kövrəldir. İstər-istəməz ölüm haqqında düşünməli olursan. Səksən yeddi yaşlı bir dostumdan bunun səbəbini soruşdum. Cavabı təəccübləndirdi məni, dedi, sən onu niyə düşünürsən? Mən bu yaşda belə o haqda düşünmürəm. Adam iyirmi yaşında da ölə bilir, otuz yaşında da.

Belə olanda adam öz orqanlarına baxıb təsəlli alır ki, bunlar altmış illik bir sınaqdan keçiblər. Niyə də bundan sonra yaşatmasınlar səni? Ürəklənirsən ki, sınaqlardan keçmisən, ölsəydin, o sınaqların birində ölərdin. Bu mənada yaşın çoxluğu da özünə inam hissini artırır. O dünyanın cənnətini bilmirəm, bu dünyanın cənnəti insanın doğmalarının, sevdiklərinin, sevənlərinin yanındadı.

Ötənlərdə Çingiz Abdullayevin müsahibəsində oxudum, deyir, koronavirusa yoluxmuş bir dostum soruşdu ki, Çingiz, həyatda ən gözəl şey bilirsən, nədi?

Deyib, nədi? Cavab verib ki, bu dünyada ən gözəl şey nəfəs ala bilməkdi. Nəfəs alırıq, çox şükür Allaha.

*Söhbətləşdi:* Taleh **MANSUR**





Aysel FİKRƏT

## Sənəm

Sənəm əvvəl gəlinciklərə baxırdı,
Düymə gözlü gəlinciklər
Şüşə dünyaya baxıb gülümsərdilər Sənəmə.
Toxunmağa belə utanardı,
anasının üç-beş manat qazancından
atasının arıq çiyinlərinin arxasında gizlənərdi.
Sənəm bir az böyüdü,
gözəlliyi gözlərindən süzüldü,
Başladı gəlinliklərə baxmağa.
Ağ tül pərdələrdən kəsdi, biçdi,
ağ göyərçinlər kimi fırlandı xəyalları...
Sonra elə o köhnə pərdəlikdən
bir don tikdi ona anası,
köhnə, soluxmuş gəlinlikdə köçdü
ata evinin sınıq dirəklərindən.
Ər evi qapaz kimi döyürdü başına –
bapbalaca bir koma.
Sənəm gəzdiyi yerdə büdrəyirdi,
başını çıxarıb pəncərədən,
boy- boy ucalmış evlərə baxırdı.
Sonra evlərə baxdı Sənəm,
balasını sıxıb qucağına,
bir ev kimi böyütdü.
Sonra qanad taxdı balasının qoluna, dedi: get,
bu şəhərdən, bu dədədən, bu anadan qaç.
Oğlunu uçurandan sonra
əvvəl yaddaşı,
sonra ümidləri korşaldı,
unutdu gecələrinin Ağ yuxularını.
yaşlandı,
Sənəm altmışı keçdi, başladı qəbirlərə
baxmağa...
Nə gəlincik,
nə gəlinlik,
nə ev,
ətrafda bir sürü yaşayan insan,..
Sənəm qəbirlərə başqa həsrətlə baxdı,
Baxdı, baxdı, baxdı...
Axırda
elə gözəl öldü ki...

## Qələm oğrusu

Yarpaq-yarpaq,
şeir-şeir böyüdük,
Yazıb atdıq olmayan arzuları,
Kağızla qələmə şahlıq verdik.
Yazdı, yazdı,
Allah bizə yazmayanı...
Can verdik ölü kağızlara,
Mürəkkəbi bitmiş qələmlərə.
Bir qələm oğrusu dostumuz da olmadı,
Çıxa gələ, sevinək;
deyə:
Yazma,
Pəncərədən bax,
Günəş sənin yazdığın günəşdən daha sarı.
At kağızı, ondan sənə ev olmaz,
Gəl gedək evimizə.

## Hippokrat andı

Əlimə nə götürsəm, dağılır, həkim,
yazdıqlarım varaq-varaq itir gedir.
Gözümdən də şikayətçiyəm,

Görmür çox vaxt pisi,
tor bağlayıb son günlər,
indini pozub yaddaşından,
keçmişi göstərir yalnız.
Hələ ayaqlarım...
Ayaqlarımın yaddaş pozuntusu var,
Köhnə evimizin yanında düşür dayanacaqda,
Evimizə çörək almaq üçün tələsir.
Sonra...
qalxır pillələri,
Ev yox...
Kor-peşman bir-birinə dolaşa-dolaşa
düşür yerin dibinə.
Mən yuxudan oyananda
Yuxulayıram, əslində.
Övladlarım məni film kimi seyr edir,
şüşə üzümə toxunub
məni oyada bilmirlər.
Qorxuram,
nə təcrübən,
nə o bədbəxt Hippokrata içdiyin and
köməyinə gələ,
mən sağalmazam.
Sən bu cəhənnəm sakini dünyanı
Bir neçə günlük tətilə göndər...
Bəsimdi....

## Şəkil

Gəlin şəkil çəkdirək,
Gözəl düşək şəkildə.
Qəm yağan gözlərimiz
Gülümsəsin şəkildən.

İllər ötüb gedəndə
Şəkillər yola düşür.
Hər il ömür payımız
Bir şəkil ola, düşür.

Soluxan ömrümüzün
Şəkillərmiş bəzəyi.
Evin dörd bir tərəfi
Şəkillərlə bəzənib.

Adam-adam itirlər
Yanımızda duranlar.
Tələsirlər, gedirlər
Başqa şəkil olmağa.

Kim şəkildə qalır ki?
Hamı qocalır, gedir.
Gedir bir soyuq daşda
Baxan şəkil olmağa.

## Şəhid balasına

Bu gecə bir kimsə bilmədi,
Nə yedi, nə içdi bu bala.
Bu gün ilk dəfə hamıdan qaçdı,
gedib başın atıb yatdı div yuxusunu,
harda gəldi,
necə gəldi, yatdı.
Gecələr səhərə qədər
ağlayan anadan uzaq.

Qonşu uşağının gözlərindən uzaq,
Yorğun,
Arğın,
Palçıq içində, əlləri yuyulmamış,
Gözünün yaşına ovunmamış...
Yatdı oğul bala,
Daş kimi düşüb qaldı.
Eynən atasının Şəhidliyə,
düşüb qalan cansız canı kimi.
Büküldü,
yatdı...

Bu gecənin səhəri bir başqa,
Şəhid balası, qalx,
Balaca çiyinlərin ağrımasın.
Bu gündən evdə tək kişi sənsən!!!
Qalx, bala, qalx,
Dimdik dayan.
Yu əlinin palçığını,
gözünün yaşını,
Dur havada yellənən darvazanızı bağla,
tutma özünü,
ürəkdən ağla,
yalnız yıxılma.
Bir günə böyümək
hər kişinin işi deyil.

## Yolüstü sevgi

Kimsənin kimsəyə aid olmadığı
Bu gözəl dünyanın
Adını bilmədiyim küçəsində

Çıx qarşıma.
Bu hansı küçədi? – soruş.
Nə dərdimdən xəbərin olsun,
Nə on beş dəqiqə əvvəl
Hönkürüb ağladığımdan.
Tanımayaq bir-birimizi,
Heç tanımayaq.
Sonra hər gün getdiyim yollarda çıx qarşıma,
Belə doğmam ol.
Bir addım da atmadan,
heç əlimdən tutmadan,
Bu şəhərdə olmayan
bir küçənin adından
Asılıb qala sözlərin.
Gündəlik qayğını da,
Bu yolun ağını da,
Lap ölümün özünü də unudasan
Gözlərimdə.
Bax belə,
Heç üzünü yadımda saxlaya bilmədiyim
əziz adam,
Bax belə,
səni tapa bilmək üçün
hər gün heç tanımadığım,
qeydiyyatda belə olmadığım bu şəhərdə
küçə adları əzbərləyim,
sonra tapım.
Yolüstü Sevgi adlı küçənin
Qayğı döngəsində
Sən adlı şəhərin
Mən küçəsində
görüm ki, gözləyirsən...

## Nə yaxşı qayıtdın

Göydən qurğuşun kimi
yağdı üstümüzə şəhid xəbərləri.
Zəfərin ətini yeyirdi kədər,
Ana gözlərinin naləsi,
Sevgili arzularının külündə köz.
Qırx dörd gecə yarıyuxulu keçirdiyim
gecələrin
ən kədərlisi idi Həmin gün.
Mərmi yağışının qulaqbatıran
səs-sədasından sonra
sabah günəş əvəzi
şəhidləri doğulmuşdu göy üzündə vətənimin...
Uşaqlar atalarını göydən səsləyirdi:
Ata, icazə ver.
Ata, olarmı?
Ata, darıxmışam!
Qadınlar tənhalığa bükülürdü, üzü göyə
yaşayırdı hamı.

Nə yaxşı ki, qayıtdın, əsgərim,
Nə yaxşı ki, qayıtdın,
yoxsa?..

## Söz

Biz daha sevgidən yazmırıq çoxdan,
Biz daha sevginin özü olmuşuq.
Möhtacı deyilik ayın ,ulduzun,
Göylərin yerlərə sözü olmuşuq.

Bizimlə sevirlər dünyanı indi,
Bizimlə unudub çıxıb gedirlər.
Bizimlə yağırlar buludlar indi,
Buludun ağlayan gözü olmuşuq.

Bizi bu dünyaya bağlayan bağı
qırsalar da birik, qırsaq da, birik.
Bizi ürəyində unudanların
canında yandığı közü olmuşuq.

Bizdən gedənlərin yolu açıqdır,
Bizə gələnlərin yolu qapalı.
Dəli at kimidir qəm canımızda,
Dərd bizim, biz dərdin üzü olmuşuq.

Biz daha sevgidən yazmırıq çoxdan,
Biz daha sevginin özü olmuşuq.
Möhtacı deyilik ayın, ulduzun,
Göylərin yerlərə sözü olmuşuq.

## Başlanğıc

Yağış, bir az göz yaşından ver,
Haçandı ağlamıram.
Dəniz, bir az tufanından ver,
İçimdəki sakitlik əzir.
Buludlar, bir az azadlıq,
Bu türmə sıxır məni.
Mən də ürəyimdəki daşlardan
Dağlara pay verərəm.
Canımda yarpaq açan

Bu susuz heyrətimdən
Susuz səhra verərəm,

Düzlərə
Əvəzində qarı, sazağı üzümə çırpan
Küləkdən cəsarət istəyərəm,
Hünər istəyərəm.
Mən də borclu qalmaram heç,
Canımdakı nisgilləri bir-bir
Göyə uçuraram sərçə kimi,
İçimdəki Ayrılığı,
Yalquzaq edərəm.
Gecələr ayı vəsf edər.
Darmadağın dünyamdan bir zərrə də qalmaz.
Dupduru bir sabaha açıb gözlərimi,
Çölün düzündə qalmış,
Cansız bədənimə,
Donmuş canıma,
Bir zərrrə günəş işığı qona!
İçimdə bir atımlıq
Sevgi cücərə,
Bəsimdi...

## Dəyişdi

Havası dəyişdi dünya üzünün,
Barıt qoxusuna qarışdı bir az.
Ruhum ayrılığa bir söz demədi,
Canım ölüm ilə barışdı bir az.

Gedişi dəyişdi dünya üzünün,
Hamı üzün tutub Allaha sarı.
Daha gedənlərin yolu bağlıdır,
Unudub susdurduq kamanı, tarı.

Sevgisi dəyişdi dünya üzünün,
Dərdi biz sevirik, dərd bizi sevir.
Allah, qurban olum, çək qayğımızı,
Çevir bu varağı, o üzə çevir.

Ölümü dəyişdi dünya üzünün,
Ölüsü diridi indi sağından.
Torpaq həsrətinə elçi düşəndən
Oğullar dərildi vətən bağından.

Yuxusu dəyişdi dünya üzünün,
gözünə bir damla yuxu getmədi.
Atlılar keçdilər ürəyimizdən,
Biri də arzuya nədən yetmədi?

Havası dəyişdi dünya üzünün,
Barıt qoxusuna qarışdı bir az.
Ruhum ayrılığa bir söz demədi,
Canım ölüm ilə barışdı bir az.

## Ümid

Qapının səsi çıxmır,
Səhər açılandan yox hənirtisi.
Vaxt var idi, bu qapıdan
qardaşlarım dönərdi məktəbdən,
dərsdən,
əsgərlikdən,
qürbətdən...

Evdə oturmaq olmur bu səssizlikdə,
vaxt var idi, anam gələrdi bu qapıdan,
ürəyi yana-yana,
bişirdiklərindən dadım deyə,
vurnuxardı.

Evdə oturmaq olmur bu səssizlikdə,
vaxt var idi,
atam əl əsasıyla tıqqıldadardı qapını,
sanki günəş doğurdu,
bir məmləkət kimi böyüyürdü
balaca zirzəmi evim.

İndi bu balaca otaqların
daha da daraldığını hiss edirəm ürəyimə.
Hərdən soyunub dərdimi,
yad kimi baxıram ömrümə.
Saatlardı səssizliyin içində,
bir dəfə də döyülməyən qapımla susmuşam,
içimdə daima bir uğursuzun monoloqu
səslənir.
Azalıb qab-qacağım,
oturmağa kətilim,
yatmağa yerim.
Bilmirəm bu evin,
bu dünyanın,
harasında özümə yer edim,
darıxmayım.
Evdə oturmaq olmur bu səssizlikdə,
gedim taqqıldadım kiminsə qapısını;
yaşaya bilmirəm,
heç olmasa ümid olum kiməsə,
ümid.

## TURANIN BAŞKƏNDİ – ÖTÜKƏN

Ötükən, əski türkün düşüncəsinə görə, qutsal yer sayılırdı. Türküstanda ilk türk dövləti olan Hun İmperiyasının, sonralar isə Göytürk dövlətinin başkəndi burada yerləşirdi. Ötükənin harda olduğu tam dəqiqliklə bəlli deyil. Lakin məlumdur ki, bu yer hazırkı Monqolustan ərazisində Orxon çayının mənbəyinə yaxın yer olub. Mahmud Kaşğarlı da "Divani Lüğət-it-türk" əsərində bu yer haqqında cəmi bir cümləlik bilgi verir: "Ötükən tatar çöllərində, Uyğur ölkəsinə yaxın bir yerin adıdır".

Türkün daş yaddaşı olan Orxon-Yenisey yazılarında Ötükən adı tez-tez çəkilir. Bu haqda yazının davamında ayrıca bəhs olunacaq. Ötükən adı ilə bağlı iki fərqli düşüncə var. Birinci düşüncə odur ki, Ötükən başkəndin-paytaxt şəhərin adı idi. İkinci versiyaya görə, Ötükən ərazinin, coğrafiyanın adıdır. Hun İmperiyasının və Göytürk Xaqanlığının baş kəndi də Ötükən ərazisində idi. Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, ikinci versiya daha ağlabatandır. Ötükən coğrafiyanın adıdır. Başkənd də bu coğrafiyada yerləşirdi.

**Ötükən sözünün etimologiyası**

Bu sözün anlamı haqqında bir çox versiyalar olsa da, hələlik bütün araşdırmaçıların üzərində dayandığı və razılaşdığı ortaq fikir yoxdur. Türkiyəli araşdırmaçı Dəniz Karakurtun açıqlamasına görə, dua etmək anlamına gələn "ötümək" sözündən yaranmış ola bilər. Araşdırmaçının fikrincə, "etmək (yapmaq) sözü ilə də bağlantılıdır. "Ötög" moğolca ayı deməkdir və ayının yuvası torpağın içində olub, eyni zamanda qutlu sayılan bir heyvandır". Bu versiya o qədər də inandırıcı görünmür. Ötükənin "Ut-Ot-Od" sözündən törəyə biləcəyini ehtimal edənlər də var. Tanrıçılıqda Torpaq anaya verilən adlardan biri də Ötükən idi. Monqollarda bu sözün Etugen, İtügen və ya Odigan variantları var.



**Namiq HACIHEYDƏRLİ**

Əski türkcədə yaşayış, yurd yeri anlamına gələn "kən" sözü var idi. Kənd sözü də bu sözdən törəmişdir. Bəzi araşdırmaçılara görə, Ötükən sözündəki "kən" də bu anlamda işlənmiş ola bilər. Ötükən sözünün etimologiyası haqqında şəxsi versiyamı dəyərli oxucuların diqqətinə çatdırmağı gərəkli bilirəm: Ötükən adı iki sözün birləşməsindən yaranmış ola bilər. Türk dillərində öt(mək) feili var. Üstün, uca, daha yüksək anlamlarına gələn "ötə" sözü də bu sözdən törəmişdir. "Kən" isə dediyimiz kimi, əski türklərdə yaşayış məntəqəsi anlamını verirdi. Deməli, böyük ehtimalla, Ötükən "üstün, uca məkan" anlamında işlənib. Bu sözü "qutsal yurd" və ya "müqəddəs torpaq" kimi də izah etmək olar. Nədən ki, Köl Tikin (Kol Tikin) abidəsində türk millətinə ünvanlanan "Ötükəndən dağılmayın", "Ötükəni tərk etməyin" kimi çağırışlar və "Qutsal Ötükən..." kimi ifadələr var. Digər versiyam da var, amma onu sonda deyəcəm.

Ötükən adının ən doğru anlamını, sözsüz ki, min illər öncə burada yurd salan dədələrimiz daha yaxşı bilirdilər. Ancaq əfsuslar olsun ki, ulularımız Ötükənin adını tez-tez sevgi və sayğı ilə daşlara yazsalar da, bu sözün hansı anlam daşıması haqqında bizə heç bir yazılı bilgi ötürməyiblər. Bəlkə də, ötürüblər, ancaq biz hələ tariximizi yetərincə araşdırmamışıq.

**Ötükən Orxon-Yenisey yazılı abidələrində**

Yazılı abidələrdən anlaşılır ki, ulu türk xaqanlarının hamısı Ötükənə yüksək dəyər verib. Bu yeri qutsal sayıblar və buranın təkcə Türküstanın deyil, eləcə də dünyanın mərkəzi olduğunu düşünüblər. Türk xaqanları zaman-zaman ulusa səslənərək bu yerləri tərk etməməyi vəsiyyət ediblər. Onlar sanki min illər öncəni görürmüş kimi xəbərdarlıq ediblər. "Ötükəndə olduğunuz sürəcə əbədi var olacaqsız, qüdrətli və böyük olacaqsız" – deyib. Bu abidələrdə xaqanların Ötükənlə bağlı xəbərdarlığını oxuyanda heyrətlənməmək olmur. Nədən ki, zaman ulularımızı haqlı çıxardı, onların nə qədər uzaqgörən olduğunu isbatladı. Orxon-Yenisey abidələrində Ötükənlə bağlı yazılardan bəzilərinə diqqət edək:

– Türk xaqanı Ötükən dağında oturarsa, yurdda sıxıntı olmaz (Köl Tikin).

– Ötükən dağından daha yaxşı yer (məkan) əsla yoxdur. Yurd salınacaq ən yaxşı yer Ötükən dağıdır (Köl Tikin).

– Ötükən dağında otursanız, əbədi yurd edib oturacaqsız... (Köl Tikin)

– Qutsal Ötükən dağı... (Köl Tikin)

– Türk xaqanı Ötükən dağında oturarsa (qərargahını burda qurarsa), ölkədə sıxıntı olmaz (Bilgə Xaqan).

– Qutsal Ötükən dağı ulusu... (Bilgə Xaqan)

– Türk xaqanını, türk ulusunu Ötükənə mən Bilgə Tonyukuk gətirdim. Ötükənə yerləşdiyimizi eşidən güney, batı, quzey və doğudakı boylar (yığışıb) gəldi (Tonyukuk abidəsi).

Ötükənlə bağlı örnək gətirdiyimiz misallar Orxon-Yenisey abidələrində Ötükən adı keçən yazıların kiçik bir qismidir. Əski türkün daş yaddaşı olan bu abidələrdə "Qutsal Ötükən" yurdunun adı sıx-sıx keçməkdədir. Yazılı daş abidələrimizdə ümumilikdə 30 dəfəyə yaxın Ötükənin adı çəkilir. Bu hələ araşdırılan, bəlli olan rəqəmlərdir. Bu da onu göstərir ki, xaqanlar və eləcə də digər yetki sahibləri bu yerə çox yüksək dəyər veriblər, buranı çox seviblər. Gələcək nəsillərə də buranı tərk etməməyi, Ötükəni əbədi yurd etməyi tapşırıblar. Ötükəndə olduğumuz müddətdə birliyimizin pozulmayacağını, qüdrətimizin azalmayacağını və yenilməz olacağımızı əminliklə ifadə ediblər. Ulu dədələrimiz törələrdən uzaqlaşmamağı tapşırmışdılar. Əslində, ulu xaqanlar özlərinə və sözlərinə əmin olduqları üçün vəsiyyətlərini daşlara yazdırırdılar. Ötükəndən dağıldıq, enerjimiz və gücümüz parçalandı, özümüzdən və özlüyümüzdən uzaq düşdük. Birliyimiz pozuldu, törələrdən uzaqlaşdıq, farslaşdıq, ərəbləşdik, hələ bir az da manqurtlaşdıq...

**Günümüzdə Ötükənin izləri**

Hazırda türk dünyasında, eləcə də türklərin məskunlaşdığı ayrı-ayrı coğrafiyalarda bir sıra yer adları var ki, onların Ötükən adından törədiyini ehtimal etmək olar. Onlardan bir qisminə diqqət edək:

**Ödəmiş** (Ötəmiş) – Türkiyədə İzmirdə yer adıdır. Bəzi araşdırmaçılara görə, bu ad Odamıs sözündən meydana çıxmış, "Ana tanrıça" və ya İlahə anlamını verir. Ötükən sözünün də eyni anlam ifadə etdiyini iddia edən araşdırmaçılar var.

**Otemis** – Qazaxıstanda bu adda iki yer var. Onlardan biri Kaskop bataqlığı yaxınlığında yerləşən, əhalisi təxminən 450 nəfərdən ibarət olan kiçik kənddir. Digəri isə Qazaxıstanın güneyində yerləşən nisbətən böyük kəndin adıdır.

**Otamış** (Utamış) – Dağıstanın Dərbənd rayonunda qəsəbə adıdır. Burada, əsasən, türk boylarından biri olan kumıklar yaşayır. 16-17-ci yüzillikdə kalmıkların Otamış Sultanlığının paytaxtı burda yerləşirdi.

Araşdırma apardıqda Orta Asiyada, Doğu Türküstanda, Çində, ümumiyyətlə, Asiya ərazisində xeyli sayda bu kimi toponimlərə – Ötükənin izlərinə rast gəlmək olur. Bütün bunlar "Qutsal Ötükən"in bir qədər fərqli variantda ya bilərəkdən bu yerlərə ad kimi seçildiyinin, ya da bilmədən genetik yaddaşlarda yaşadıldığının göstəricisidir.

**Könül istərdi ki...**

Əski Çin, yunan, yəhudi, türk, ərəb, hind və digər toplumların düşüncəsinə görə bəzi dağlar qutsal sayılırdı. Onlar bu dağların Tanrıya daha yaxın olduğuna və bu dağları tərk edərdilərsə, fəlakətlə üzləşəcəklərinə inanırdılar. Yəhudilərdə Sina dağı, ərəblərdə Ərəfat dağı, yunanlarda Olimp dağı, hindli-

lərdə Himalay dağı, moğollarda Burhan-Haldun dağı belə yerlərdən sayılırdı. Əski türklərdə də qutsal yüksəklik Tanrı dağları idi. Ötükənin bir tərəfi Tanrı dağlarının ətəyi, bir tərəfi Orxon (Orhun) çayının mənbəyinə yaxın ərazi, bir tərəfi isə yaşıl ormanlar idi. Ötükənin özünün də yerləşdiyi ərazi yüksəklik – yayla idi. Türkün ən qədim dastanlarından olan "Yaradılış" dastanına görə, Tanrı ilk insanı ağacdan yaratmışdı. Ötükənin ətrafının ormanlar olması onun dəyərini bir qədər də artırırdı. Göründüyü kimi, Ötükən təkcə coğrafi cəhətdən və hərbi-strateji baxımdan deyil, həm də inanc baxımından vazkeçilməz bir yer idi.

**Ayrıca, əski türklərin inancına görə:**

**– Dağlar, çaylar, göllər və ormanlar canlıdır, onların ruhları var. Bu səbəbdən onları incitmək, ziyan vurmaq olmaz.**

**– Su həyatvericidir, safdır, təmizdir. Su biliyi, ağlı və gücü simvolizə edir.**

Bu və bu kimi səbəblərdən ulu xaqanlar türk ulusuna bu yerləri tərk etməməyi dönə-dönə vəsiyyət etmişdi. Ulu xaqanların vəsiyyəti pozulunca ulusun birliyi, bütünlüyü və böyüklüyü çat verdi, nizamı pozuldu. Nizamı pozulan türk millətinin enerjisi də parçalandı, Tanrı ilə əzəli bağını itirdi...

Yaxşı olardı ki, Ötükənlə bağlı türk ölkələrinin ortaq araşdırma komissiyası təşkil edilsin. Ötükən – Qutsal yurd dərindən və hərtərəfli araşdırılsın. Və könül istərdi ki, Türküstanın min illik başkəndində onun tarixini və qutsallığını özündə əks etdirən abidə ucaldılsın. Bu yer türk dünyasının birləşmə, toplanma, bütünləşmə simvoluna çevrilsin və hər il "Böyük Ziyarət Günü" təşkil edilsin. Bu qutsal yerləri ziyarət etmək hər bir türk üçün yerinə yetirilməsi vacib olan borc sayılsın. Nədən ki, türkün Ərəfatı Tanrı dağları, Məkkəsi Ötükəndir.

Sonda xüsusi olaraq vurğulamaq istəyirəm ki, Şumerlərdə Günəş tanrısının adı Utu idi. Şumer düşüncəsinə görə, hər şeyə can verən Utu tanrıdır və o, yalnız yaxşılıqlar və gözəlliklər tanrısıdır. Şumer düşüncəsinə görə, Utu tanrı Nananın (Nanna) övladıdır. Ötükən xalqı da Ötükənin qoruyucu mələyinin adının Nanu (Namu) olduğunu deyirdi.

Ötükən, Utukən – Utunun kəndi – "Günəş tanrısının yurdu" da ola bilərdi.

Həm Ötükən, həm də Şumer sivilizasiyasının qurucuları eyni törənin daşıyıcıları idi...





FURQAN

# GENERALIN MİLÇƏKLƏRİ

Generalın yeməyindən milçək çıxmışdı deyə, aləm dəymişdi bir-birinə. Üçmərtəbəli imarətdə uzun zamandan bəri aşpazlıq edən Əliş kişi uşaq kimi boynunu büküb dayanmışdı. General əsəbi şəkildə ağzına gələni deyir, əsgər kimi danlayırdı onu. Bəyaz salfet kağızının üzərinə qoyduğu ölü milçəyi şəhadət barmağı ilə sübut kimi Əliş kişiyə göstərir, Əliş kişi də arabir gözünün ucu ilə milçəyə baxırdı.

Artıq bu neçənci dəfəymiş. Keçən dəfə də yeməyin içindən ağ tük çıxıbmış. Əliş kişi artıq qocalıbmış. Məsuliyyətsizləşibmiş. Bir də belə bir hadisə olsa, yerinə başqa aşpaz götürüləcəkmiş.

Düz on dəqiqədən sonra susub əlindəki qaşığı da milçəyin yanına qoyan general:

– Daha iştahım qalmadı! – dedi.

Əliş kişi də səssizcə otaqdan çıxıb asta addımlarla, səs çıxarmamağa çalışaraq birinci mərtəbəyə endi.

Üçmərtəbəli imarətin tikilməyi hardasa on il olardı. General onda polkovnik idi, general olmağa çalışırdı. İmarət tikilənə qədər isə ailəsi ilə şəhərin mərkəzindəki dördotaqlı evdə qalırdı. İmarət hazır olanda bura köçdülər. Birinci mərtəbəni aşpaza və qulluqçulara verdilər. Əliş kişidən başqa evdə iki qulluqçu vardı. Biri evin və həyətin səliqəsinə baxır, bağbanlıq edirdi. O biri isə çirkli paltarları paltaryuyanda yuyub ütüləyirdi, yemək vaxtı masanı hazırlayırdı, yeməkdən sonra qabları yuyurdu.

İmarətdə hər şey qaydasında idi, bircə məsələdən başqa. General ailəsi ilə birgə bura köçdüyü vaxtdan bəri milçəklərin kökü kəsilməmişdi. Daha doğrusu, kəsə bilməmişdilər. Onları qırıb qurtarmaq üçün çıxarmadıqları hoqqa qalmamışdı. Hər cür dərmandan tutmuş, yapışqana qədər. Amma bu iyrənc, balaca canlılar hələ də ürək bulandırırdılar. Maraqlısı da o idi ki, milçəklər ikinci və üçüncü mərtəbəyə çıxmır, elə bil qəsdən birinci mərtəbədə məskən salıb əl çəkmək istəmirdilər. Hətta qışda da.

General məcbur qalıb zəhmindən istifadə edərək milçəklərə də komanda ilə hərəkət etməyi öyrətmişdi. General içəri girəndə Əliş kişi “farağat!” deyə qışqırır, içəridəki vızıltı kəsilirdi. General pilləkənləri qalxandan sonra Əliş kişi “azad!” deyirdi. Əliş kişi “azad!” komandasını verməyə də bilərdi. Bunu bir neçə dəfə yoxlamışdı. Sanki milçəklər generalın ikinci mərtəbəyə çıxdığını bilirdilər. O qalxandan sonra “azad!” komandası səslənməsə belə, vızıldamağa, istədikləri yerə qonmağa davam edirdilər.

Milçəklər Əliş kişiyə yemək bişirən zaman çox maneçilik törədirdi. Əliş kişi bir dəqiqədən bir əli ilə milçəkləri qovurdu. Amma yenə milçəklər hərlənib-fırlanıb Əliş kişini narahat edirdi. Heç bir dərman onların qarşısını ala bilmirdi. Bir xeyli milçək qırılırdı, əvəzinə daha çox milçək peyda olurdu.

Əliş kişi yemək bişirəndə “farağat!” deyə qışqırırdı ki, heç olmasa üç-dörd dəqiqə sakitçilik yaransın, yaranmırdı. Milçəklər Əliş kişinin general olmadığını, heç vaxt olmayacağını yaxşı bilirdi.

General istəmişdi boş vaxt olanda milçəklərə başqa komandaları da öyrətsin. Ən azından “sağa dön!”, “sola dön!”, “geriyə

dön!" komandalarını bilsəydilər, pis olmazdı, onları yönləndirmək, qapıdan çölə çıxarmaq olardı. Generalın isə buna vaxtı olmurdu. Vaxtı olsaydı, balaca oğluna velosiped sürməyi də öyrədərdi.

Son hadisədən sonra Əliş kişi düşündü ki, bəlkə, general məni qovmamış özüm işdən çıxım. Onsuz da qeyri-rəsmi işdi. Bu gün istəsəm, elə bu gün də çıxa bilərəm.

Qərarını verdi.

Hava qaralandan sonra generalın şəxsi maşını həyətə girdi və sürücü cəld qaçıb arxa qapını açdı. General maşından düşüb imarətə daxil oldu.

Bir azdan Əliş kişi boynubükük şəkildə onun qarşısında dayanıb işdən azad olunmaq istədiyini bildirdi.

Generalın kefi kök idi, gülümsəyirdi. Üzü qızarmışdı.

– Nə olub – dedi, – Əliş kişi? Bizi qoyub hara gedirsən?

– Qocalmışam, cənab general! – deyə cavab verdi Əliş kişi.

– Onu kim çıxardı, a kişi?

– Sizə layiq yeməklər bişirə bilmirəm daha...

General getdikcə ciddiləşirdi.

– Nə danışırsan, a kişi? On ildi sənin yeməklərinə öyrəşmişik biz.

– Günorta yeməyinizdən milçək çıxdı.

General ciddiləşdikcə Əliş kişinin səsi zəifləyirdi.

– Çıxır çıxsın da, – dedi general.

Əliş kişi heç nə demədi. İcazə istədi. Birinci mərtəbəyə düşəndə gözlərinə inanmadı. Bütün milçəklər "farağat!" komandasında dayanıb onun gəlişini gözləyirdilər.

İlk dəfə idi ki, milçəklər generala görə yox, Əliş kişiyə görə farağat dayanırdılar. Əliş kişinin gözləri doldu.

Amma ağlına nə gəldisə, təzədən ikinci mərtəbəyə qalxıb olanları generala danışdı. Əsəbiləşən general "Ola bilməz!" dedi. Kameraya baxıb Əliş kişinin danışdıqlarının doğru olduğunu öyrənəndən sonra:

– İşdən azadsan, Əliş kişi! – dedi.

Əliş kişi son dəfə imarətdən çıxanda milçəklərin vızıltısı tamam kəsilmişdi deyə, özünü general zənn etdi.





## Qeyrət MƏCİD

## “MƏN KİMƏM YOLLARA FƏDADAN BAŞQA?”

*Özbəkistan Yazıçılar Birliyi başqanının müavini, şair **Qeyrət MƏCİDİN** şeirləri **Əkbər Qoşalının** uyğunlaşdırmasında:*

### EHTİMAL

Bəlkə də, hansısa qayğı yükündən
Əyilib qalıbdır gülün budağı.
Bəlkə də, bu həzin musiqi deyil,
Biçarə bülbülün könül ahıdı...

Bəlkə, ağaclar da intizar çəkir,
Saralıb solubdur yaşıl yarpağı.
Bəlkə, günəş deyil göylərdə yanan,
O sevən qəlblərin alışmağıdı...

Bəlkə də, bu dağlar biganə qəlbdən
Sarsılmış, yığılmış xeyli daş olub...
Bəlkə də, su deyil çaylarda axan,
Yarın göz yaşıdır, dolub, çay olub...

Bəlkə də, sən mənə diqqət etmirsən,
Vəslinə kövrəlib can qovrulacaq.
Bəlkə də, mərhəmət edərsən o vaxt,
İkimizdən bir can hasil olacaq…

### MƏQSƏD

Bütün şairlərin vəsfini yığsam,
Bəlkə, bir zərrənə yetişməzdi, Mah.
Sən hüsnü-məhəbbət mülkündə şahsan,
Nurun göyə sığmaz, daşarsan nagah...

Bir dünya quraram ürəyimdə mən,
Bünövrəsi sevgi, sütunları dərd...
Ah, sənin haqqında heç kim bilməyən
Ən gözəl mahnını oxumağım şərt...

### AH ÇƏKDİM

Mən kimə gərəyəm, kimə aşiqəm,
Yolumda qüssənin gülləri açar...
Əssalam-əleyküm, vardım qəlbimə,
Dilimdə nə vardır vidadan başqa?

Bunca saralmısan, ey xəzan fəsli,
Yellər udur məni, ey tozan fəsli,
Yox, əsl baharsan, bahar – can fəsli,
Mən kiməm yollara fədadan başqa?

Yandım, gözlərimdən ulduzlar baxır,
Boylansam, üzümdən gündüzlər baxır.
Niyə qəmli-qəmli hür qızlar baxır,
Mənim nəyim vardır sevdadan başqa?

Göyün tikişləri söküldü birdən,
Ah çəkdim, göy üzü töküldü birdən,
Fəqət mürüvvət qıl, şəfqət qıl, Xudam,
Heç nə edəmmədim xətadan başqa...

***

Ah, sevgi hadisəsi
Aləmdən də qədimdir.
Amma kədərlənməyin,
Mən onu yeniləərəm.
Dünya,
qərib şərqilərlə
Doludur, sinəm dolu...
Mən qəlbləri nəvaya
doldurmağa gəlmişəm.

Əslində, bir zərrə
olmasam belə,
Mən də varam
bu dünyanın xorunda.
Məhəbbət əhli daim
dözümlüdür həyatda...
Sevgi səbir bəxş edər.
Dünyaya zülmət çöksə –
Dar gündə üzülməyin.
Mən bu dünya üzünə
Kədər çiçəklərini
soldurmağa gəlmişəm.

Sayrışan ulduzlar da
Balıqlarçün talisman...
Ah,
Ay, yoxdur mənimtək
Camalına xumarlar...
Bir dərdiniz sağalmaz,
Gəlsə bütün bimarlar;
Amma mən
ürəkləri
ovutmağa gəlmişəm.

Ana torpaq, sənin toz,
daşlarını sevmişəm.
Ağacını, gülünü,
Quşlarını sevmişəm.
Bu bivəfa dünyanı
Pak olsun, istəmişəm –
Mən ürəklərə vəfa
hopdurmağa gəlmişəm.

## ÜRƏKLƏNDİRMƏ

Sanki hər şey qəm daşır,
hər şey kədər bağışlar;
Sənə gülmək yaraşır,
Sənə ağlamaq olmaz.

Kimə qarğış eyləsən,
Ömrü uzanar, bilərsən;
Bir söz söyləməm, gülsən,
Sənə ağlamaq olmaz.

Paxıl ballı qaşıqla
Zəhər tökər aşına;
Qadan alım, ağrıma,
Sənə ağlamaq olmaz.

Gözlərində həyat var,
Bu dünyayçün ağlama...
Mən ağlaram, darılma,
Sənə ağlamaq olmaz.
***

### *Ustadıma*

Bu gecə
Qəlbimi büsbütün parçalayaraq,
Qızıl qartallara yem edəcəyəm.
Bütün ömrüm-günüm bir heç olacaq,
Tapdanan fidana bənzəyəcəyəm.

Bu gecə...
Bu gecə qəlbimi parçalayaraq,
Sevda şərbətiylə nuş edəcəyəm.
Həyatım yepyeni şəkil alacaq,
İncədən kəsilmiş tumurcuqlartək
Bir də göyərməyə o can atacaq...

***

Zalım arzulardan əl çəkməliyəm,
Ruhum kainattək böyük olmalı...
Nur əsirgəməyən günəş misalı –
Qəlbimi qəlblərə həsr etməliyəm...

***

Bir gün bu dünyanın sonu gələcək,
Xatəmə yalvarar səma – mütləqdir...
Zərrə yaxşılığa mükafat varkən,
Zərrə pisliyə də cəza mütləqdir...

***

Yaşları calayır yaşıma həyat,
Hey ağ boya sürtür saçıma həyat.
Anam var, qorxmaram, neynək, büsbütün
Qəmini yollasa başıma həyat...

***

Aşiq yanarmıdı, fəraq olmasa,
Məqsədsiz üsyandan iraq olmasa.
Zülmətdə səmtini necə tapsın o,
Yoluna nur saçan çıraq olmasa?..

***

Kimsə gər sevməzsə, məhbub edə bilməz,
Əməlini misqalca mərğub* edə bilməz.
Müzəffər eyləsə bir şəxsi Xuda özü,
Heç zaman kimsə onu məğlub edə bilməz.

---

** – mərğub – burada: bəyənilən, istənilən, sevilən*

# DƏLİ



Maya İMRAN

Həmişəki kimi işə vaxtında çata bilməmişdim. Pilləkənləri iki-iki qalxıb, liftin qarşısında dayandım. Gözləməyə səbrim çatmadı, üçüncü mərtəbəyə pilləkənlə qalxası oldum. Təngnəfəs halda otağa girib, tələsik içəridəkilərlə salamlaşıb çəkiliş üçün hazırlıq görməyə başladım. Səkkiz ildir yanımdan ayırmadığım, içərisində rəssam müsahibdən tutmuş, millət vəkillərinə qədər əlaqə nömrələri qeyd edilmiş, çəkiliş saatları, qulağıma xoş gələn sitatlar, işləməyi düşündüyüm mövzular, təsirlənib anidən dilimin ucundan qələmimə süzülən cümlələr, daha bir jurnalistə aid nələr, nələr olan roman dəyərli dəftərim... Sanki illərdir mürəkkəbi bitməyən qələmim və jurnalist vəsiqəmi götürüb otağı tərk etdim... Nə zaman gələcəyimi, çəkilişin necə keçəcəyini təxmin belə edə bilmirdim, hətta ilk dəfə idi ki, mən müsahib üçün öncədən suallar tərtib etməmişdim. Cəhd etmişdim, amma alınmamışdı. Çox yaxşı iş ərsəyə gəlməli idi, amma bunu bacaracağıma əmin deyildim. Hər şeyi gedişata buraxmışdım.

Halbuki, bu mövzunu işləmək üçün inad etmiş, razılıq əldə etmək üçün əməlli-başlı əziyyət çəkmişdim. Ruhi əsəb dispanserinə kim bu qədər can atar ki?! Ağıllılarla işləmək bu qədər çətinkən, kim müsahibini ruhi xəstələr içərisindən seçər?! Bunu edəcəyimə özümə söz vermişdim. Aylarla baxışları gözümün qarşısından getməyən o qadın dəli ola bilməzdi... Onun yanıb kül olmuş gəncliyinə, bir anda boşluğa dirənən arzularına birlikdə qayıdacaqdıq. Özümü özümə bununla sübut etməli idim! Mikrofon üçün həsrət çəkən, istəsən, saatlarla danışa bilmək həvəsində olan yox, illərdir danışmayan, danışmaq istəməyən, ağıllıdan ağıllı olan dəli ilə müsahibə məni jurnalist kimi təsdiq edəcəkdi mənə! Ya edəcəkdi, ya da bacarmayacaqdım...

O gözəl baxışlı qadınla Novruz bayramı ərəfəsində, ruhi əsəb dispanserinin sakinləri üçün təşkil edilmiş bayram şənliyində rastlaşmışdıq. Qamətli, qısa, qara, gursaçlı, təxminin 45 yaşında qadın idi. Simasında ilk nəzərə çarpan gözləri idi- iri, qara, sıx kirpikli... Baxışları, cəlbedici gözləri, yerli-yerində təbəssümü onu ətrafındakılardan tamamilə fərqləndirirdi. O, dəli deyildi! Bu təbəssüm bu cəhənnəm qoxulu divarlar üçün çox idi... Heyif idi! Bu gözəllik günəşdən uzaqda qocalmamalı idi!

Sadəcə, gülümsəmişdi üzümə... “Bayramınız mübarək! Siz bu gün nə gözəl görünürsünüz!” – demişdim. O yenə, sadəcə, gülümsəmişdi. Donuq deyildi baxışları. Sanki üçüncü cümləni desəydim, o gülər baxışlar nəmli gözlərə çevriləcəkdi. Gülüşü qəhərə söykənmiş, ağlamağa hazır uşaq saflığı vardı üzündə. Təşəkkürünü baxışlarından almışdım deyə, dialoqu uzatmamışdım.

– Siz Allah, çox danışdırmayın, bu dəqiqə yenə ağlayacaq, – dedi tibb bacısı.

– Niyə? Kim dəyib onun xətrinə?

– Burda onun xətrinə kim dəyəcək ki (istehza ilə)?! Elə xətrinə dəyən bərk dəyib

deyə, bütün əsəb sistemi alt-üst olub, əlac bircə ona qalıb ki, gətirib atsınlar bura...

"Gətirib atsınlar bura" sözlərini elə kobudluqla vurğuladı ki, elə bil əllərini ağzının kənarlarına tutaraq qəsdən ürəyimə qışqırdı. Baxışlarımı qadının gözlərindən çəkə bilmirdim. Bu gözlərin sahibəsi danışmasa da, anlaşılırdı –qırılmışdı qəlbi.

Səs-küylü, musiqili bayram ab-havasında ünsiyyətimiz bu qədər qısa olmuşdu. Amma nə zamansa onun yanına təkrar gələcəyimə, onunla mütləq söhbət edəcəyimə aid söz vermişdim özümə.

Bu gün o sözü tutduğum gün idi. Maşının arxa qapısını ürəklə örtüb:

– "Getdik, Yaşar dayı", – dedim.

Yolumuz uzun idi. Xoşbəxtlikdən radioda ard-arda yaxşı mahnılar səsləndirirdilər. Yol boyu müsahibimə verəcəyim bütün sualları yazdım. Gözəl baxışlarından tutmuş, susqunluğu və bu arzuların qəbiristanlığına gəlişi səbəbinə qədər – hər şey barədə.

Psixiatriya xəstəxanasının, demək olar ki, bütün işçi heyəti məni tanıyırdı. Qapıda gülərüzlə qarşılayıb, gözləməyimizi xahiş etdilər. Sonra xoşsimalı bir xanım yaxınlaşıb dedi ki, müsahibim hələ özünü hazır hiss etmir.

"O özünü hazır hiss edənə qədər gözləyirik" – dedim.

Çəkiliş edəcəyimiz məkanı sakit, rahat, dialoq üçün hazır vəziyyətə gətirdik. Halımızdan məmnun şəkildə sakitcə oturub müsahibimizi gözləməyə başladıq.

45 dəqiqə keçdi...

O, otağın qapısını ehtiyatla aralayıb, ləng addımlarla bizə yaxınlaşdı – tam mərkəzdə dayandı. Təxminən beş dəqiqə yerindən tərpənmədi. Operatorla birlikdə ona baxır, niyəsə səsimizi çıxarmır, sanki ilk onun danışmasını gözləyirdik.

– Sizə də demədi mənim üçün darıxdığını?..

Otağın sükutunu müsahibimin məlahətli səsi pozdu...

– Yoxsa məndən söz almaq üçün sizi göndərib?

Gözlərində ümid qığılcımları parlayır, sanki "hə, o göndərib" cavabı üçün yalvarırdı...

Amma kimin barəsində danışdığını hələ ki başa düşmürdük.

– Mən Maya. Bəs siz?

Özümü ilk sualımı ünvanlamış hiss etdim.

– Gülzar.

O, "Gülüm" deyirdi.

Yenə tanımadığım "O" söhbətimizin mərkəzində idi.

Onun üçün kadra uyğun hazırlanmış xüsusi stulda əyləşdi. Arxayın oturuşu ilə "hə, bütün suallarınıza hazıram" demək istəyirdi elə bil.

– Niyə burdasız? – sorruşdum.

Buna necə cəsarət etdiyimi, yəqin ki, heç zaman bilməyəcəkdim. Əslində, bu sual danışacaqlarımızın açar cümləsi idi. Və mən onu özümdən biixtiyar söhbətin əvvəlində dilə gətirə bildim.

– Onsuz da o heç yerdə yoxdur. Nə fərqi var ki, mən hardayam?

Yenə "O"...

– O kimdir?

– O?.. Çətin olacaq bunu sizə başa salmaq..

– Siz necə istəsəniz, təsvir edə bilərsiz, mən anlayacam.

– Otaqda təkcə ikimiz qalsaq, deyə bilərəm.

Operatora otaqdan çıxmasını işarə etdim. Kadrı uyğun planda qurub, otağı tərk etdi.

– Həə, indi bizdən başqa heç kim yoxdur. Bəs indi necə, onun kim olduğunu mənə deyəcəksiniz?

– Gözümü yumanda üzünü gördüyüm, gözümü açanda darıxdığım yeganə adamdır o. Qocayam, həə? Baxın, saçlarım da ağarıb. Amma onu indi də görsəm, əllərim ilk günkü kimi əsəcək. Siz indiki boşboğazlara inanırsınız ki, sevgi yoxdur?! Doğrudan, inanırsınız onlara?! İnanmayın! Sevgi var! Sevgi mənəm! Sevgi məndəki Odur! Kim deyir, sevgi yoxdur?! Kim deyir, dəlilər sevə bilmir?! Ya, bəlkə, sevdiyinə görə dəli olur?! Sizcə, mən dəliyəm?! Niyə? Sevirəm deyə?! Qoy onda mən dəli olum! Hə, mən dəliyəm! Baxın, görürsünüzmü burda pəncərələr necə balaca olur! Elə bilirlər, böyük olsa, biz sındırarıq, qaçarıq burdan. Amma mənim heç yerə getmək fikrim yoxdur. Bu balaca pəncərədən günəşi görürəm, gecələr aya danışıram ondan, daha nəyimə lazım böyük pəncərə?! Özü də ki bu balaca pəncərədən o da məni görə bilir... Həə! Gəlir dayanır pəncərənin qarşısında,

arabir saçlarıma sığal da çəkir... Nə olsun ki, ağarıb, codlaşıb?! O məni belə də sevir... Lap ilk günkü kimi... O məni atıb getməz... Heç vaxt... Demişdi ki, qayıdacaq. Yalan deməz o. Qayıdacaq... İşlərini yoluna qoyan kimi...

Müsahibim son üç cümləsini eyni nöqtəyə baxaraq təkrar-tərkar üç dəfə söylədi... Getdikcə səsinin tonu azalır, sürəti ləngiyirdi. Sanki dediyi yalanlar özünü də yormuş, dili söyləməyə başqa, yeni, daha həqiqi sözlər axtarırdı. Cümlələri ləng söyləyərək, yeni yalanı uydurmağa vaxt qazanırdı elə bil... Mən dinməz-söyləməz dinləyir, onu buraya gətirən əsas səbəbi axtarmağa çalışırdım.

Gözəl gözlər dirəndiyi yerə dəqiqələrlə baxdı, ümidsizləşdi, qəddarlaşdı, ölü baxışlı oldu birdən-birə... Və qəflətən o, başını əlləri arasında sıxıb hönkürtü ilə ağlamağa başladı.

– Mən dəli deyiləm, mən yalançıyam! Mən yalançıyam! Amma təkcə özümü aldatmışam! Həmişə – keçmişdə də, bu gün də! Yalvardım ona! Ayaqlarına yıxılıb ağladım. Amma itələyib çıxdı qapıdan. Bilirsiniz mənə nə dedi?! Dedi ki, məni sevmir! Gözlərimə baxıb söylədiyi şeirləri oxudum ona, xatırlamadı... Şəninə şeirlər söylədiyi gözləri “daha görmək istəmirəm” dedi. Mən, sadəcə, yaşaya bilmək üçün özümü aldatdım. Özümə yalan söylədim ki, o gələcək, o məni hələ də sevir. Amma o, başqasını sevir. Bilmirəm bunu necə bacardı. Göz yaşımı öpən adam... məni ömürlük göz yaşı içərisində buraxdı... Mən onun gedişindən sonra dillərə dastan olan sevgimizi də onun xatirələrinə büküb ürəyimə basdırdım.

“Dəli” deyilən adam mənə ağıllı-ağıllı sevgini izah edirdi... Hıçqıraraq... İlk dəfə idi ki, mən təsəlli üçün də söz tapmırdım. Bir qadının, belə gözəl qadının sevgisizlikdən əzab çəkməsi ürəyimi dağlayırdı. Saçından dırnağına qədər Ona aidliyini hələ də göz bəbəyi kimi qoruyub saxlayırdı, mənası olmasa belə...

Doğrudanmı, sevənlər Məcnuna çevrilir? Sevginin gəlişi həmişəmi ağlın gedişidir?! Bir qadının səhvidirmi sevmək, yoxsa bacarığımı?! Hansı mərhələdən sonra sevmək təhlükəlidir?! Hansı halda sevmək dəli edir?!

O danışır, mənsə bu suallar ətrafında var-gəl edirdim... Bu gözəlliyin sahibi niyə sevilməsin ki?! Onu tənhalığa düçar edən nə olub?! O danışdıqca suallarım artırdı. Amma dilim söz tutmur, gözümdən axan yaşa hakim ola bilmirdim. Qırx beş dəqiqəyə yaxın olardı ki, o danışır, mən dinləyirdim. Günəş buludların arxasına keçmiş, hava qaranlıqlaşmağa hazırlaşırdı.

– Övladlarım üçün çox darıxıram. Amma onları çox incitdim, onları mənə görə utandırdım. Ona görə istəmirəm görüşmək. Çox şanssızdırlar mənim kimi anaları olduğuna görə. Ağıllı balalarım...

– Övladlarınız var? Neçə dənə? Heç soruşmamışdım... Mən elə bildim...

Hə... İki oğlum... İki yaraşıqlı oğlum var. Amma belə yaxşıdı – məndən uzaq yaşamaqları... Mənə görə utanmasınlar. Mənə görə sevgiyə nifrət etməsinlər. Danışdıqlarımı heç kimə deməyin. Bunu sizdən xahiş edirəm. Qoy hər kəs məni dəli bilsin. Onda ölümüm də heç kimi incitməz, məni itirmiş yox, məndən canlarını qurtarmış sayarlar özlərini. Yaxşı? Sizdən xahiş edirəm. Mən, sadəcə, sizinlə dərdləşdim.

Çəkilişi yekunlaşdıranda hava qaralmaq üzrə idi. İlk dəfə idi ki, buna görə heç narahat deyildim. Məni sevindirən başqa səbəb idi – onunla uzun-uzadı həmsöhbət ola bilən yeganə insan idim. O ilk dəfə mənimlə belə dərdləşmişdi – dərindən, olduğu kimi. Bu dəfə danışmağı seçmişdi. Bəlkə də, bu günə qədər onu dinləmək istəyən yeganə insana rast gəldiyi üçün. Baxdıqca ürəyim parçalanırdı: Bir ağıllı, hətta çox ağıllı adam dəlilərin içində yoxa çıxmaq üzrə idi. Bilmirəm, bəlkə də, belə “dəlilər” çox idi ümidin intihar etdiyi bu məkanda?!

Arabir sözarası “heç kimə deməyin” söyləməsi isə insanlığa ölmüş inamının ən parlaq sübutu idi. “Deməyəcəm, heç kimə” deyərək bu inamsızlığın toz-torpağını təmizləyirdim sanki. Amma hər şey üçün gec idi artıq... O, həyatdan qurtulmaq üçün çıxış yolu axtarırdı. Və onu bu fikirdən daşındıra biləcək gücdə qüvvə yox idi. Çünki onu ölümə sövq edən elə o qüvvənin özü idi.

Operator kameranın avadanlıqlarını yığır, mən pəncərədən çölə baxırdım. Fikirlərim çox qarışıq, hisslərim havanın rəngi kimi boz idi. Eşitdiklərimdən çox təsirlənmiş olsam

da, beynimin bir küncündə arabir özümü qınamamış da deyildim. Sevən, sevgidən parlayan yaşımda belə bir müsahiblə söhbətim bundan sonra sevgi ilə bağlı bütün düşüncələrimə köklü surətdə təsir edəcəkdi... Gülzar xanım – sevgisindən “dəli” olan, həyatını roman kimi sevgisinə qurban edib, günəşini dəlixananın bumboz divarlarına, evini dar, bəyaz, bomboş dəlixana otağına dəyişən sevgi qadını və mənim heç zaman unutmayacağım müsahibim...

Uzun yol boyu bir kəlimə də danışmadım. Danışa bilmədim. Qadının gözləri ağlımdan çıxmırdı. Onu sevgi dünyasına qaytarmaq üçün çox aciz idim. Bir qadın sevgisizlik uçurumunun kənarında dayanıb, aşağı yuvarlanmaq üçün saniyələri sayırdı. Mənsə onun qolundan tutub geriyə dartmaq əvəzinə, onu bu yerə gətirən səbəbləri araşdırırdım sanki. Hazırki mənzərə təxmini olaraq kənardan belə görünürdü. Çox aciz idim. Bir qadın sevgisizlikdən ölürdü... Bir qadın üz çevirmişdi günəşdən... Ömürlük!

Bakının daha bir axşamı – bol işıqlı, səs-küylü, bir qədər də laqeyd və soyuqqanlı. Hər kəs harasa tələsir... Şirkətin həyətinə daxil olan kimi operatora bugünkü çəkiliş üçün təşəkkür edib, pilləkənləri sürətlə qalxıb iş otağına daxil oldum. Hər kəsin kompüteri sönülü, stolu boş idi. Gün ərzindəki səs-küylü, qarmaqarışıq halından fərqli olaraq, indi otaq sakit və səliqəli görünürdü. Əyləşdim, bir xeyli fikirləşdim, bu günün ağırlığı düşüncələrimi dondurmuş, qəlibləşmiş fikirlərimi alt-üst etmişdi. Dərindən nəfəs alıb günün bitməyinə xəlvətcə sevindim.

Adətən, xüsusi diqqət və zövq tələb edən süjetləri onun bacarığına həvalə edirdim. Kadrları hisslərə uyğun dəyişməyi bacarırdı. Cümlələr onun kadrlarında canlanır, daha təsirli olurdu. Özü sakit, işi həmişə, sözün yaxşı mənasında, səs-küylü olurdu. Ünvanına gələn çoxsaylı təriflər də soyuq və möhkəm xarakterini laxlatmır, əksinə, mülayimləşdirirdi.

Səhər iş başlayanda ilk onun yanına gəldim. Dünənki çəkilişi anbaan ona danışdım: maraqlı müsahibimdən, məcburən yekunlaşdırdığım roman kimi mövzumdan, ağıllı “dəli”mdən, məni heyrətləndirən bu həyat hekayəsindən, cavabsız eşqdən, sevgisizliyin soldurduğu eşq qadınından danışdım... Arabir səsim əsdi, dilim söz tutmadı. “Deyəsən, sənə əməlli-başlı təsir edib bu qadın. Dərindən qəbul etmə, həyatdı da...” deyə, məni dünənin təsirindən çıxarmağa çalışdı. Mən isə cavabında:

– Hə, ən yaxşısı, mən danışmaqla vaxtı hədər etməyim, bu gün, onsuzda, işimiz çoxdur.

– Təki iş olsun. Amma elə iş olsun ki, nəticə xoşumuza gəlsin.

– Gələcək. Sevgidəndi çünki. Daha doğrusu, sevgisizlikdən. Dəhşətli süjet olacaq. Hələ çəkilişdən hiss eləmişdim.

– Bunun nəyi xoşagələn oldu ki?

– Təsirlidir. Başa sala bilmirəm e, necədir! Çox təsirli mövzu, qeyri-adi müsahib. Mən bu vaxta qədər belə mövzu işləməmişdim.

– Görək də. Kadrlar köçürülsün, başlayaq.

Kadrların köçürüləcəyi müddəti 35 dəqiqə göstərirdi. Az qala saniyə sayırdım...

Adəti üzrə, siqarət çəkib otağa qalxdı. Kompüterin arxasında əyləşib astadan:

– Hə, başlayaq, görək nə çəkmisiniz?

Birinci videonu açdı və səssizcə seyr etdi. Mən də heç nə demədən reaksiyasını gözləyirdim. Video bitdi, amma o bir kəlimə də söyləmədi. Çevrilib üzünə baxdım. Rəngi ağarmış, gözləri eyni nöqtəyə zillənmişdi.

– Fərhad, yaxşısan?

Cavab vermədi. Halı heç yaxşı görünmürdü. Yanağından bir cüt yaş süzüldü. Nə baş verdiyini anlamırdım.

– Özün mənə deyirdin ki, dərindən qəbul etməyim. Bəs özün niyə baxan kimi təsirləndin?

Dinməzcə dayanmışdı. Baxışları mənasızlaşır, rəngi ağarır, gözləri sanki çökəyə düşürdü getdikcə...

– Sənə su gətirim? Yaxşısan?

Cavab vermir, deyəsən, heç eşitmirdi dediklərimi. Videonu yarıda kəsdi:

– Bunun montajını mən etməsəm, olar? Mən edə bilməyəcəm. Xahiş edirəm, incimə məndən. Amma səbəbini də soruşma.

Stoldan qalxdı, otağı tərk etdi. Onu heç belə görməmişdim. Həmişə işin yaxşı alınması üçün bacardığından artığını etməyə çalışan birini indi buna məcbur edən nə idi? Özü də bu çəkilişə necə ürəklə yanaşdığımı hər kəsdən

çox ona danışmışdım. Müsahibimə necə acıdığımı təkcə ona söyləmişdim. Bu süjetə çox həssas yanaşdığımı bildiyi halda, imtina etməsi üçün çox tutarlı səbəb olmalı idi. Bəlkə də, vardı...

Süjet efirdə yayımlandı. Montajını istədiyim kimi ərsəyə gətirə bilməmişdik. Televiziya işçiləri bilir ki, süjetin yaxşı hazırlanması jurnalistin qələmindən asılı olduğu qədər də montajçının zövqündən asılıdı. Bu baxımdan mövzunu istədiyim kimi işıqlandırmış saymadım özümü. Bununla belə, şirkətdə hər kəs, izləyən hər bir tamaşaçı təəssüratlarını müxtəlif yollarla bildirir, verilişin nömrəsinə tanımadığım insanlardan zənglər gəlir, kimisi qadına kömək etmək istəyir, kimisi də, sadəcə, belə taleləri işıqlandırdığımız üçün təşəkkür edirdi.



Təxminən iki ay keçdi...

Mütəmadi olaraq qadının müalicə aldığı dispanserlə əlaqə saxlayır, səhhətini soruşur, ehtiyacları ilə maraqlanırdım. İşə çatan kimi telefonuma gələn ilk zəng, gündə ən azı bir dəfə yığdığım həmin nömrədən oldu. Tələşlı bir səs salamladı məni:

– Maya xanım, bağışlayın sizi narahat edirəm. Amma bu qadınla ailəsindən çox siz maraqlanırsınız deyə, elə bu xəbəri də sizə vemrək istədim, xoş xəbər olmasa da. Bəlkə də, onun üçün ən yaxşısı bu idi...

– Salamatlıqdı?

– Gülzar xanım rəhmətə getdi. Elə bu səhər...

– Nə?! Necə?! Necə yəni rəhmətə getdi?! Onun... Onun ruhu xəstələnmişdi, ruhlar isə ölmür... Sağlamlığında onu öldürəcək problemi nə idi ki?!

– Görünür, ürəyi partlayıb. Müşahidə kameralarına baxdıq. Oturduğu stuldan yerə yıxılır, biz təxminən iki dəqiqə sonra otağa daxil olanda o artıq dünyasını dəyişmişdi.

Nitqim qurumuşdu. Mən ona kömək edə bilmədim...

Tələsik hazırlaşıb işə gəldim. Fərhada onun sevmədiyi müsahibimin ölüm xəbərini demək üçün ilk onun otağına daxil oldum. Stolu boş, kompüteri sönülü idi. Yəqin, hələ işə gəlməmişdi.

Həmin gün heç kim ondan xəbər ala bilmədi. İki gün telefonuna zəng çatmadı. Heç kim onun bu hərəkətinə əsəbiləşmir, əksinə, onun qədər məsuliyyətli birinin birdən-birə yoxa çıxmasına görə hər kəs narahat olurdu.

Hər kəsdən çox mən...

Fərhadın anasının hüzrü üçün yollandığımız uzun yolun sonunda məni, beynimə sığdıra bilmədiyim mənzərə qarşıladı: solğun rəngli, dərddən bükülmüş və söyləməyə sözü tükənmiş Fərhad bizi yas çadırının qarşısında qarşılayır, diqqətimiz üçün təşəkkür edir, çadırın lap başından asılmış, qırmızı-qara lentli portretdən isə gözəl gözlü müsahibim mənə baxıb gülümsəyirdi...



Fuad NOVRUZLU

*Rus dilinin və müəyyən qədər mədəniyyətinin daşıyıcısı olduğumu qəbul edərək, ‘‘Rus mədəni-tarixi fenomeni’’ mövzusunda eksperimental nəzm*

## QAR-QAN VƏ DİGƏR SƏBƏB-NƏTİCƏ ZƏNCİRLƏRİ

Cinayət və... nə?
Hərb və... nə?
Atalar və... oğullar? Bəlkə, atalıq hüququnu
özlərinə deyil, yalnız Tanrıya məqbul bilən
monastır rahibləri?
Qar və qan!
Düzdür, Tanrı oğlunu çarmıxdan xilas etmədi,
amma nə İvan Qroznı, nə Stalin öz əkdiyinin
səbəb-nəticə buxovları ilə bacardı.

Qadın cinsindən olan nəhəng, ikibaşlı
qartalabənzər varlığın səbəb-nəticə
caynaqları ilə bir-birinə kip tutduğu:
Sosial-mədəni, sosial-siyasi, azad-məhkum,
haqq-nahaq, varlı-kasıb qütbləri.
Qütblərin dövrbaşı təlatümü,
ədalət ilahəsi Femidanın
növbəti qaynar, ruhi munaqişəsini
Sibir şaxtalarına etibar etməsi.
Qeyri-ixtiyarı səbəb-nəticə zəncirlərinin
dondurulmuş münaqişəsi.

Faciəvi statistik göstəricilərin göyərmiş
dodaqlarının Sibirdən cənuba üfürdüyü:
Uzaq həyat və yaxın lənət,
ılıq nəfəsli cənnət və həmişəyaşıl ruhları
donduran cəhənnəm.

İkonik mütəfəkkirlərin mərkəzi dilemması-
Cinayət və...cəza?
Hərb və...sülh?
Atalar və...oğullar?
Qeyri-rasionallıq və...rasionallıq!
Səbəb və nəticə!
Qan və qar!

Yaxud inanc, ənənə və nağıllarımıza rəğmən,
qartalın hansı başını birinci yemləyəcəyimizin
fərqi yoxdur?
Bəlkə, həqiqətən, toplananların yerini
dəyişəndə
cəm dəyişmir?

## ƏN UCUZ TAC VƏ YA POSTMODERN MƏİŞƏTİMİZ BARƏDƏ FİKİR AXINI

Cahil şəhadət barmağının açıq sınığı,
Haqsız  ictimai qınağın narkozsuz yarılmış üst
qabığı.
Növbəti ayaqaltı quyunun çirkli, qoxumuş
fontanı.
Alqı-satqı məcəllələrinin qara qəpiklik
müddəaları.
Nadanlığın əyninə biçilmiş qondarma fərasət.
Səmavi instansiyaya ödənmiş N rükət-rüşvət.
Sonsuz müharibə qədər faciəvi bəraət.
Dünənin qəhrəmanlarının solmuş şəkilləri.
Cılız şəxsiyyətlərin nəhəng çatışmazlıq
kompleksləri.
Orta əsrlərin kölgəsindəki müasirlik.
Qıcıqlandıran avazla oxunan Quran.
İlahiləşdirilmiş əhəmiyyətsizlik xatirəsinə
ucaldılmış mənəvi bütlər.
Poçtalyonu döyülmüş boş poçt qutusu.

## XÜSUSİ TƏYİNAT

Ailə, az-çox gənclik, aztəminatlı xatirələr.
Arzular, çoxtəyinatlı ümidlər.
Kütləvi ritual gecəsinə düşən bürc.
Yaşayış yeri və olduğu yer üzrə qeydiyyatlı
borc.
Ünvansız asosial yardım.
Şəkilsiz şəxsiyyət təsdiqi.
Qeyri-konstruktiv mövqe.
"N" saylı şüşə qəsr, doğma qeyri-normativ
leksika və etibarlı dəmir qübbə.
Hədəf təyinatının avtomatlaşması.
Ulduzun radara görünmə sahəsi.
Radardan ulduza olan məsafə.
Nifrət, qisas və ədalətin dərhal, tərəddüdsüz,
ürəyəyaxın, başadüşülən icrası.
Tanrı boyda boşluğun 7.62 mm-lik tıxacları.
Neytral ərazilərin özünüifadəsi.
Adsız yüksəkliyin şəxsiyyət pozuntusu.
Müəyyən dairələrin məhvetmə radiusu.
Fədakar dəyişkəntəcilli yardım,
Qanköçürmə institutunun qan bankı.
Adambaşına düşən 1.5 barrel Azeri Light.
Oğul dalıyca atılan suyun dama-dama dəniz
olması.
Dənizi dünya okeanına bağlayan keçidlərin
süniliyi,
Qırx damcı korvalol.

## GÖY DƏVƏLƏR

İlk addımladığımda
Növbəti addımı düşündüyüm yadıma gəlmir.
Anam istiqamətimi bilirdi,
Bilirdi ki, büdrəyəndə hara yıxılacam,
Bilirdi ki, yenə ayağa qalxacam,
Titrəyən əllərimlə tarazlığı tapacam.

Qaranlıq anlarımda axsamağa başladığım
axşamlar yadıma düşür,
Gözlərim şəfəqli səhərlərdə qaçdığım yolu
çəkir, dodaqlarım büzüşür.
Yol yoldaşları özümdən əvvəl üstümə hopmuş
qoxu ilə görüşür,
Anlayırlar ki, göy dəvələr bu axsaqla təmkin
və iradələrini bölüşür.

Ciyərlərim təkrəngliyi göy dəvələrə qurban
verməli olur.
Titrək əl sakitlik ümidini sabit əlin üstünə
yazaraq hər ikisini yorur,
inanmaq istəyir ki, içdə yığışan qaranlıq
təzahürünü tapanda ruhu cəhənnəm
əzabından qoruyur.
Tüstüdən qamaşan sol göz həmin ümidi
şeytanın korluğuna aldanıb onunçün ucadan
oxuyur.
Bir də görür ki, şeytan özü göz yaşlarında
boğulur.
Köhnə alman nağılındakı tacir təzə aldığı
məhsulu tərəziyə qoyur,
gah sol gözün, gah sağ gözün ağır gəldiyinə
heyrətlənib aldandığını duyur.
Göy dəvələr hiss edir ki, sarvanın cəhənnəmi
müvəqqəti soyuyur.

Sonrakı addımlarımı atanda
əvvəlki addımlarımı düşünmədiyim yadıma
gəlmir.
Göy dəvələr anamdan çəkinir,
hiss edirlər ki, o bilir, axsaq büdrəyəndə hara
yıxılacaq.
Bilir ki, bir səhər axsaq qaçacaq,
titrək əlləri ilə tarazlığı tapacaq.



# BALACANIN MÖCÜZƏSİ



Zəhra NAMAZLI

"Allahdan ümid kəsilməz", – deyib atalar. Doğrudan da, bu kimi kəlamların həyatda öz təsdiqini tapması üçün vaxta və zamana ehtiyac varmış... Dərdi verən Allah dərmanını da verər....

...Uzaq qəsəbələrin birində kasıb bir ailə yaşayırdı. Ailə min bir əziyyətlə bir balaca ev tikmişdi. Bu evdə iki uşaq böyüyürdü, 8 yaşlı Nihan və 10 yaşlı Nahid... Yaşadıqları çətinliklər azmış kimi, həyat bu ailəni ağır bir sınağa da çəkməkdədi; evin böyük uşağı Nahid ağır xəstəydi. Xəstəlik Nahidi günü-gündən üzürdü. Uşağın xəstəliyinin ağırlaşması ailəni çıxılmaz vəziyyətə salmışdı. Onu sağaltmaq üçün valideynləri əllərindən gələni etsələr də, bir xeyri olmamışdı. Balaca oğlan yalnız bahalı əməliyyatdan sonra şəfa tapa bilərdi. Amma onların bu əməliyyatı qarşılayacaq qədər pulları yox idi.

Nahidin bacısı Nihan isə kiçik olmasına baxmayaraq, ümidini üzmür, ata-anasının nəsə edəcəyinə ümid bəsləyirdi.

Qızcığaz bir dəfə atasının ümidsiz halda anasına: "Nahidi yalnız bir möcüzə sağalda bilər", – dediyini eşitdi. Nihan bu sözləri eşidən kimi öz otağına çəkildi, pul yığdığı qutunu gizlətdiyi yerdən çıxarıb saymağa başladı. Əmin olmaq üçün üç dəfə saydı: cəmi 32 manat 65 qəpik idi...

Qəpik və kağız pulları cibinə töküb yaxınlıqdakı aptekə getdi. Aptek satıcısının diqqətini cəlb etmək üçün səbirlə gözləməyə başladı. Satıcı məşğul idi, bir qadına dərmanların istifadə qaydalarını başa salırdı. O, qızcığazla maraqlanmaq istəyi olmasa da, könülsüz soruşdu:

– Sənə nə lazımdır?

Satıcı qızcığazın susduğunu görüb hirsləndi:

– Bir az cəld ol, balaca. Görürsən ki, başqa müştərilər də var, onları da yola salmalıyam, – deyib, əliylə vitrinin qarşısındakı səliqəli geyimli nurani kişini göstərdi.

Nihanın dili topuq vurdu, özünü toparlayıb dedi:

– Qardaşım ağır xəstədi, onu sağaltmaq üçün möcüzə almalıyam.

Satıcı təəccübləndi:

– Nə? Möcüzə?

– Hə, hə... Möcüzə... Atam dedi ki, qardaşımı yalnız möcüzə sağalda bilər.

Ciddi görkəmli satıcının ürəyi yumşaldı, səsi titrədi:

– Heyif ki, biz möcüzə satmırıq, balaca, – dedi.

Nihan təkid elədi:

– Neçəyə olsa, alaram. Siz qiymətini deyin.

Elə bu zaman vitrinin qarşısında gözləyən səliqəli geyimli nurani kişi gülümsəyib soruşdu:

– Sənin qardaşına necə bir möcüzə lazımdı?

– Bilmirəm... Təkcə onu bilirəm, ki, qardaşım xəstədir və atam: "Əməliyyat olunmazsa, sağalmaz", – dedi. – Bizim isə pulumuz yoxdur.

Səliqəli geyinmiş nurani adam qızcığazdan nə qədər pulu olduğunu soruşdu. "32 manat, 65 qəpik pulum var" – deyə cavab verdi Nihan.

Səliqəli geyinmiş nurani adam dedi:

– Kifayətdi... Sənin qardaşını sağaldacaq möcüzəni alacaq qədər pulun var, – Nihanın əlindən tutdu. – Amma bunu üçün əvvəlcə qardaşını görməliyəm. Xahiş etsəm, məni evinizə apara bilərsənmi?

Nihan sevincək razılşadı. Fəqət qızcığaz hələ bilmirdi ki, onun əllərindən tutan bu adam tanınmış həkim cərrahdır və qardaşını özü əməliyyat edəcəkdi.

...Bir neçə gündən sora Nahidi xəstəxanaya apardılar. Əməliyyat uğurlu keçdi və əməliyyat üçün heç bir ödəniş edilmədi. Ana sevincindən ağlayaraq: "Hələ də inana bilmirəm... Şükürlər olsun, İlahi, balamı mənə bağışladın. Bu əməliyyat bir möcüzə oldu!, – dedi. – Görəsən, əməliyyatın xərci nə qədər idi?.." Nihan gizlincə gülümsündü. Çünki o, bu möcüzənin neçəyə olduğunu bilirdi: 32 manat, 65 qəpik...



ƏDƏBİ FRAQMENTLƏR



Vaqif YUSİFLİ

# QAYIDIŞ

Düz qırx il öncə "Ulduz" jurnalında Sabirabadda yaşayan iki cavan şairə haqqında bir məqalə dərc etdirmişdim... O şairələrdən birinin adı Nisəbəyim, birinin də Nübar idi. Onların şeirləri məndə gələcəklərinə – sabahlarına inam oyatmışdı. Nisəbəyim bizim poeziyamızda bir kəşf idi desəm, bəlkə də, yanılmaram. 2018-ci ilə, yəni vəfatına qədər Yerə, Göyə, Tanrıya, Vaxta, Zamana, Təkliyə, Tənhalığa, Azadlığa, öz taleyinə şeirlər, poemalar həsr etdi, nəsrdə də istedadına güvənib iki roman qələmə aldı. Nübar isə.... illər boyu susdu, yəni mətbuatda görünmədi. Səbəbini bilmədim. O məqalədə nə yazmışdım Nübar haqqında: "Nübar Sabirabadın hansı bir kəndindəsə tənha ürəyilə baş-başa verib şeir yazır".

Yaşamaqdan yorulmuşam,
(Yanmağından bezərmi şam?),
Yarasatək kor olmuşam
Bu dünyaya gəlməmişdən.

Qəmim ayıq, sevincim dəm,
Üstüm quru, içərim nəm,
Ağlamağa öyrənmişəm
Heç bir dəfə gülməmişdən.

Bu həyata gələn gündən
Yük çox olub kürəyimdə,
Basdırmışam ürəyimdə
Öz-özümü ölməmişdən.

Nübarın digər şeirlərinə də nəzər yetirirəm: bəxtin korşalmağı, dolan ürəyin az qala partlamaq dərəcəsinə gəlməsi, həmin o ürəyin adicə naqəfil sözdən qırıla biləcəyi, gözlərin giləsini yaşıl mamır kimi tutması... daha nələr... təsəvvür edək ki, 25-30 il əvvəl yazılsaydı, bu misraların müəllifi, heç şübhəsiz, ironiya hədəfinə çevrilərdi, onun "ağlar" misraları sosializm, realizm təbliğçisinin xoşuna gəlməzdi. Ancaq indi başqa zamandır: şairin misralarının beləcə ağrıya bələnməsi heç kimə qəribə gəlmir... Nübar bir şeirində dünyaya müraciətlə deyir: "Mən ki yükün ağırlığını səninlə bahəm çəkirəm". Amma nə gizlədim, onun şeirlərində dünyanın ağır dərdlərinin yükü hiss olunmur. Sadəcə olaraq, bir həssas qəlbli insanın zamanın bu gərginliyinə tablaşmaması, dərdlərə sinə gərə bilməməsi duyulur:

Yaşayıram sakit, aram,
Dünya bilmir, yoxam, varam.
Nə getməyi bacarıram,
Nə qalmağa üzüm gəlir.

Yox, Nübar xanım, mən istəməzdim bu məqsədsiz, ancaq ötəri ruh düşkünlüyünü həyatınızın, ömrünüzün məramı kimi bəyan edəsiniz. Ölüm fikrini, ölə bilmək ehtimalını unudun. Mən istəməzdim dərdin, ağrının sonu o müdhiş ölümün gəlməsinə gedib çıxsın. Axı Nübar öz misralarını da unutmamalıdır:

Nələr varmış gör dünyada,
Nə çox imiş sirr dünyada.

İlham adlı bu dünyada
Bir quruca adam hələ.

Deyirəm ki, Nübar "quruca ad" deyil, müasir poeziyamızın təptəzə kiçik cığırıdır, bu cığır, ola bilsin, on ildən sonra daha da böyüsün, artıq magistral yola çıxsın. Mən buna inanıram!..

Amma Nübar uzun illər o kiçicik cığırlardan irəliyə, geniş cığırlara çıxmaq istəmədi. Sadəcə susdu.

Bəs bu ilk sevgilər təzədən doğula bilərmi? İlk sevgi unudulmur və ürəyin daimi sakininə çevrilir. Şairlik də elədir. Ürəyində istedad və ilham damarları varsa, bir müddət susub heç nə yazmasan da... günlərin bir günü – şair kimi ağrıların başlayacaq.

Nübar "Ulduz" jurnalında (iyul-2021) "özüylə söhbət"də deyir: "Qayıdışım uzun çəkdi. Deyim ki, tamam şeiri atdım, yox, o məni atmadı. Neçə il mən şeirlərimi mahnı kimi oxumuşam. 2020-ci ildə isə daha bu sevdaya qarşı gələ bilmədim. Hər şey kimi, şeir də çox dəyişib, içimdə bir əndişə var, əcaba, məni təzədən qəbul edəcəksinizmi? Dediklərim demək istəmədiklərim kimi".

Qayıdışdan sonrakı Nübarın "Kredo" və "525-ci qəzet"də, həm də "Ulduz"da dərc edilən şeirlərini oxumağa başladım.

Nübarın şairliyinə zərrə qədər toz qonmayıb. İstedad və ilham yerində. Amma bir kəpənək çiçəkdən-çiçəyə qonduğu və hər çiçəkdən bir ətir, bir rahiyə duyduğu kimi, Nübar da yeni mərhələyə qədəm qoyub. Amma kəpənəyinki bir anlıq olur, Nübarınkı isə otuz il çəkdi. Bu otuz ildə "qismətində şairlik" var imiş ki... Artıq 90-cı illərin o kədərli sıxıntılarından, könül dərdlərindən əsər-əlamət yox...

Hiss olunur ki, Nübar fikrən dəyişib. Hətta 90-cı illərin əvvəllərində yazdığı "ağlamalı" şeirlərin mövzusuna qayıdanda da ağlamır, münasibət başqalaşır:

Ağlamaq yaxşı şeydir,
Yaxşı şeydir ağlamaq.
Göz yaşı ilə günahkar olduğunu
Etiraf edib qara günahlarını ağlamaq!
Gəl ölüb getmiş əzizləri xatırlayaq,
Hələ ki sən sağ, mən sağ,
Qara-qara ağlayaq...
Tövbə edək son anda,
Qara torpağa
Gedə-gedə ağlayaq!
Ağlamaq – kədərin inqilabıdır!
Göz – gedən yaşların
Qalan əzabıdır...

Nübarın "Kredo"da "Hey gidi dünya..." başlığı altında şeirləri dərc edilib və məncə, bu ad da təsadüfi seçilməyib – dünyanın faniliyi, insanın dünya ilə həsb-halı... bütün bunlar məlum... Amma dünya – bu kainat, bu yer, bu göy, bu günəş hər gün bütün olmuşlarla və olacaqlarla sənin içindədir... Qəhrəmanlar – şəhidlər bizim içimizdə olduğu kimi...

Bir ana quzusu, ata oğludu,
Şəhidin yerində bitən – oğludur!
Alnında yazısı, Vətən oğludur,
Qəhrəmanlar bizim içimizdədir!

Bəzisinin özü, üzü yadımda,
Bəzisinin söhbəti, sözü yadımda.
Nadirdir, Nicatdır, Fərhad adında
Qəhrəmanlar bizim içimizdədir.

Nübarın şeirlərində düşüncə arealı genişdi. "Bir gün qəbiristanı ziyarət etdim" və burada – bu ziyarətdə nələr görür? "Sanki toy yeridir gül-çiçəkli, qohumlar, tanışlar, dostlar toplaşıb..." Və sonra: ərəbcə "danışır" müsəlman ruhlar – molla bəxşişini alır, "tərcümə" edir, savab bizə, dua o güngörməzə, "ziyarət"in bu şəkildə müşahidəsi (əvvəlinci iki bənddə) "hey gidi dünya" – düşüncəsində pilləvari keçidlə ironiyadan dramatik ciddiliyə adlayır:

Ölülər şəhəri deyib keçmə sən,
Qəbrin də ölüsü, dirisi vardı.
Baxma başdaşına, hər qəbrin ömrü
Sevən sonuncunun ömrü qədərdir!

Müəllif "Hey gidi dünya" – əsrin xaosu, gerçəkliyimizin min fəsadı, pisliyin, şərin, pandemiyanın əsarəti çoxmu çəkəcək? – deyə soruşur. Niyə bütün yollar ayrılığa doğru,

niyə bütün sevgililər "niyə"lərə tuş gəlir? "Ol"la olmamağın fərqi yoxdusa, artıq suallar da bezdirir bizi. Nəyinsə yaxşı, nəyinsə pis olduğunu dərk etməyə çalışırıq.

Qayğılardan olmur daha yaşamaq,
Ötən ildən  gələn ilə daşınmaq,
Yaxşı etmir bizi yaxşı düşünmək,
Kəmşirin çay saxta baldan yaxşıdır.

Qır qaynayır, atın bizi, hazırıq,
Gəl, ay Dədə, iynəylə gor qazırıq,
Sol dərd çəkir, sağımızla yazırıq,
Sağ əlimiz guya soldan yaxşıdı?

Nübarın düşüncələri rasional ab-havaya köklənib, amma, təbii ki, şeirdə rasionallıq emosionallıqla birləşməlidir, yoxsa şeir təkcə ağılın diktəsinə çevrilər. Yaxşı ki, Nübar bu vəhdətdən kənara çıxmır. Onun çox şeirlərindən ürəklə danışa bilərəm, xüsusilə "Mənim uşaqlığım"dan.

Bəli, Nübar şeirə qayıtdı, daha doğrusu, şeir ona qayıtdı. Arzum: Nübar şairlik cığırını önəmli bir Yola çevirsin. Çünki müasir poeziyada seçilmək və sevilmək şanslarına malikdir.

**P.S.** *Bu yaxınlarda Nübar Eldarqızının "Letargiya yuxusu" adlı ikinci şeirlər kitabı çapdan çıxıb.*
Qayıdış uğurlu oldu!



## SÜDDAŞ

Süd daşdı, hay... süd daşdı,
İsti vurdu, süd daşdı.
Südə ki düyü qatdın,
O, süd deyil, süddaşdı...

## QIŞ

Mənzərəyə baxın, ey...
Hər tərəfi qar basıb.
Şəlalələr sallanıb,
Qayanı dağdan asıb.

Kirşə sürən uşaqlar
Arı kimi qaynaşır.
Lopa-lopa gələn qar
Uşaqlarla oynaşır.

Bacalardan burulan
Tüstü göyə dırmaşır.
Külək yoldan gəlibdi,
Ağaclara sarmaşır.

## BABAMIN NƏNƏSİ

Yaşı yüzü haqlayıb
Babamın nənəsinin.
Çoxalıb qırışları
Alnının, çənəsinin.

Danışanda tarixi
Bittə-bittə danışır,
Qızları cağıranda
Dünya-aləm qarışır.

Güllüyə  Anaş deyir,
Cavidə Balaş deyir.
Otuz beş nəvəsi var,
Adların çaş-baş deyir.

Nənəm hirslənə bilmir,
Sözünü yumşaq deyir.
O, mənim babama da
Ədə, ay uşaq, deyir.



# Zahid AFŞAR ELOĞLU

## NƏNƏMƏ OXŞAYIRAM

Mənim adım Lalədi,
Qırmızıdan donum var.
Məhləmizdə mənimlə
Dostdu bütün uşaqlar.
Oynayıram, gülürəm,
Hər nə desən, bilirəm.
10-a kimi sayıram,
Hətta yuxa yayıram.
Hamı mənə deyir ki,
Nənəmə oxşayıram...

## GÜLNAR

Nənəm mənə ad qoyub –
Ən gözəl addı: – Gülnar.
Bağçamızın  içində
Mən həm güləm, həm də nar.

## QARANQUŞ

Qaranquş, ay qaranquş,
Sevimli, mehriban quş,
Sən gələndə yaz gəlir,
Nəğmə gəlir, saz gəlir,

Bağ-bağata bərəkət,
Bülbülə avaz gəlir.

## GÜLBƏNİZ

Gülbənizəm, Gülbəniz,
Həm günəşəm, həm dəniz.
Saçlarım sarı sünbül,
Özüm şeyda bülbüləm.
Məgər bilməyirsiniz?
– Cənnətdən gəlmiş güləm.
Allı-ballı çiçəyəm,
Lap hamıdan göyçəyəm!
Sözlüyəm, nağıllıyam,
Duzluyam, ağıllıyam.
Bax beləcə bir qızam.
Nənəm, babam deyir ki,
Göydən düşmüş ulduzam.

## ALMALARI SAYIRAM

Nənəm nağıl danışır –
Dadlı, duzlu, məzəli.
Oğlanlar – cəsur, qoçaq,
Qızlar – dünya gözəli.
Divlər – qanmaz, heyvərə,
Atlar, itlər ağıllı.
Gecələr belə keçir –
Şirin-şəkər nağıllı.
Uşaqlar bircə-bircə
Şirin yuxuya çatır.
Şirin yuxu içində
Qızılgüllərə batır.
Nənəm nağıl danışır-
Mən hələ yatmayıram.
Göydən almalar düşür,
Almaları sayıram...

## SÖZ

Ay göyçək Fatma,
Sözü uzatma,
Sözə daş atma.
Sözü əzizlə,
Sözü sığalla
Dərin kamalla.
Söz də doğulur,
Söz də yığılır,
Yersiz olanda
Fikir dağılır...

## AYDAN

Dəcəldən ağıllıdır
Bizim ay üzlü Aydan.
O öz gözəlliyini
Gündüz günəşdən alır,
Gecə ulduzdan, aydan.

## HEYVANLAR ALƏMİNDƏ

Dovşan qorxaq,
Tülkü bic,
Çaqqal sarsaq,
Ayı gic.
Şir dəli,
Pələng hikkəli,
Tək bircə ilan qaldı,
Bir də onun əməli...

## ÇÖMÇƏQUYRUQ

Çömçə girdi qazana,
Dolandı, çıxdı.
Quyruq qərar yazana
Bulandı, çıxdı.
Çömçə də haqdı,
Quyruq da haqdı.
Çömçəquyruq olmaq
Günahdı...

## NƏNƏSİNİ ÇAĞIRDI

Əllərimi uzatdım,
Tutdum qar dənəsini.
Qar haraya çağırdı
Tez yağış nənəsini...

## MƏN SANAYA BİLİRƏM

Uşaqlar mənə deyir:
–Mən sanaya bilmirəm.
Atam, anam, bir də mən, –
Üç eləyir, – demirəm?!

## YAZDA

Günəş qarı əridir,
Selovlara yeridir.
Nərildəyir dərələr,
Uçur bəndlər, bərələr.
Ormanlara hay düşür,
Daş, qaya lay-lay düşür.

Çaylar coşur, çağlayır,
Yol-yolağı bağlayır.
Axır çöllərə sarı,
Göyərdir yamacları,
Göyərdir budaqları.
Axır, axır, incəlir,
Tarlalarda dincəlir.

## YELLƏNCƏK QURUB

Bülbül öz yuvasını
Budaqların içində,
Gör necə göyçək qurub.
Balaları istəyib
Bizim tut ağacını.
Anaları seçərək
Orda yelləncək qurub.

## OCAĞA CIZZ... – DEYİRLƏR

Bilirsiniz, – bacımın
gəlinciyi, kuklası,
sırğası, muncuğu var.
Bizim evdə bacıma –
ağıllı qız deyirlər.
Anam xörək bişirir,
Onu dada gətirən
Nemətə duz deyirlər.
Kirəmitdən sallanan
Daşa dönmüş sulara,
Görürəm, buz deyirlər.
Bircə onu bilmirəm,
Biz odla oynayanda
Bəs niyə cızz... deyirlər?..

## DÖRD BACI

Deyirlər, bir zamanlar
Dörd bacı yaşayırdı:
Biri Payız, biri Qış,
Biri Yaz, biri Yaydı.
Elə o vaxtdan bəri
Fəsillər də dörd paydı...

## BİLƏYƏN

Ay baba, mən bilirəm,
Göydə günəş – ocağı.
Soyuq olmasın deyə,
Allah baba qalayır.
Gecələr hamı yatır,
Yanğın olmasın deyə,
Günəşi ulduz-ulduz
Doğrayıb xırdalayır.

## KÖLGƏMLƏ ÖTÜŞÜRƏM

Hər gün eyni zamanda,
Hər gün eyni məkanda
Kölgəmlə ötüşürəm.
Günbatana qaçanda
kölgəm irəli düşür,
Gündoğana qaçanda
Mən irəli düşürəm...



*"Ulduz" jurnalı ilə*
*"525-ci qəzet"in birgə layihəsi*



Əli ƏMİRLİ

# VI DƏRS:

# YAXŞI PYES YAXŞI DİALOQLARDAN İBARƏTDİR

Başlığa çıxardığım bu fikirlə kimlərsə razı olmaya bilər. Deyərlər, əsas ideyadır, mövzunun aktuallığıdır, personajlardır və ya dərslərimizin birində mənim iddia etdiyim kimi süjetdir və s.

Əlbəttə, bu fikirlərin hər birində həqiqət payı var, amma unutmayaq ki, fikir də, ideya da, mövzunun aktuallığı da, lap elə pyesin əsas komponenti olan süjetin özü də tamaşaçıya replika və dialoqlarla çatdırılır. Personajların kimliyi və xarakterləri də dialoqlarda açılır. Replikalar, dialoqlar nə qədər dolu, məzmunlu, lakonik, informativ, döyüşkən, hazırcavab, gözlənilməz, bəzən paradoksal olsalar və xətti-hərəkəti dayanmadan irəli, inkişafa doğru aparsalar, əsərin bədii yükü, hadisələrin inkişaf dinamikası bir o qədər yüksək və keyfiyyətli olar.

Dialoqların əhəmiyyəti kinoda da çox vacib və özünəməxsusdur. Hollivudda qara çərçivə deyilən bir anlayış var. Ssenaridə dialoqlardan başqa nə mətn varsa (təsvir və remarkalar), qara çərçivəyə alınır, uzun mətnləri oxumağa hövsələsi çatmayan kino məmurları, çox vaxt çərçivədən kənarda qalan mətni, yəni dialoqları oxuyur və ssenariyə qiymət verirlər, başqa sözlə, ssenarinin taleyini daha çox dialoqlar həll edir. Biz tez-tez Hollivud filmlərinin titrlərində rast gəlirik: 1. ssenarinin müəllifi; 2. dialoqların müəllifi. Deməli, ssenarinin müəllifi bir dramaturq, dialoqların müəllifi isə məhz dialoqlar üzrə ixtisaslaşmış başqa dramaturqdur.

Teatrda bu yanaşma mümkün deyil, çünki pyes ancaq dialoqlardan ibarətdir, təsvir yox, remarkalar da cüzi miqdarda. Yeri gəlmişkən, gənc həmkarlarımın diqqətinə çatdırım, rejissorlar və aktyorlar remarkanı sevmirlər. Çox vaxt elə pyesin birinci oxunuşunda onun üstündən xətt çəkirlər. İddia edirlər ki, remarka rejissorun və aktyorun yaradıcı fantaziyasını buxovlayır. Beləliklə, dram əsərində dialoq yeganə informasiyaverici vasitədir. Ona görə də, əziz həmkarlar, dialoqları elə qurmalısınız ki, onlar parlaq, poetik, iti, tikanlı, qıcıqlandırıcı, hətta zəhərli və unikal olsunlar, hər bir söz hədəfə dəysin, replika qığılcım saçsın.

Müasir mövzularda yazılan pyeslərdə dialoqların qurulması tarixi mövzulara nisbətən asandır. Bu da təbiidir. Axı biz müasirlərimizin danışığını hər gün eşidirik, özümüz də elə o dildə danışırıq. Tarixi mövzuda yazılan əsərlərdə isə dramaturqu çətin imtahan gözləyir. O, tarixin dərin qatlarında qalmış qəhrəmanının danışığını eşitməyib. Deməli uydurmaq lazımdır, amma elə uydurmaq ki, reallıqdan və tarixi həqiqətdən daha güclü,

təsirli və inandırıcı olsun. Elə yazmalısan ki, müasir tamaşaçı həm mətni tam anlaya bilsin, həm də o dövrün danışıq dilini eşitdiyinə inansın. İnansın ki, Hacı Zeynalabdin Tağıyev, məhz "Mesenat" pyesindəki kimi danışırmış. Ağa Məhəmməd şah Qacarın sarayında isə saray əyanları və Qacar özü məhz dramaturqun təklif etdiyi kimi dil açmalıdırlar: hikmətli, didaktik, pafoslu, poetik, ərəb-fars tərkibli. Eyni zamanda çağdaş tamaşaçı mətni tam anlamalı, çaş-baş qalmamalıdır. Bu yerdə "Şah Qacar"dan kiçik bir parça:

**Qacar.** Ceyran xanım, niyə məni intizarda qoymusan?

**Ceyran.** Halım heç yaxşı deyil, şahım, başımda bir uğultu var. Mən haqq dünyasının səsini eşidirəm.

**Qacar.** Ceyran xanım, bizim bu gün naxoş olmağa haqqımız yoxdur. Mən elə bir uçurum qarşısındayam ki, çox şeyi dərk etmək iqtidarında olan bəlalı başım coşan hisslərim qarşısında acizdir. Məsləhətdir yanımda olasan.

**Ceyran.** Şahım, qəlbim çırpınır, nə bəladırsa, yaralı quş kimi partlayır yerində. Elə bil müdhiş bir hadisə baş verəcək, mən də onun şahidi olacam.

**Qacar.** Bu nə sözlərdir deyirsən, Ceyran xanım?

**Ceyran.** Nə bilim, oğlum, bəlkə, həddindən artıq həssaslıq göstərirəm. Fikir vermə. Bəs Cəfərqulu hardadır? Niyə görünmür?

**Tonkabuni** (gəlir) Şəhriyari-İranı gümrah ovqatda görmək biz bəndələrə ziqiymət ərməğandır!

**Qacar.** Doğrudur, şeyx Cəfər, bu gün mən Allahın ən xoşbəxt bəndəsiyəm. Odur ki, Rəbbimizə şükranlıqdan usanmıram, hətta naxələflərin yerinə də şükür edirəm.

**Tonkabuni.** Xudavəndi-aləm insanların bir qismini digər bir qismi ilə dəf etməsəydi, Yer üzü fitnə-fəsad yuvası olardı. Allah bütün aləmlərə qarşı lütfkardır.

**Ceyran.** Onda, şeyx Cəfər, niyə Yer üzünü zillət çəkənlərin fəryadı bürüyüb?

**Tonkabuni.** Ülyahəzrət, axı damağı çağ olanlar deyil, məhz zillət çəkənlər ah-fəqan edir.

**Ceyran.** Nə yaxşı dünya əzabından qurtulmaq üçün ölüm var.

**Tonkabuni.** O da Allahın bir mərhəmətidir, ülyahəzrət.

**Qacar.** Elədir, şeyx Cəfər, hamı o mərhəmətdən dadır.

Bu dialoq və dramaturqun təklif etdiyi dramaturji vəziyyət (settinq), fikrimcə, yuxarıda dialoqlara göstərdiyimiz tələbləri tam ödəyir. Tamaşaçı deyilənləri çətinlik çəkmədən anlayır və inanır ki, Qacar sarayında məhz bu dildə danışırmışlar. Tamaşaçı həm də hiss edir ki, nəsə çox "müdhiş" bir hadisə baş verəcək. Bu, əsərin ən gözlənilməz hadisələrindən birinə – peripetiyaya hazırlıq səhnəsidir. Əslində, bu hazırlıq xeyli əvvəldən örtülü (niqablı) şəkildə başlamışdı.

Bir müəllif kimi onu da etiraf edim ki, misal gətirdiyim fraqmentdə Qurandan bəzi ayələr olduğu kimi, bəziləri müəllif interpretasiyasında istifadə olunub. Müəyyən məqamlarda hədislərə də işarələr var. Ümumiyyətlə, rejissorun təklifi ilə "Şah Qacar" adı ilə tamaşaya qoyulmuş "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar" tarixi dramında dialoqların böyük bir qismində Quran ayələrindən, hədislərdən, Sədidən və Hafizdən istifadə edilmişdir. Bu da təbiidir və ən vacibi – lazımdır! Orta əsrlər Şərq təhsilində "Qurani-Kərim" öyrədilib, Sədi Şirazı ilə Hafiz Şirazinin əsərləri isə dərs vəsaitini əvəz edib.

Bildiyimiz kimi, janr pyesin bütün komponentlərinə, o cümlədən dialoqlara da güclü təsir edir. Əgər biz komediya yazırıqsa, dialoqlar komik, ironik, paradoksal olmalıdır. Dram və faciənin dialoqları isə təkbətək döyüşü xatırlatmalıdır. Biz unutmamalıyıq ki, dialoq real nitq deyil, real nitqdən doğan effektdir. Məişət söhbətlərinə küçədə qulaq asa bilərsən, pul ödəməyə də ehtiyac yoxdur. Səhnənin isə öz tələbləri var. Dialoq elə qurulmalıdır ki, insanlar onu dinləmək üçün para ödəsinlər. Əgər dialoq parlamırsa, qığılcım kimi od saçmırsa, titrətmirsə, o, publikanın diqqətini cəlb etməyəcək, bəlkə də, publikanın diqqətinə layiq deyil desək, daha doğru olar.

Dialoq yazarkən sözlərdən qənaətlə istifadə etməliyik. Dramaturq kinoda olduğu kimi

az sözlə çox şeyi ifadə etməyə çalışmalıdır. Hər cümlənin öz təyinatı olmalıdır. Dialoq bir həmlə ilə iki vəzifənin öhdəsindən gəlməlidir: personajın xarakterinin açılması və süjetin inkişaf etdirilməsi. "Alkatrasdan qaçış" filmində çox sevdiyim qısa bir dialoq var. Həbsxana psixoloqu dustaqdan soruşur: "Sənin uşaqlığın necə olub?". Dustaq cavab verir: "Qısa". Bircə sözlə o özünün fərəhsiz uşaqlığını, səfil mühitin yetirməsi olduğunu deyir və bu, daha təsirli alınır. O həm də öz xarakterinin ciddi bir cizgisini göstərmiş olur.

Usta dramaturqun yaratdığı personaj çox vaxt düşündüyünü demir və ya birbaşa demir, müəmmalı danışır. Dramaturq personajı incə psixoloji oyun oynamağa məcbur edir. Personajın dili ilə dadı, qoxunu, mənəvi və ya fiziki ağrını ustalıqla təsvir edir, tamaşaçıya hiss etdirir.

Bəzən yazı prosesində hiss edirsən ki, personajları danışdıra bilmirsən, ya da saxta, qeyri-təbii dialoq qurursan, səbəb çox sadədir, sən onları yaxşı tanımırsan. Elə ki onları yaxından tanıyır, məqsədinə, məramına, kimliyinə, xarakterinə bələd olursan, onlar özləri danışmağa başlayırlar, sənə isə eşitdiklərini yazıya almaq qalır.

Çox sevdiyim dramaturqlardan Oskar Uayld və Tennessi Uilyamsın pyesləri parlaq dialoqlarlı ilə heyrətləndirir. Birincinin məşhur "İdeal ər" və "Ledi Uindermerin yelpiyi" pyeslərində ilk replikadan tutmuş, son replikaya qədər bütün dialoqlar hazırcavablıq, gözlənilməzlik, ironiya və incə yumor, absurd və paradoks ifadələr üzərində qurulub. Ən gözəli odur ki, bu fliqran işlənmiş "qıvrım" dialoqlar əsas funksiyalarını – xarakterlərin açılmasını və hadisələrin inkişaf dinamikasını təmin edirlər. O.Uayldın əsərlərində işlətmiş olduğu, artıq aforizmə çevrilmiş bir neçə replikanı yada salaq: 1.Adamlar həmişə hamıdan çox sevdiklərini məhv edirlər; 2.Özün ol, qalan rolların yiyəsi var; 3.Rəzil hər şeyin qiymətini bilsə də, heç nəyi qiymətləndirməyən adamdır; 4.Bütün dünya teatrdır, amma bu teatrda rollar çox pis bölünüb.

Bəs Tennessi Uilyams nə deyir: 1.Əgər qayıqda iki nəfər varsa, onlar bir-birini qorumağa məhkumdurlar; 2.Deyəsən, lap əvvəlindən belə olub: əzab çəkəndə insanlar daha səmimi olurlar; 3.Çox sağ olun, siz mərhəmətlisiz. Mənim bu saat... mərhəmətə necə böyük ehtiyacım var; 4.Məğlubların cazibəsi... mən bunu qocalarda və sağalacağına ümidini itirmiş xəstələrdə görmüşəm.

Dramaturq yazdığı pyesi ucadan oxuyanda yazıda ideal hesab etdiyi dialoqların başqa cür səsləndiyini, hətta saxta olduğunu hiss edir, deməli, dialoq yazıda bir, oxuda başqadır. Mətnin səsləndirilməsi yazıda gizlənmiş qüsurları aşkara çıxarır. Odur ki, pyesi dramaturq özü dəfələrlə ucadan oxumalı, onu dilə yatmayan sözlərdən, ifadə və cümlələrdən təmizləməlidir.

Əsər üzərində işləyən dramaturq tez-tez özünə sual verməlidir: bu replika süjetin inkişafına xidmət edirmi və ya demək istədiyimi daha yığcam, daha orijinal və daha effektli ifadə edə bilərəmmi? Bir dramaturq kimi mən dediklərimə nə dərəcədə əməl edirəm, deyə bilmərəm, amma buna çalışıram. Bəlkə, elə bu çalışmanın nəticəsidir ki, son dövrlərdə yazdığım pyeslərin həcmi əvvəlki pyeslərimlə müqayisədə xeyli kiçilib, 50-60 səhifədən 35-40 səhifəyə düşüb. Bu məsələdə sözə qənaət və çağdaş zamanımızın həyat ritmi həlledici rol oynayır.

Sonda dərsimizin başlığına qayıdır və təkid edirəm: **yaxşı pyes yaxşı dialoqlardan ibarətdir**.



*Rifat 1937-ci ildə doğulub, nasir və jurnalistdir. Urdu dilində gündəlik qəzetlər üçün məqalələr yazmaqla tanınıb. Pəncab dilində yazdığı qısa hekayələrinin əsas mövzusu qadın azadlığıdır, onların qurtula bilmədiyi ictimai bəlalardır. Aşağıda onun bir hekayəsini təqdim edirik.*



# ZAHİD

*Hekayə*

**Məhəmməd ZAHİD RİFAT**

(Pakistan)

Cavan ana hospitaldan qayıdanda qonşu arvadlar qəribə hal müşahidə etdilər: qucağında yenicə doğulmuş körpəsi olan ana əvəzinə nənə gördülər. Nənə körpə qızcığazı sinəsinə elə sıxmışdı ki, sanki zərif bir gəlincikdi, səbəbsiz-filansız, indicə bax, əlindən düşüb qırılacaq. O, sonrakı günlərdə də körpəni püf-püflə gəzdirirdi, elə bil ömrünün qalan hissəsindəki canı bu qızcığaza bağlıydı.

Evdə başqa uşaqlar da vardı- bacılar, xalaqızı, xalaoğlu və başqaları, lakin nənə təzə doğulmuş nəvəsinə xüsusi bağlanmışdı; körpəni yalnız özü yedizdirir, yuyundurur və əynini dəyişdirirdi. Bəzən soruşurdular ki, axı nə üçün özünü bu qədər incidirsən, ya da dayə kimi aparırsan? Bunlara hazır cavabları da vardı, hər dəfə də “bismillah”la başlayıb deyirdi: “Vallah, necə deyim e… Hələ o, doğulmamışdan mənim qulağıma sanki nəsə pıçıldadılar...dedilər ki, təzə gələn uşaq mənim xilaskarım olacaq…Mən onun anasından dəfələrlə soruşmuşdum ki, belə bir müstəsna doğuşda özünü necə hiss edir? O da hər dəfə deyirdi ki, gözlədiyi körpə mütləq dindar olacaq, mömin adam olacaq. Onu da deyirdi ki, bu dəfə keçirdiyi hisslər əvvəlki doğuşlardakından tamam fərqli olub. Hətta hiss edib ki, doğuş üçün hospitala getməyə də ehtiyac yoxmuş, amma adətə görə getdi. Axı bütün xərcləri hökumət çəkir. Yaxşı ki, gedib… deyir, tibb bacısı usagı göy odeyala büküb gətirdi, qucağına qoydu, vallah, inanın, deyir, bu zaman mən onun “Kəlimə” oxuyan balaca çəhrayı gəlincik olduğunu duydum…bəlkə də, gözümə göründü, nə bilim, amma axı tibb bacısı da bir müddət gözünü körpədən çəkmədi. Mən tezcə körpənin üzünü çadramla örtdüm, bu müqəddəs varlığı bağrıma basdım…”

Körpə, uşaqların “ata-ana” dediyi yaşa çatanda hamı gördü ki, qızcığaz elə hey “bismillah” deyir. Çox keçmədi ki, nənəsi ona Quranı əzbərlətməyə başladı. Səhərlər uşaqlar məktəbli formalarını geyinib çantalarını götürəndə, qızçığaz nənəsinin yanında oturur, “Həqq-Allah, Mövcud-Allah!” sözlərini təkrar edirdi. Kimsə nənəyə uşağa qarşı ədalətsizlik etdiyini söyləyəndə o hirslənirdi.

– Axı siz nə bilirsiz? – deyə nənə söylənirdi. – Bu evdəki bütün nemətlər uşağa görədir, onun ruzisidir. O, göylərin bizə hədiyyəsidir. Qızçığazın evdən bayıra çıxmasına heç razı olarammı?

Tədricən uşaq da həyatın bütün yükünü çiyinlərində məhz onun daşıdığına inanmağa başladı. O, mömin ruhda böyüyüb gənc bir qız olmuşdu. Artıq onun ruhani halı və mömin həyatı haqqında xəbərlər hər yana yayılmışdı. Çox keçmədi ki, adamlar dua və cadu yazdırmaq üçün onun evinə axışdılar. Analar

uşaqlarını bu evə gətirirdilər ki, mömin qız onlara xeyir-dua versin.

– Ey Allahın göndərdiyi mələk, sənə qurban, gör bu uşaqla nə edirsən də! Çox dəcəl və tərsdi, ona bir dua yaz, noolar!

– Mənim qızıma da bir dua yaz, başına dönüm! Dünəndən bəri nəsə yaxşı əmmir!

Diləyə gələn bəzi yaşlı qadınlar isə şikayətlənir, övladlarından giley-güzar edirdilər.

– Canım, mənə də bir dua yaz! Uşaqlarım sözümə baxmır… Aman Allah, gör nə pis zəmanəyə gəlib çıxdıq! Biz on uşaq böyütdük, amma indi onlardan heç biri qeydimizə qalmır! Sən o qurban olduğum haqqı, bizə də bir dua yaz, heç kimə möhtac olmayaq!

Nənə ruhani nəvəsi üçün evin girişinə yaxın yerdə ayrıca otaq düzəltmişdi. Otağın divarlarında İslama dair təqvimlər, "Allah" və "Məhəmməd" sözləri yazılmış çərçivələr asılmış, qıraqları qara məxmər və tünd-yaşıl rəngli atlaz üzərində qızıldan işlənmiş "Kəlimə" ilə naxışlanmışdı. Döşəməyə xalça sərilmişdi, bir hissəsi ağ mələfə ilə örtülmüşdü. Qırmızı atlaz üzlü iri balışlar divara söykədilmişdi. Giriş qapısından isə qızılı pərdə asılmışdı.

Pak ruhani qız həmin otağa qapanmışdı. O, ağ ipək paltarda məxməri namaz xalçası üstündə oturmuşdu; başında atlaz parçadan qırmızı başlıq vardı, başlığın üstündən ağ ipək yaylıq örtmüşdü, yaxalıqları yellənirdi. Başlığın üzərində isə "Allah" sözü yazılmışdı. Adi vaxtlarda qız balaqları dar şalvarın üstündən uzun, enliətək don geyinərdi. Qızın böyründə yaşıl örtüklü xırda bir miz də vardı, üstünə Kərbəladan gətirilmiş Xaki-Səfa gil möhürü, müqəddəs Kəbə örtüyündən parça, Həcc ziyarətində müqəddəs Kəbənin başına dolanan zaman belə bağlanan hil, ehtiyac olduqda gələn ziyarətçi qadınlara paylamaq üçün qara istiot bankaları qoyulmuşdu. Qızın bacıları, xalası və dayısı qızları da bəzən onun yanına gələr, kollec imtahanlarından qabaq onun xeyir-duasını alardılar, gedəndə isə uğur əlaməti kimi mizin üstündən hil götürərdilər.

Yaxşı və ya pis olsun, qazanılan ad-san gizli qala bilməz. Bibidə də belə oldu, şan-şöhrəti hər yana yayıldı; iyirmi beş illik birgəlikdən sonra nənəsi ondan ayrıldı, lakin o, nənəsinin xeyirxah işlərini davam etdirirdi; ilk vaxtlarda qız gözmuncuğu, həmayil və dua hazırlamazdı. Nənəni qəflətən qocalıq haqlayanda ruhani qız özü bunları etməyə başladı. Nənə əvvəllər kiçik məbədlərə gedib şamlar gətirərdi, sonra bəzi dindarlardan və mömin adamlardan həmayillər və gözmuncuğular hazırlamağı xahiş elədi.

Ramazan ayı gələndə Bibi paklanır, tərtəmiz qalırdı; orucun son on günündə isə tərki-dünya olub yalnız dualar oxuyardı. Bu ay ərzində bir dəfə də olsun təravih namazını buraxmazdı, bu da onun möminliyinin ən nəfis əlamətiydi. Qonşu qadınlar da başlayırdı söhbətə, biri deyirdi:

– Ay bacı, elə onun nənəsi də beləydi, ondan heç geri qalmazdı. Nənə onu hələ anasının qarnında ikən bilib-seçmişdi. Özü mənə danışmışdı ki, doğulanda körpənin dodaqları "Kəlimə" pıçıldayıb. Bax bu qız bizim hamımızdan uca və böyükdü, böyük!

– Mənim oğlum həmişə məktəbdən yayınardı. Apardım bu ruhani qızın yanına, bir neçə şəkər dənəsi verdi oğlana, vəssalam; indi oğlan səkkizə keçib. Hələ baldızımı demirəm, istəyəni yox idi, apardım yanına, barmağını baldızımın alnına qoyub nəsə pıçıldadı. Necə deyim e! O gündən elçilərin biri gəldi, o biri getdi. Bax indi baldızım ən xoşbəxt ərli qadınlardan biridi…

Ailə imkanlıydı; nənəsi onu özüylə Həccə də aparmışdı. Ruhani qızın bacılarının hamısı ərdəydi. Anası onunla öyünür, fəxr edirdi, özünü isə bəxtəvərlərin bəxtəvəri sanırdı. Lakin qız özü xoşbəxt deyildi; adamlar ona bəxtəvərlik oxuyanda bəzən üzündə qəribə cizgilər yaranırdı, bunun səbəbini heç kim bilmirdi.

Bir gün "ruhlarla danışmaq üçün" bir neçə ziyarətgahda olmuş qadın Bibinin yanına gəldi. Qadın istəyirdi ki, ilahi gücə sahib olsun, bu işdə Bibi ona kömək eləsin. Ailədə canı boğazına yığılmışdı, uşaq doğa bilmədiyinə görə əzab çəkirdi. Buna görə də ilahi güc və qabiliyyət arzulayırdı, zahid olmaq istəyirdi ki, evdə otursun, tərki-dünya olsun, ehtiyacı olan qadınlara dua yazsın, onlara kömək eləsin.

– Təhsil alsaydım, mağıl indi gedib işləyərdim. Neynim, ərim başqa qadınla evlənib… ayrı çıxış yolum yoxdu zahidlikdən savayı…

Bunu eşidən Bibi dərindən ah çəkdi, sarsıldı, sürməli gözlərini bərəldərək təəccüblə soruşdu:

– Zahid olmaq istəyirsən? Tərki-dünyalıq mənim əlimdə deyil axı! Əslində, bu qərarı mənim nənəm verib! Mənim adımdan nənəm bunu istəyib!

– Bilirəm, bilirəm…doğulan kimi “Kəlimə” oxuduğunuzdan da xəbərim var. Elə buna görə də nənəniz sizi qəyyumluğa götürmüşdü. İndi də növbə sizindi- mənə kömək eləyin! Bu sizdən asılıdı. Xahiş edirəm, deyin görüm, Kitab mənim taleyim barədə nə deyir!

Qadın çönüb namaz kitabına baxanda Bibi işıldayan örtüyə bükülmüş müqəddəs “Qurani-Kərim”i əlinə aldı. Ziyarətə gələn qadın dolabı açıb namaz kitabını götürdü, lakin Bibi bir anlıq duruxub dayandı; o, deyəsən, nəyisə xatırlamışdı.

– Axı siz əvvəlki kitabı qaytarmamısız! Əvvəlcə onu gətirib təhvil verin… – dedi.

Bibi dalğın haldaydı, düşünürdü: “Gör nənəm məni nə işə salıb da!”

Birdən giriş qapısı ağzından səs-küy gəldi, çöldə əməlli-başlı hay-haray qopmuşdu. Anası bayırdakı camaatın qabağını kəsib deyirdi:

– Olmaz! Rəqs eləmək olmaz burda! Xədimlərə, hərəm xidmətçilərinə heç olmaz! Bu ev onların yeri deyil! İndiyə kimi bu evə rəqs edən bir xədim belə ayaq basmağa cürət etməyib! Bu ocağın oğul bəxş elədiyi qadınlar belə rəqs edən hərəm ağalarıyla bura ömründə ayaq basmayıblar!

Bibiyə minnətdarlıq əlaməti olaraq “hörmət” eləməyə gəlmişdilər; bir neçə arvad mübarək Bibinin onlara bəxş elədiyi hədiyyəyə görə təşəkkürünü bildirmək istəyirdi. Adətə görə, bir kişi (xədim) qucağında körpə uşaq tutmuşdu, o birilər isə mahnı oxuyur, rəqs edirdilər. Bununla belə, ana öz fikrində qətiydi, içəri girməyə heç kimə icazə vermirdi.

– Axı sizə dedim, kişilərə olmaz! Xədimlər heç vaxt bu evə, onun otağına girməyib! Ora müqəddəs yerdi!

Xədimlərdən biri dedi:

– Ah, Bibi! Heç bir qadın bizdən üzünü gizlətmir! Biz lap bədbəxt məxluquq! Heç olmasa icazə verin, çöldə rəqs edək!

Bir dəfə, hələ nənəsinin sağlığında hərəm xidmətçiləri, yəni xədimlər bura gəlmişdilər, lakin nənəsi qapıları onların üzünə bağladı. İndi isə anası eyni hərəkəti edir, onları içəri buraxmırdı.

Bibi uşaq çağlarında baş verən bir hadisəni xatırladı. Bir dəfə o, bacı-qardaşlarıyla birgə qonşu həyətdə rəqs edən xədimlərə tamaşa etmək üçün dama çıxmışdı. Nənəsi bunu görən kimi onu səslədi, damdan aşağı düşürtdü. Nənənin öyüd-nəsihəti, yüngül danlaqları qulaqlarında cingildədi:“Mənim şirin körpəciyim, sənin kimi müqəddəs bir adamın xədimlərə baxması haramdır. Allahdan dilə ki, səni bağışlasın! Axı sən doğulan kimi “Kəlimə” oxumusan! Birdən o xədimlər sənə baxsaydılar, səni görsəydilər, onda necə olardı, hə? Axı sənin müqəddəsliyin də yox olardı! Axı sən bacı-qardaşların kimi adi adam deyilsən! Sən bizim evə, ailəyə, bütün qəbiləyə Allahın lütfüsən! Allah-təala məni qəyyum edib ki, səni qoruyum. Mən səni hətta öz anandan qoruyuram!”

Nənəsinin danlağından sonra Bibi dərhal qaçıb namaz xalçasının üstündə oturmağını və “Həqq-Allah, Mövcud-Allah!” sözlərini deməsini xatırladı. Həmin anlarda anası ağlamağa başladı, nənəsi qızının otağına girib ona təsəlli verirdi:

– Ağlını itirmisən, nədir? Biz belə xırda şeylərə diqqət eləməsək, günlərin birində ifşa oluna bilərik! Sən bilmirsən ki, üçüncü cins həddən artıq təhlükəlidir? Onlar dərhal öz cinslərini ləkələyirlər. Əgər bu baş versə, bizə güləcək, lağ edəcəklər! Hamı bizə güləcək! Di özünə gəl, qızım, ağlama, səbirli ol!”

Xədim hələ də qapıda durub ayaqlarını yerə döyür, taleyindən şikayətlənirdi. Bibi öz otağında, namaz xalçasının üstündə otur muşdu. O, müqəddəs Kitabı astaca böyründəki mizin üstünə qoydu, sonra ruhani hal aldı, havalanmış kimi özündən getdi.

Bu hal xalis zahid olmuş nənənin xatirəsinə ehtiram əlaməti idi.

*İngiliscədən tərcümə etdi:*
**Kamran NƏZİRLİ**



Tural CƏFƏRLİ

# ELÇİN İSGƏNDƏRZADƏNİN ŞEİRLƏRİNDƏ MƏNƏVİ DƏYƏRLƏR VƏ YA İNSAN PSİXOLOGİYASINDA POETİK TƏSVİRLƏR

Mətn və onun ötürdüyü informasiya insan düşüncələrinə, davranışlarına və idarəetmə qabiliyyətinə birbaşa təsir etmiş olur. Mətn – yaddaş, qavrama, müşahidə və nəticə çıxarma baxımından çox önəmlidir. Poeziyada yaddaş, qavrama, müşahidə kimi meyarlar həm alt, həm də üst düşüncə səviyyəsinə görə dəyişir. Hegel poetik düşüncə tərzini ildırım vuran ağaca bənzədirdi. Burada ağacın keçirmiş olduğu sarsıntı insan poetikası ilə müqayisə olunur. Yəni şeir insanın ildırım vurmuş halından sonrakı mərhələsidir.

Müasir Azərbaycan poeziyasında Elçin İsgəndərzadənin yaradıcılığı öz spesifikası, bütövlüyü və pafosdan, standart tərzdən uzaq əlamətləri ilə seçilir. Şeirin müasir ölçüləri və mexanizmləri texnologiya, informasiya və qloballaşan dünya ilə ayaqlaşmalıdır. Yəni bu gün əgər texnika, geyim, məişət cihazları necə gündəlik tələbata uyğunlaşdırılırsa, poeziya da, ümumən, ədəbiyyat da bu prosesə qoşulmalıdır.

Elçin İsgəndərzadə öz müşahidə və yazı üslubu ilə diqqət çəkməyi bacarır. İfadələr dolğundur, sadədir, təsvirləri rəngli və canlıdır. Aşağıdakı şeirdən bir nümunəyə baxaq:

**Xatirələrin içində ölür adam...**
**Bir əl qapayır gözlərini.**
**O əli tutub saxlamaq istəyirsən,**
**istəyirsən ki,**
**açıq qalsın gözlərin öləndən sonra da.**
**Amma gücün çatmır,**
**gözlərin qapanır.**

“Xatirələr içində ölür adam…” Xatirələr insan həyatının keçmişlə bağlı sistem halında formalaşan ömür kadrlarıdır. Bu kadrları istənilən vaxtı geri qaytarıb baxmaq, təhlil etmək, yaddaşa vermək, yaxud yaddaşdan silməyə çalışmaq istəyirik. Elçin İsgəndərzadə xatirələrin içində ölən arzularını, ümidlərini diri saxlamağa çalışır. O, arzularını, ümidlərini xatirələrin caynağından sağ çıxarmaq üçün özünü qurban verir… “Bir əl qapayır gözlərini”. Burada Füzulinin bir qəzəli yada düşür : “Olur qəddim düta eşqin yolunda hər bəla görcək”. Əl-bəla anlamında işlənə bilər. Bəla isə Füzulinin təbirincə desək, nemətdir. Gözlər günah və savab əməllərin şahididir. Əl Tanrı, İlahi qüvvə kimi düşünülə bilər. İnsanın gözlərini (bəsirət gözünü də) İlahi bağlayıb-aça bilər…

Elçin İsgəndərzadə yaradıcılığına nəzər saldıqda psixoloji və sosioloji təzadların, polemikaların-tale, qismət, alın yazısı kimi anlayışlarla fokuslandığını görmək mümkündür:

**Və səni xatirələrə gömürlər,**
**bilmirlər ki,**
**sən çoxdan gömüldüyün yerdəsən.**
**Amma onda gözlərin açıq baxırdın**
**bütün ayrılıqlara,**
**bütün gedişlərə,**
**indi gözlərin qapalı baxacaqsan sonraya...**
**Sonraya baxmaq varmı qədərdə,**
**sonra nə var qədərimizdə, -**
**xatirələr varmı?**

Ayrılıq, həsrət, tərk olunma… Bu üç ifadə fəlsəfi aspektdən şairin şeirlərində tez-tez rast gəlinən nəsnələrdi. “İndi gözləri qapalı baxacaqsan sonraya…” Sonra-zamanın naməlum gedişində yaşanan həyat elementlərini işarə edir. Sonra-nə vaxt? Sonra-Harda? Sonra-Kim?.. Bu kimi suallar şairin oxuculara ünvanlanan ritorik suallarıdı…

Dekartın “düşünürəmsə, varam” fəlsəfi yanaşması Elçin İsgəndərzadənin poetik aləmində bu cür nümyiş olunur: “Düşünmək – həm də ölümə qarşı çıxmaqdır…” Düşünmək – həm də ölümü qəbul etməməkdir. Beləcə, şair düşüncənin özünəməxsus fəlsəfi mahiyyətini axtarmağa çalışır. Axtarışları onu bu şeiri yazmağa vadar edir:

**Göyüm göyündən keçmirsə,**
**külüm külündən keçmirsə,**
**bütün yollar**
**sənin yolundan keçmirsə...**
**keçmirsə, sevgi deyil.**

“Sevgi” adlı şeirdə bədii təyinlər, təşbehlər və təzadlar oxucunu düşünməyə sövq edir. “Göy” burada mövcudat, kainat, materiya, ilkin başlanğıc, Yaradılış anlamında qəbul oluna bilər. Yollar yaşam, yaşantı və mövcudat anlamında əsas ortaq nöqtə hesab olunur. “Sevgi” ən sadə anlamda ruhla bağlı olduğu kimi, yol da sevginin hərəkət, var olma qaynağıdır…

Antik yunan fəlsəfəsində insan öz təbiətinə uyğun şəkildə yaxşılığa doğru can atan varlıq olaraq qəbul edilir. Bu fəlsəfənin mənbəyində insanın qüsurlu, yəni kamil olmaması ilə bağlı varlıq düşüncəsi dayanır. Sokrat, Platon və Aristotel kimi antik filosoflar insanın özünü müəyyən etik prinsiplər vasitəsilə kamil şəxsiyyət kimi formalaşdıra biləcəyini vurğulayırlar. Elçin İsgəndərzadə də şeirlərində estetik zövq və etik qaydaların insanın kamillik dünyasına bir pəncərə açdığını göstərir. Bu estetika və etika “sevgi” dən keçir, ancaq hər zaman yox… Ona görə də şair ayrılığı labüd hesab edir, onu zərurət bilir, əsla təsadüf bilmir…



**Sevgi söz yarasıdı,**
**göz yarasıdı.**
**Sevgi ürəkdə köz yarasıdı,**
**buludu yandırır,**
**göyü yandırır.**
**Ən isti yağışlar sevgili buludlardan yağır,**
**sevgili göylərdən gəlir...**

Mişel Fukoya görə, insan təbiəti sevgini anlamır, ancaq onu tanıyır, dərk etmir, ancaq onu həzm edir… Bu o anlamdadı ki, insan bir ömür boyu kamilləşməyə, müdrikləşməyə meyil etmirsə, yolun başlanğıcını ifadə edə bilmir, yəni “sevgi”nin aliliyini qavraya bilmir…

Elçin İsgəndərzadənin yaradıcılığında diqqəti çəkən məqamlardan biri də “mən” konsepsiyasıdı. İn və Yan fəlsəfəsində əsas tezis olan insan fenomeni bütün dövrlərin ictimai sferalarında böyük maraq kəsb edib.

Bu, şərq fəlsəfəsində də özünü büruzə verən əsas faktorlardan biridir. Təsəvvüf fəlsəfəsində “mən”-in əsasını təşkil edən nəfsin tam silinməsi deyil, bilinməsi və nəfsin cilovlanması təlqin edilir. Məhz sosial mənada nəfsin ölümü qəbuledilməzdir. Bunu təsəvvüf fəlsəfəsini sistemləşdirən və həyatlarında tətbiq edən İbn Ərəbi, Sədrəddin Konəvi, Cəlaləddin Rumi və digər böyük sufilərin həyatlarında müşahidə etmək mümkündür. Təsəvvüfdəki “xəlvət dər əncümən” (cəmiyyət içərisində Haqqı unutmama) məfhumu

birbaşa cəmiyyət fenomeninin qəbuludur. Məhz bu düşüncə Quranda Nur surəsinin 37-ci ayəsinə istinad edilərək şərh və təfsir olunur: “Elələri var ki, onlar üçün nə ticarət, nə də alış-veriş Allahı zikr etmələrinə, xatırlamaqlarına maneə yaratmır”.

**Ən yaxından keçir hər şey,**
**gözəl günlərin də,**
**xoşbəxtliyin də.**
**Sevincin dodağından gülüş kimi**
**qaçır harasa,**
**bir uşağın əlindən qopub**
**göyə uçan üfürcək kimi...**

Elçin İsgəndərzadə sözün içində söz axtaran, sözün içində itən düşüncələrini tapmağa çalışan şairlərdəndi. Niderland filosofu Spinozanın təbiət fəlsəfəsindəki “insan psixikası” kimi, Elçin İsgəndərzadənin də şeirlərindəki insan psixikası mürəkkəb axtarışlardan ətrafı seyr edir, araşdırır, yenilikləri qəbul etməyə hazırlaşır... Bu da oxucuların həm mənəvi ağrılarını azaldır, həm də yeni fikir dünyalarını kəşf etməyə kömək etmiş olur...

**Ən yaxından keçir bədbəxtlik də,**
**ha özünü görməzliyə qoyursan,**
**boynuna sarılıb sənə qısılır...**
**Kədər də onun kimi –**
**uzaqdan üstünə yüyürür,**
**ayrılıq da onun kimi –**
**qollarının arasına sığınır...**

Elçin İsgəndərzadə şeirlərində tale və həyat sözlərini sintez edərək, insanın yeni yaşam modelini təqdim etməyə çalışır. Bu yaşam modeli həm təzadlı təsvirlərlə əks olunur, həm də qarışıq hisslərin çulğalaşması nəticəsində anlaşılmaz izahlara yol açır...





**Tağı TÜRK**

# "ŞÜŞƏGÖZ"

Qorqan kəndinin kassiri rayon mərkəzində, bankın qarşısında atın yüyənini çəkdi. Ayağını üzəngidən götürüb yaşına uyuşmayan tərzdə yerə tullandı. Atı çəkə-çəkə aparıb budaqları salxım-salxım sallanan söyüd ağacına bağladı. Sonra uzunboğaz çəkməsinə əl gəzdirib, par-par parıldatdı. İri addımlarla pilləkənləri qalxıb, içəri keçdi. Dəhlizin sonundakı kabinetin qapısını astadan döydü.

– Gəl, – içəridən Təhməzovun mülayim səsi eşidildi.

– Salam, yoldaş Təhməzov!

– Ay əleyküm salam! Xoş gəlibsən! İşlər necədir, ay Abbas?

– Salamatlıqdır.

– Kolxozda vəziyyət necədir?

– Şükür. Həmd olsun Allaha ki, hökumətimiz kolxozçuların daim qeydinə qalır. Üzümüz gülür. Budu ha, gəlmişəm əmək haqlarını aparmağa.

– Ayaqüstə niyə durmusan? Əyləş, – deyə Təhməzov ona yer göstərdi.

Kassir Abbas stulu çəkib oturdu. Təhməzov tütün torbasından bir çimdik tütün çıxarıb qəlyanı doldurdu. Kömür sobasından od götürüb qəlyanı yandırdı. Sonra acgözlüklə dərin bir qullab vurub dedi:

– Ay Abbas, yolda dəyib-dolaşmırlar sənə?

Sualdan özünü itirən Kassir Abbas qəlyanın qalın tüstüsündə itib-batan Təhməzova bir qədər nəzər yetirib dilləndi:

– Yox əşi, nə danışırsınız, hansı zamanədə yaşayırıq? İndi qaçaq-quldur dövrü deyil, onların kitabı otuzuncu illərdə bağlandı. Şanlı sovet hökumətimiz onların axırına çoxdan çıxıb.

– Sən yenə işini ehtiyatlı tut, deyir, siz tərəflərdə yeni quldur dəstələri peyda olub. Kəndlərin kassirlərinə hücum edirlər.

–Əşi, heylə şey olmaz.

– Sən mənə qulaq as, bir şey bilməsəm. demərəm.

– Yoldaş Təhməzov, kürkümə birə salma, – Kassir Abbas kəkələdi. Bir anlıq boğazı qurudu, bədəninə gələn soyuq tər onu daha da hövsələdən çıxartdı: "Görəsən, yoldaş Təhməzov düzmü deyir?" Fikri dağnıq halda gözünü bir nöqtəyə – Vladimir İliç Leninin divardan asılmış şəklinə dikdi. Bir müddət beləcə gözlərini şəkildən çəkə bilmədi. Təhməzovun səsi onu fikrindən ayırdı:

– Abbas, buraya qol çək, – barmağı ilə dəftərdəki qrafanı göstərdi.

Kassir Abbas bankdan kolxozçuların məvaciblərini alıb çantasına qoydu. Sonra Təhməzovla sağollaşıb pilləkənlərdən aşağı düşdü. Yenə yaşına uyuşmayan tərzdə tullanıb atına mindi. Asta-asta kəndə tərəf yön aldı.

Kassir Abbas atını asta-asta sürür, hərdən ətrafa göz gəzdirirdi. Yoldaş Təhməzovun sözü yadına düşdükcə udqunur, yəhərin üstündə qurcalanırdı. Rayon mərkəzindən aralandıqca daha da narahat olmağa başladı. O, atın

yüyənini boş buraxıb sol əli ilə yalmanından yapışdı. Sağ əli ilə isə pul çantasının qulpundan bərk-bərk tutdu. – Əşi, Təhməzovdur də, danışır, indi quldur nə gəzir, hər ay mən bu yolu gəlib-gedirəm, gözün üstündə qaşın var deyən də yoxdur, – deyə pıçıldadı. Özünə təskinlik verdi.

Amma ürəyində bir narahatlıq var idi:

– Bəlkə, Təhməzov düz deyir, quldurlar qabağımı kəsib kolxozun pulunu əlimdən alsalar, nə edərəm, hökumətə nə cavab verərəm? – dedi.

Sonra öz-özünə kolxoz sədrini məzəmmət etdi:

– Evi yıxılmış kolxoz sədrinə dedim axı mənə bir tüfəng versin.

Rayon mərkəzindən xeyli aralıda, yolun kənarındakı qamışlıqda bir nəfər oturub gözlərini yola dikmişdi. O, Kassir Abbası gözləyirdi. Dəqiq bilirdi ki, toran qovuşanda pusquda durduğu qamışlığın yanından keçəcək. Kassir Abbası yaxşı tanıyırdı, onu neçə dəfə izləmişdi, silahsız olduğunu dəqiq bildiyi üçün elə qamışlığın yanında qarşısını kəsib pulu ondan almağı qərarlaşdırmışdı.

Toran qovuşanda kassir Abbas həmin adamın gizləndiyi qamışlığa çatdı. Pusquda duran adam əyilə-əyilə qamışlığın arası ilə gedib onun qabağını kəsmək istədi. Birdən yaxın məsafədən at kişnərtisi eşidildi. Başını qaldırıb boylandı, qamışlığa tərəf üç atlının gəldiyini gördü. Atlılar gəlib kassir Abbasa çatanda diqqətlə baxıb onların milis işçiləri olduqlarını yəqin etdi.

– Anam namaz üstəyimiş, – deyə pusquda duran adam aşağı çöküb dərin bir nəfəs aldı.

Atlılardan biri milis rəisi Göyüşov, o biriləri sıravi əməkdaşlar idi.

Göyüşov üzünü Abbasa tutdu:

– Ağsaqqal, hardan gəlib, hara gedirsən?

– Yoldaş rəis, Qorqana gedirəm, bankdan gəlirəm. Kəndin kassiriyəm. Gəlmişdim kolxozçuların məvacibini aparmağa.

– Adın nədir? – rəis diqqətlə kassirin üzünə baxdı, sonra əlavə etdi: – İndiyə niyə qalmısan?

– Yoldaş rəis, şəhərə bir az gec gəlmişdim, ona görə toran qovuşana qaldım. İsmim də Abbasdır. Hacı oğlu Abbas.

– Yolda-rizdə şübhəli kimsə görmədin? – deyə Göyüşov soruşdu. – Qorxub eləmə, elə-belə soruşuram.

Kassir Abbas qorxub həyəcanlansa da, büruzə verməyib dedi:

– Yox əşi, nədən, kimdən qorxuram. İndi kimin hünəri var dövlət adamına əl qaldırsın?

Milis rəisi Kassir Abbasın həyəcanlı olduğunu hiss etmişdi. Amma bu haqda bir söz demədi.

– Sənə yaxşı yol, – dedi. Atın başını geriyə döndərib: – Buradan baxırıq, yavaş-yavaş get, – deyə əlavə etdi.

Kassir Abbas gözdən itənə qədər milislər gözləyib getdilər. Pusquda duran adam milislərin getdiyinə əmin olandan sonra qamışlığın arası ilə dərə aşağı qaçdı. Yulğun ağacına bağladığı atına çatıb, yüyənini ağacdan açdı. Tullanıb mindi. Kassirin arxasınca sürətlə çapıb gözdən itdi.

Kassir Abbas evlərinə çatanda şər qarışmışdı. Çantanı evin girəcəyində kətilin üstünə qoyub arvadına səsləndi:

– Ay Zöhrə, heyvan nobatdan gəlib, mən onları yerinə salıb, yerbəyer edib gəlirəm, kətilin üstünə çanta qoydum, gəl onu götür.

Kassir Abbas bir inək, yeddi qoyun saxlayırdı. Deyirdi, bəsimizdi, bir mənəm, bir də arvad. Çox heyvan nəyimə lazımdır. Baxa da bilmirəm. Heç nobata da getmirdi. Oğul-uşaqdan da heç nəyi olmadığı üçün nobata onun əvəzinə qardaşı oğlu Hüseyn gedirdi. Əslində, heç çox heyvan saxlamağa da icazə vermirdilər. Kolxoz qurulanda hamının heyvanını bir yerə yığmışdılar. Adını da qoymuşdular ümumi təsərrüfat. Hər ailə az sayda heyvan saxlaya bilərdi – bir inək, beş qoyun. Amma qanunu pozanlar da var idi. Kimin imkanı var idi, əlli-altmış qoyun da saxlayırdı. Bunun üçün gərək mal-qaranı heyvanı olmayan qohumlarının adına yazdıraydın.

Qoyunları ağıla salıb qapısını örtdü. İnəyi isə mıxa bağlayıb qabağına ot atdı. Atı da rahatladıqdan sonra əl-üzünü yuyub evə keçdi. Həyat yoldaşı otağın yuxarı başında yer salmışdı. Kassir Abbas döşəkçənin üstündə bardaş qurub oturdu. Zöhrə əvvəlcə süfrə saldı. Sonra evi işıqlandıran neft lampasını süfrənin kənarında kətilin üstünə qoydu. Təndir çörəyi, motal pendiri və bir kasa da

qatığı süfrəyə düzdü. Plov da bişirmişdi. Bir boşqab da plov gətirdi. Kassir Abbas əvvəlcə motal pendirindən yedi, sonra acgözlüklə qatıq kasasını başına çəkdi. Ağzını marçıldada-marçıldada arvadına səsləndi:

– Ay Zöhrə, möhkəm yorulmuşam, otura bilmirəm. Mütəkkə gətir, söykənəcəm.

– Niyə, ay kişi, daş daşımaqdan gəlirsən? – deyə güldü. – Çaydanı dəmə qoyub gəlirəm, – dedi.

Zöhrə o biri otaqdan yükün üstündən bir mütəkkə gətirib ərinə verdi. Kassir Abbas mütəkkəyə söykənib asta-asta plovdan yeyir, hərdənbir də qatıq kasasını başına çəkirdi.

– Ay Zöhrə, doydum, tay yemirəm, – mətbəxdə çay dəmləyən arvadına səsləndi. – Gəl yığışdır. Bir stəkan da çay süz gətir. Hə, bir də çantanı gətir.

Zöhrə bir əlində armudu stəkan, o biri əlində çaydan otağa daxil oldu. Təəccüblə:

– Hansı çantanı deyirsən? – deyə soruşdu.

– Necə yəni hansı çantanı? Pul çantasını deyirəm də, kolxozçuların əmək haqqı olan çantanı.

– Mənə çanta verməmisən, ay kişi.

Mütəkkəyə söykənən Kassir Abbas cəld ayağa qalxdı:

– Necə yəni verməmişəm, bayaq çantanı kətilin üstünə qoyub səni çağırmadımmı?

– Dediyin kətil budur ha, burada, – üstünə lampa qoyduğu stulu göstərdi. – Sənə yemək verəndə gətirib qoydum buraya. Mən kətilin üstündə çanta görməmişəm. Deyəsən, qocalmısan, ay kişi, yaddaşını da itirmisən. Dur, gör hara qoymusan.

– Mən nə yaddaşımı, nə də ağılımı hələ itirməmişəm, – deyə Kassir Abbas lampanı götürüb otaqdan çıxdı. Çantanı qoyduğu yerə baxdı. – Çanta nə gəzir, görən, kim götürdü, mənim evimi kim yıxdı? – dedi. Boynubükük halda otağa qayıtdı. – Evin tikilsin, ay arvad. Camaat arasında məni bihörmət elədin...

...Kənd camaatı kassir Abbası halal, dürüst bir insan kimi tanısa da, hökumət dövlətin pulunu mənimsədiyi şübhəsi ilə onu həbs etmişdi. Bu gün isə məhkəməsi idi.

– Qalxın ayağa, möhtərəm hakim gəlir, – məhkəmə nəzarətçisi ucadan qışqırdı.

Hamı cəld ayağa qalxdı. Hakim zala daxil olub, öz yerinə keçib əyləşdi. Sonra əli ilə zaldakılara oturmaları üçün işarə etdi. Kassir Abbas da oturmaq istədi. Məhkəmə nəzarətçisi:

– Siz ayaqüstə qalın, – dedi.

Kassir Abbasın yaşı keçsə də, qocalıq onu əldən salmamışdı. Amma indi heyi kəsilmişdi. Həmişə gümrah, at belində dərədən-dərəyə şütüyən bu qocanın hakim qarşısında beli bükülmüş, qəddi əyilmişdi. Sanki yumağa dönmüşdü. Sovet hökuməti qurulandan onun məhkəmə zalında durduğu yerdən onlarla həmkəndlisi “gedər-gəlməzə” göndərilmişdi. Yaxın qohumu Mürsəl kişinin müxtəlif bəhanələrlə “Xalq düşməni” adlandırılaraq güllələnməsi yaddaşında dərin iz buraxmışdı. İndi həmin ilin – otuz yeddinci ilin xofu hələ də canından çıxmamışdı.

– Abbas kişi, danışın görək, – deyə hakim sözə başladı.

– Nə danışım, oğlum?!

–“Oğlum” yox, “möhtərəm hakim”, – məhkəmə nəzarətçisi qaşlarını çatıb Kassir Abbasın üstünə qışqırdı.

– Möhtərəm hakim, mən kəndimizdə kolxoz qurulandan kassir işləyirəm. Hər ay rayon mərkəzinə gedir, kolxozçuların əmək haqlarını bankdan alıb, gətirib paylayıram. İşlədiyim müddətdə heç vaxt dövlətin əmlakına, puluna kəm baxmamışam.

– Bəs sizi kim yoldan çıxartdı?

– Heç kim.

– Onda belə çıxır ki, dövlət pulunu mənimsəməyi boynunuza alırsınız və qeyd edirsiniz ki, bu əməli təkbaşına törətmisiniz.

Kassir Abbas özünü itirdi, əl-ayağı əsdi. Qəddi bir az da əyildi. Gücünü toplayıb özünü ələ aldı, dedi:

– Qurbanın olum, möhtərəm hakim, mən elə söz demədim axı. Mənim bir ayağım burada, biri də o dünyadadır. Mən bu qədər pulu neyləyirəm, övladım da yoxdur, bir mənəm, bir də qoca qarım.

– Siz başa düşün ki, dövlətə külli miqdarda ziyan vurmusunuz. Və gəlib burada yalan danışmaqla məsuliyyətdən qaça bilməzsiniz. Bu işdə başqa kimin əli var? Çünki bu işi siz təkbaşına görə bilməzdiniz.

– Vallah, mənim heç bir günahım yoxdur. Və heç kimlə də əlbir olmamışam. Mən evimizə qədər gəlib çıxmışam. Çantanı da kətilin üstünə qoyub yoldaşımı çağırmışam ki, gəlib götürsün. O, mənim səsimi eşitməyib. Kimsə də gəlib oğurlayıb.

– Yaxşı, siz bankdan çıxanda yol boyu şübhəli kimisə görmədiniz?

– Xeyr. Şəhərdən çıxandan bir qədər sonra milis rəisi iki milis nəfərilə qarşıma çıxdı. Mən uzaqlaşana qədər də gözlədilər.

– Göyüşov bunu təsdiqləyib. Sizi yolda soymayıblarsa, deməli, evinizdə kiməsə vermisiniz. Necə ola bilər ki, əvvəla, siz o qədər pulu kətilin üstünə qoyasınız? İkincisi isə, tutalım, lap qoydunuz. Göz qırpımında, siz orada ola-ola, kim götürdü? Sizin söylədikləriniz inandırıcı deyil. Səmimi olmadığınız aşkardır. Və dövlətin pulunu mənimsədiyinizə görə məsuliyyətə cəlb olunmusunuz və layiqli cəzanızı da almalısınız…

Məhkəmə keçirilən zalın qapısı möhkəm döyüldü. Hakim sözünü yarımçıq kəsib, məhkəmə nəzarətçisinə, – gör kimdir? – dedi. Nəzarətçi cəld qapıya tərəf yüyürdü. Bir nəfər zala daxil olub ədəb-ərkanla salam verdi. Hündürboylu, təxminən otuz beş-qırx yaşlarında olan kişinin əlində çanta var idi. Ayağına xrom çəkmə geyinmişdi. Köhnə olsa da, təmiz və səliqəli qənfeyi şalvarı diqqəti cəlb edirdi. Göy gözləri belinə bağladığı gümüş kəməri kimi par-par parıldayırdı. Hamının gözü onda idi.

– Kimsən, nə cürətlə məhkəmənin işini pozursan? – deyə hakim qəzəbləndi.

– Pulu gətirmişəm.

Hamı təəccüblə bu qəribə adama baxırdı. Məhkəmə zalındakı adamlardan heç kim onu tanımırdı və hamı onun hansı puldan bəhs etdiyini anlamağa çalışırdı. Kassir Abbas “çağırılmamış qonağ”ı başdan-ayağa süzdü. Gözü əlindəki çantaya sataşdı, gözləri doldu:

– Bu, mənim çantamdır, – deyə pıçıldadı. Üzündə az da olsa, təbəssüm yarandı. Qəddini dikəldib dedi: – Möhtərəm hakim, yoldaşın əlindəki çanta mənimdir. Həmin oğurlanan çantadır.

Gələn adam zalın girəcəyində dayanıb kirpiklərini çalmadan, iti baxışlarla məhkəmə zalını nəzərdən keçirdi. Sonra gəlib düz hakimin qarşısında dayandı.

– Bu kişinin heç bir günahı yoxdur, pulu mən oğurlamışam, – dedi. Çantanın ağzını açıb hakimə tərəf uzatdı. – Baxın, həmin pullar da içindədir, əl də vurmamışam, – deyə içindəki pulu hakimə göstərdi.

– Kimsiniz? Kolxozun pulunu niyə, harada, necə oğurladığınızı danışın, – təəccübünü gizlədə bilməyən hakim dilləndi. Sonra əlavə etdi: – Yalan ifadə verməyin də bir cinayət olduğunu unutmayın.

– Allah bəndəsi.

– Vətəndaş, özünüzü təqdim edin. Deyəsən, məhkəmədə olduğunuzu unudursunuz, – hakim hiddətləndi.

– İcazə verin, əhvalatı danışım, sonra özümü təqdim edərəm.

– Buyurun, danışın!

Çantanı hakimin qarşısına qoyub sözünə davam etdi:

– Bu kişini bir neçə aydır izləyirəm. Silahsız olduğunu bildiyim üçün rayon mərkəzindən xeyli aralıda qamışlığın yanında çantasını əlindən alacaqdım. Orada bəxtim gətirmədi. Elə qamışlıqdan çıxıb qabağını kəsmək istəyirdim ki, milis rəisi Göyüşov, yanında da iki milis işçisi qəfil peyda oldu.

– Hə, Abbas kişi də milis rəisi ilə qarşılaşdığını deyib. Göyüşov da ifadəsində bunu təsdiqləyib, – deyə hakim eynəyini burnunun üstündən bir balaca yuxarı qaldırıb astadan dilləndi.– Davam edin!

– Milislər çıxıb gedəndən sonra atıma minib kassirin arxasınca çapdım, amma çata bilmədim. O artıq kəndə girmişdi. Hər tərəfdə adamlar qaynaşırdı. Amma geriyə yol yox idi. Mütləq çantanı ondan almalı idim. Kassirin arxasınca həyətlərinə qədər getdim. Atımı bayırda ağaca bağlayıb həyətə girdim. O, çantanı evin girəcəyində kətilin üstünə qoyub kiməsə səsləndi. Sonra ağıla tərəf getdi. Bundan yaxşı fürsət ələ düşməzdi.

Bu qəribə adamın pulu nə üçün oğurladığını və nəyə görə gəlib təslim olduğunu öyrənmək üçün hamı diqqət kəsilmişdi.

– Mən istəmərəm ki, kimsə mənə görə əziyyət çəksin, məhkum edilsin. Ona görə gəlib təslim oldum, biləsiniz ki, bu qoca kişinin heç

bir günahı yoxdur, – deyə sözünə davam etdi. Danışdıqca boğazının damarı şişir, parlayan göy gözləri şüşə kimi bərq vururdu. Birdən boğazı qurudu, dayanmadan öskürməyə başladı. Sonra boğazını arıtlayıb dedi: – Möhtərəm hakim, həyəcandan boğuluram, icazə verin bir stəkan su içim.

Hakim məhkəmə nəzarətçisinə göstəriş verdi ki, gedib su gətirsin. Nəzarətçi zaldan çıxan kimi o, sözünə tələsik davam etdi:

– Mən katilin üstündən çantanı beləcə götürdüm, – deyə o, bayaq danışmağa başlayanda hakimin qarşısına qoyduğu çantanı götürdü. – Yavaş-yavaş, əyilə-əyilə həyətin qapısından bu şəkildə çıxdım, –“çağırılmamış şahid” məhkəmə zalının qapısını açıb bayıra çıxdı.

– Sonra? – hakim ucadan səsləndi. Səs gəlməyincə hakim bir də qışqırdı: – Vətəndaş, sonra necə oldu?

Bir dəqiqədən artıq vaxt keçmişdi. Hakim əlini masanın üstünə çırpıb ayağa durdu, hirsindən gözləri hədəqədən çıxmışdı. O bir də ucadan qışqırdı:

– Vətəndaş, bir az ciddi olun, gəlin ifadənizi davam etdirin.

Qapı açıldı, hakimin ürəyi yerinə düşdü, dərindən bir nəfəs alıb əyləşdi. Məhkəmə prosesini izləyənlər qapıya tərəf boylandılar, elə hakim də gözünü qaldırıb qapıya tərəf baxdı. Gələn məhkəmə nəzarətçisi idi. Əlində bir bardaq su vardı.

Hakim:

– Vətəndaş hanı? – deyə yenidən qeyzləndi.

– Hansı vətəndaş? – məhkəmə nəzarətçisi təəccüblə çiynini çəkdi.

– Bir az əvvəl burada ifadə verəni deyirəm.

– Bilmirəm, mən onu burada qoyub getmişdim ki...

– Bax gör haradadır?

Məhkəmə nəzarətçisi bayıra çıxıb tez də qayıtdı:

– Möhtərəm hakim, heç yerdə yoxdur, onu tapa bilmədim.

Hakim yenidən cəld ayağa qalxdı. Eynəyini masanın üstünə çırpdı. Qaşlarını çatıb fikrə getdi. Astadan nəsə mızıldandı. Sonra yavaş-yavaş yerinə əyləşdi.

– O bizə kələk gəldi, – öz-özünə danışırmış kimi astadan dedi. – Öskürməyi də yalan imiş. Məni aldadıb nəzarətçini zaldan çıxartdırdı. Müttəhimin günahsız olduğunu söyləyib, pulu da götürüb aradan çıxdı.

Artıq iş işdən keçmişdi. Hakim çox fikirləşdikdən sonra Kassir Abbasa bəraət verdi. Kassir Abbas donub yerində qalmışdı.

– Görəsən, bu mərd insan kim idi?– gözlərini hələ də qapıya zilləyən Kassir Abbas pıçıldadı.

Amma bu suala cavab verən olmadı. Çünki zaldakı adamlardan heç biri bilmirdi ki, həmin adam Yağlıvənd kəndinin Kavxalı obasından olan “Şüşəgöz” ləqəbli Ağaoğlu Salmandı.





# Əbdürrəhim bəy Haqverdiyev irsinin təbliğinə mühüm töhfə

GÖRKƏMLİ ƏDİBİN 150 İLLİYİ MÜNASİBƏTİLƏ HAZIRLANMIŞ **"ƏBƏDİYYƏT YOLÇUSU"** KİTABI TƏQDİM EDİLİB

Martın 2-də Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda yazıçı-publisist, diplomat, ictimai-siyasi xadim, böyük maarifçi və pedaqoq Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyi münasibətilə yazıçı, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin tərtib etdiyi "Əbədiyyət yolçusu" (Bakı, "Təhsil", 2022) kitabının təqdimat mərasimi keçirilib. Kitabda müxtəlif illərdə Ə.Haqverdiyevin bədii yaradıcılığı və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş məqalələr toplanıb. Eyni zamanda kitab fotoşəkillərlə, digər əyani materiallarla zəngindir.

Tədbirdə ölkənin tanınmış ədəbiyyat adamları, ziyalılar iştirak ediblər, müxtəlif prizmalardan böyük ədib və sözügedən kitab barədə düşüncələrini bölüşüblər.

Tədbiri giriş nitqi ilə açıq elan edən AYB-nin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid deyib ki, Ə.Haqverdiyevin yaradıcılığı və səmərəli fəaliyyəti səviyyəli təbliğata layiqdir və bu baxımdan Mustafa Çəmənlinin tərtib etdiyi kitab mühüm əhəmiyyət daşıyır. Sədr müavini vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci ildə ədibin 150 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdı, ancaq koronavirus pandemiyası səbəbindən silsilə tədbirlərin tam miqyasda həyata keçirilməsi mümkün olmadı. Odur ki, bu kitabın geniş oxucu auditoriyasına təqdimatı da indiyə qaldı. Rəşad Məcid "Əbədiyyət yolçusu" kitabına görə tərtibçiyə və nəşriyyata minnətdarlığını bildirərək, digər çıxışçılara söz verib.

AYB-nin sədri, Xalq yazıçısı Anar Ə.Haqverdiyevin ədəbi portreti barədə söhbət açıb, onun ədəbiyyatımızdakı özünəməxsus yeri və rolu barədə fikirlərini bölüşüb. Görkəmli ədibin yaratdığı obrazların orijinallığı, toxunduğu məsələlərin aktuallığı ilə daim seçildiyini deyən yazıçı vaxtilə “Üzeyir ömrü” (“Uzun ömrün akkordları”) filmində milli kinomuzda ilk dəfə olaraq Əbdürrəhim bəy Haqverdiyevin obrazına yer verdiklərini bildirib. Kitabın maraqlı və dəyərli bir nəşr olduğunu deyən AYB sədri bunun üçün tərtibçiyə və “Təhsil” nəşriyyatının rəhbərliyinə təşəkkür edib.

Filologiya elmləri doktoru, ədəbiyyatşünas, tərcüməçi Vilayət Quliyev Ə.Haqverdiyevin keşməkeşli həyatı və ictimai fəaliyyəti, Cümhuriyyət dövründə diplomat kimi gördüyü önəmli işlər barədə söhbət açıb. Ədibin orijinal dəst-xəttini yüksək qiymətləndirərək bədii yaradıcılığı haqda da danışan V.Quliyev Ə.Haqverdiyev irsinin daha dərindən öyrənilməsinin vacibliyini vurğulayıb. O, Azərbaycanın Macarıstandakı səfiri olduğu vaxtlarda həmin ölkədə Ə.Haqverdiyevin hekayələrindən ibarət “Uca dağ başında” kitabını macar dilində nəşr etdirdiyini diqqətə çatdırıb.

Filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva Ə.Haqverdiyev yaradıcılığında Qarabağ mövzusuna həsr olunmuş məqamları qeyd edib, yazıçının irsinin ədəbiyyat tariximizdə xüsusi yer tutduğunu dilə gətirib.

Tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa Ə.Haqverdiyevin arxivdə qorunub saxlanılan əlyazmaları barədə söhbət açıb, ədibin diplomatik fəaliyyəti zamanı üzləşdiyi çətinliklərdən, erməni məkrinə məruz qalmasından bəhs edib.

Ədəbiyyatşünas-tənqidçi Vaqif Yusifli həm Ə.Haqverdiyevin, həm də M.Çəmənlinin ədəbi-mədəni sahədəki fəaliyyətinin yüksək qiymətə layiq olduğunu söyləyib.

Yazıçı-dramaturq Əli Əmirli Ə.Haqverdiyevin dramaturgiyası barədə fikirlərini bölüşərək, təqdim olunan bu kitabın ədibi müxtəlif




rakurslardan tanıtması baxımından böyük önəm daşıdığını deyib.

Tədbirdə çıxış edən Ziyadxan Əliyev, Tahir Aydınoğlu, Ələmdar Cabbarlı, Leyla Məmmədova, Səadət Vahabova kimi söz, sənət və elm adamları da “Əbədiyyət yolçusu” haqqında təqdirlə söz açıblar.

M.Çəmənli tədbir iştirakçılarına təşəkkür edərək, nəşrin hazırlanması prosesi haqda danışıb. O, təkrarçılığa yol vermək istəmədiyini, dəyərli məlumatlarla zəngin məqalələrə üstünlük verdiyini diqqətə çatdırıb.

“Əbədiyyət yolçusu” kitabının və bu kimi bir neçə qiymətli nəşrin ideya müəllifi olan “Təhsil” nəşriyyatının rəhbəri Tural Axundov da hər kəsə minnətdarlığını bildirib, bundan sonra da ədəbi-mədəni irsimizin təbliğinə çalışacaqlarını vurğulayıb.

**Nadir YALÇIN**

*“525-ci qəzet”, 3 mart 2022-ci il*

DƏRGİDƏ KİTAB

*Esselər*

# SEYİD ƏZİMLƏ "DÜNYA TURU"NDA…

*Ustad alim Bəxtiyar Məmmədzadənin əziz xatirəsinə*



**Seyfəddin HÜSEYNLİ**

Dünyanın kiçilə-kiçilə ovuca sığışdığı, cibə yerləşdiyi zamandır, sərhədlərin şəffaflaşdığı, səyahətlər, səfərlər üçün imkan qapılarının taybatay açıldığı bir dövrdür indi.

Yol qeydlərinin, səfər təəssüratlarının – qəzetdə, saytda, kitabda – həm ümumi sahəsi, həm də xüsusi çəkisi artdıqca artır.

Təzad, qəribəlik boydandır: dünya daraldıqca onunla bağlı təəssüratlar genişlənir, yollar qısaldıqca onlardan götürülən qeydlər uzanır!

Yazmamaq – eləcə dinməz-söyləməz gəzib-dolaşmaq, qayıdıb fas-farağat oturmaq kov deyil: getmişdinsə, niyə yazmadın; yazmayacaqdınsa, niyə getmişdin?! Belə olanda, bir növ, maya batmış, ləzzət qaçmış sayılır yəni.

Əl içi boyda yerlərdən qucaq-qucaq, uçaq-uçaq təəssüratlar, göz yumub-açınca sonuna varılan yollardan maşın-maşın, qatar-qatar qeydlər yazılıb yayılır! Baxırsan ki: "Bir gecəlik mətləbin Bir sənə mabədi var..." Yarısı "heyrət", yarısı "hüzn"! Gəzib-yazan da ən qabaqda: getdiyi, gördüyü yerlərin nə hal-qəziyyəsini verir, nə əhvali-ruhiyyəsini, nə də doğru-dürüst səciyyəsini! "İç dünyası"ndan başqa dünya tanımır, "keşməkeşli ömür yolu"ndan savayı yol bilmir! Beləcə, dünyanı büküb-bürüşdürüb dürtür qoz qabığına...

***

...Amma dünyanın öz qabığında – böyük, geniş göründüyü vaxtlar da olub. Say-hesab da tam tərsinə: yüz minlərdən, milyonlardan cəmi beş-altısı dövri-aləm səyahətinə çıxa bilib. Gedilən yolların, gəzilən yerlərin mənzərələri, adamları, hadisələri sonradan ya bir səfərnamə olub, ya bir səyahətnamə. Şərqinki öz niyyəti, öz biçimincə, Qərbinki də öz məramı, öz şəklincə. Ancaq necə maraqlı, ancaq nə qədər gərəkli!

***

Ustadım Bəxtiyar Məmmədzadə, ayaqüstü söhbətlərin birində, adəti üzrə vurduğu dərin qullabın ardından, ciyərlərindəki tüstünü dodaqlarının bir küncündən burum-burum havaya yayandan sonra, təxminən, belə demişdi:

"Seyyyid (elə bu cür də tələffüz edərdi: ən azı 3 "y" ilə. – S.H.) üzdə göründüyü qədər deyil. Biz gördüyümüz, bildiyimiz nədi ki (tərzi beləydi: "mən bilirəm" deməz, özünü ümumdan ayrı tutmazdı. – S.H.)?! Xeyli dərin söhbətlər var Seyyyiddə, ciddi məsələlər, böyük mətləblər var! Əvvəla, çoox, lap çox oxumuşdu. İkincisi də dünyanı ayaqlamışdı: yerin üstünə də bələdiydi, altına da!.."

Bu dediklərinin bir tələbə üçün, bəlkə, ürküdücü səslənə biləcəyini düşünüb, sözünün ardını, o təsvirəgəlməz, unudulmaz təbəssümünün müşayiətilə, zarafata calamışdı: “Day deyə bilmərəm, hansı üzünə daha yaxşı bələdiydi: üstünə, yoxsa altına... Bəlkə, indi alt tərəfə daha yaxşı bələd olmuş olar, nöşün ki, gör nə vaxtdan ordadı...”

***

Hər kəs birtəhər öz tifillərinin hayına qalanda xalqın balaları üçün “Rəbiül-ətfal” adlı dərslik hazırlayan, ancaq indi öz irsinin dərsliklərə salınması sual altına düşən Seyid Əzim Şirvani 53 illik ömrünə “səfərnamə” də sığışdırıb. Daha dəqiqi, “səfərnamələr”!

Özü də həcmcə yığcamdan yığcam bir janr olan rübainin verdiyi məhdud imkanlar hesabına görüb bu müşkül işi. İnsan, məkan, hadisə təsvirinə rahatlıqla yarayan bütün sənət janrları, şeir formaları kənarda qalıb, Seyid Əzim rübaini özünə yoldaş seçib.

Fədakar ədəbiyyatşünas Süleyman Rüstəmov Seyidin Azərbaycan türkcəsindəki “Divan”ının 1967-ci il nəşrinə yazdığı müqəddimədə bu mətləbə çox sərrast toxunub: “...Əsərlərindən məlumdur ki, o, bir sıra ölkələrə səfər edib, Qafqaz, Rusiya və Yaxın Şərqin müxtəlif şəhərlərində dostları olub. Həmin ölkələrdə olarkən o yerlərin abhavası, adamları, adət-ənənələri haqqında rübailərində bir sıra konkret, həm də dəyərli fikirlər söyləyib. Bu rübailər vasitəsilə şairin səyahət xəritəsini tərtib etmək olar”.

İşin, söhbətin məğzi də elə bu “səyahət xəritəsi”nə bağlıdır. Həmin “xəritə”nin konturlarını təşkil edən rübailərində Seyid Əzim gəzib-gördüyü yerlərin fiziki-coğrafi xüsusiyyətlərindən əlavə, ölkələrin, şəhərlərin mənəvi iqlimini, ruh halını, əhalinin adət-xasiyyətini, məişətini də məharətlə təsvirə çəkib. Öz sözüdür, deyir: “Şəhri görənə bələd nə lazım?!”

Amma uzaq məmləkətləri, yad şəhərləri görə bilməyənlər o vaxtlar lap çoxmuş deyə, kiçik “səfərnamələr” olan rübailərində Seyid Əzim, demək olar ki, bələdçi, gid, ya da bir turizm agenti kimi çıxış edir. Təqdimatları, dəyərləndirmələri qəribə görünə, ziddiyyətli təəssürat yarada, namünasib səslənə bilər.

Bu rübailərdən bəzilərinin ötəri müşahidədən qaynaqlanan yanlış rəyi əks etdirməsi də mümkündür. Ancaq istənilən halda, onları tamamilə maraqsız, gərəksiz adlandırmaq insafla bir araya sığan münasibət deyil. Nədən ki, bu rübailərə onların yazıldığı zamana nisbətdə, həmin dövrün reallıqlarına nəzərən qiymət vermək önəmli şərtdir.

Üstəlik, indilərdə gedib o yerləri görüb gələnlərin danışdıqları, yazdıqları ilə yanyana qoyanda Seyid Əzimin rübailərinin öz gerçəklik yükünü bu gün də əzmlə daşıdığı məlum olur. Deməli, Seyid Əzimlə “dünya turu”na, şairin “geopolitika dərsi”nə, şirvanlı müəllimin “etnocoğrafi tezislər”inə hələ də ehtiyac var.

***

Seyid Əzim “səyahətnamə” – rübailərinin birində Bakını belə tanıdır:

**Nefti-siyəhə mədənü kandır Bakı,**
**Bəhri-Xəzər ətrafına yandır Bakı.**
**Əhli qocalar, həddi-buluğ görməzlər,**
**Təkmilə yetişməyən cavandır Bakı.**

İlk iki misrada Bakının iqtisadi-fiziki coğrafiyası, sonrakı misralarda isə şəhərin sosial-mənəvi həyatı təsvir olunur. Qeyri-dəqiq, qüvvədən düşüb aktuallığını itirmiş hər hansı mətləb gözə dəymir bu rübaidə: Bakı elə Seyid deyən Bakıdır – neftiylə, Xəzəriylə, insanı erkən qocaldan problemləri, heç cür qaydaya düşməyən həyat şəraitiylə!

Bu rübai şairin ata-baba yurduna – Şirvana aid “birinci təqdimat”ıdır:

**Şirvanda əgər bir gözələ yar olasan,**
**Labüddü ki, yüz dərdə giriftar olasan.**
**Əldən gedəcək malü-mənalın axır,**
**Vacibdi ki, biqeyrətü-biar olasan.**

Növbəti “tanıtma”da müşahidə olunan yumşalmanın səbəbini çox yerə yozmaq olar, ancaq hər halda, Şirvana aid bu rübaisində Seyidin tövrü xeyli mülayimdir:

**Şirvan ki, səfadə min Sifahanə dəyər,**
**Hər bir daşı yüz ləli-Bədəxşanə dəyər.**
**Şirvanda olan handa bir əskik gözəlin**
**Bir qəmzəsi yüz huriyü-qılmana dəyər.**

Neyləməli ki, bu rəyində sabitqədəmlik göstərmir şirvanlı şair, hərlənib-fırlanıb əvvəlki mövqeyinə yaxınlaşır:

**Şirvan gözəli bir xoş əda bilməz imiş,**
**Peyvəstə cəfa qılır, vəfa bilməz imiş.**
**Kəbə kimi xoşcəmal zibaləri var,**
**Amma ki bu var: zövqü-səfa bilməz imiş!**

Dəmirqapı Dərbəndin görkəmindən, ruhani mühitindən razılıq etsə də, Seyid bu şəhərdəki müsəlmanların dini ayinlərə laqeydliyindən gileylidir:

**Dərbənd həsarı Səddi-İskəndərdir,**
**Hər bir daşı mərmərdən onun behtərdir.**
**Məscidləri xoşnüma, imamı fazil,**
**Əmma ki gələn nəmazə çox kəmtərdir.**

Arazın o tayından da soraq verən şair üçün Ərdəbil əməlli-başlı nostalji ünvanıdır:

**Var Ərdəbilin xeyli gözəl torpağı,**
**Tər yoncası, göy səbzəsi, xürrəm bağı.**
**Hər dəm ki düşər yadıma, həsrət çəkərəm,**
**Bali-Səbalan ilə gomuş qaymağı.**

Adında şəfa anlayışı ("Təb riz" – hərarəti salan, qızdırmanı kəsən) daşıdığı deyilsə də, Təbriz haqqında Seyidin qənaəti fərqlidir:

**Təbrizdə təbdən cigərim qan oldu,**
**Yandı bədənim, atəşi-suzan oldu.**
**Təblərzəyə düşdüm, nə təbib etdi əlac,**
**Nə kimsənədən dərdimə dərman oldu.**

Seyid Əzimin Qarabağa – Şuşaya münasibətində ümumən sərt çalarlar yoxdursa da, oranın pəriçöhrələrinin əlindən yanıqlı olduğu aşkardır:

**Şəhri-Qarabağə Şişə qoymuşlar ad,**
**Bu şəhr pərilərdən olubdur abad.**
**Təsxiri-pəri şişədə qılmaq xoşdur,**
**Əmma bu pərirulər əlindən fəryad!**

Şirvanlı ədib Gəncəni həsrətinin, nisgilinin məkanı kimi xatırlayır, oranı yada salanda elə bil yarasının qaysağı qopur:

**Bu Gəncədə bir gənci-nihanım qaldı,**
**Bir simbədən, qönçədəhanım qaldı.**
**Tanrı bili kim, tari-səri zülfündə**
**Guya üzülüb rişteyi-canım qaldı.**

Məmləkətin sərhədlərini şimal-qərb istiqamətində aşan şair, təbii ki, gürcü torpağına ayaq basır. Onun Gürcüstan barədə yazdıqlarını aktuallıq baxımından son dərəcə uğurlu saymaq olar. Günümüzdə bu fikirləri, fərqli ifadə şəkillərilə, tez-tez eşidirik:

**Cənnət kimidir havası Gürcüstanın,**
**Var Kəbə kimi səfası Gürcüstanın.**
**Göyçəkləri xoşkəlam, aşiqlərə ram,**
**Vacibdi bizə duası Gürcüstanın.**

Seyid Əzim Tiflisi "xoş bir xatirə" ilə anır:

**Tiflisdə bir sərvqədü-siməndam**
**Mehmanım olub bir gecə içdi neçə cam.**
**Sordum ləbini, güldü, dedi: "Ey Seyyid,**
**Şər ilə məgər deyil sizə badə həram?"**

Kutaisiyə çatanda boyalar tündləşir:

**Şəhri-Qutais mədəni-hurü pəridir,**
**Hər bir gözəli yer üzünün zivəridir.**
**Tək cibdə pulun, mənzilin olsun xali,**
**Üşşaqə olar (onlar – S.H.) özləri çox müştəridir.**

İki böyük imperiyanın – Osmanlı ilə Rusiyanın paytaxtları arasında müqayisə aparan şair qəti hökm verir:

**Var aləm ara şöhrəti İslambulun,**
**Həddəndi füzun dövləti İslambulun.**
**Başdan-ayağa gözəllərin yığnağı,**
**Maskov ola bilməz g...ti İslambulun.**

Yaxın Şərqə üz tutan Seyid Əzimin Bağdad haqqında iki "təqdimat"ı var. İkisində də dini-ruhani motivlər öndədir, amma birinə fərəhdən doğan tərif, o birinə məyusluq duyğusu hakimdir:

Biri budur:

**Ey xali-rüxi-cəmii-kişvər Bağdad,**
**Ey torpağı müşkü, suyu Kövsər bağdad.**
**Xakində olan dəfni-İmami-Əzəm,**
**Ey rövzeyi-rizvanə bərabər Bağdad.**

O biri isə bu:

**Hər kimsə ki seyri-xaki-Bağdad eylər,**
**Sanmın ki, o qəmgin ürəyin şad eylər.**
**Qəbrini görən nəvadə məzlumlərin**
**Ta var nəfəsi, ney kimi fəryad eylər.**

İraqın Nəcəf şəhərində təhsil almış Seyid Əzim oranı minnətdarlıqla yad edir:

**Xaki-Nəcəfi-əşrəfə oldum vasil,**
**Səd şükr Xudayə, feyz aldım kamil.**
**Sərsəbz olub məzrəeyi-amalım,**
**Xirmən-xirmən səadət etdim hasil.**

Misirin başqa şəhərləri bir yana, oralara yolu düşən müasirlərimiz xüsusən Şarm-əş-Şeyxi çox tərifləyirlər. Seyid Əzim ümumən Misir adıyla o yerlərə elə tərif vurur ki, fikirləşirsən, bəlkə, elə bu rübaidə məhz Şarm-əş-Şeyxi nəzərdə tutub:

**Hər şəhrdən əfzundu səfası Misrin,**
**Təxmir olub işrətlə binası Misrin.**
**Firon təki iddiayə düşsəm yox əcəb,**
**Çox zövqlidir abü-havası Misrin.**

***

Əruzu öyrədəndəmi, ya elə Seyid Əzimdən xüsusi kurs keçəndəmi ustad Bəxtiyar Məmmədzadə bir mühüm cəhətin də üstünə gəlmişdi: "Düzgün oxunuş hər şeir üçün vacibdi. Ancaq rübai üçün lap əsasdı. Bəhrini – "rübai həzəci"ni səlis tutmalısan ki, mənasını da dürüst anlayasan, səslənməsi də yerində alınsın! Diqqət eləginən, mən bir balaca oxşada bildim, bəlkə:

**Get-dim, a - radım Kə-be-yi - ül-ya-də səni,**
**Za-hid de-di, görmək o-lur üq-ba-də səni.**
**A-çıldı - gözüm, hər ye - rə baxdım: sənsən,**
**Görmək o-lumuş eylə bu dün-ya-də səni".**

...Onda, əlbəttə, adi qarşılamış, bir təsadüf bilmişdim ustadın həmin məqamda məhz bu rübaini misal gətirməsini. Çox sonralar anladım (ya da, bəlkə, özlüyümdə belə mənalandırdım) ki, bu rübaidən həm ulu Seyid Əzimin, həm də ustad Bəxtiyar Məmmədzadənin ömür boyu davam edən maddi-mənəvi axtarışlarının irfani yekunu, ölməz, ali qayəsi boylanır.

## HƏRƏNİN ÖZ İÇKİ KURSU

Sovet hökumətinin başına Qorbaçov gələndən sonra əhali bir səhər yuxudan ayılıb duyuq düşdü ki, bəs ölkənin tən yarıdan çoxunun canü-könüldən aludə olduğu cürbəcür spirtli içki qəbul etmək vərdişi, əslində, alkoqolizm imiş. Evlərdəki "Kasıbın olanından" markalı televizor, radio birdən-birə bu haqda gecəli-gündüzlü car çəkməyə başlamışdı: partiyanın, hökumətin "antimıxlama" siyasəti "duyduq-duymadığ"a yer qoymadan, hər kəsin beyninə doldurulurdu. O məşum epoxanın ibtidasında Azərbaycan tamaşaçısı, adı qədər məzmunu da görəcək-görkəzmə olan, bir verilişlə göz-gözə gəldi – "Ayıqlıq həyatımızın normasıdır!"

Araq-çaxır əleyhinə şıdırğı təbliğat aparmaq, "vuran"ların qeybətini qırmaq qəsdilə açılan bu proqramda – alkoqolun adama ziyanının əyani isbatı üçün – növbənöv telefəndlərə əl atılırdı. Məsələn, dövrün "olmazsa olmaz"larından sayılan "Sərxoşları ayıltma məntəqələri"ndən dalbadal "məzəli" süjetlər verilirdi. Ya da küçədə-məclisdə dəmləşib hoqqa çıxardanların, içib özünü apara bilməyənlərin, axırıncı manatını da içkiyə verib səkidə-dayanacaqda yıxılıb qalanların halı-aqibəti təfərrüatlı biçimdə xalqa çatdırılırdı...

Onda 10 yaşına təzəcə dolub yenicə "ayılmağa" başlamış bir uşağın "Ayıqlıq..."la başından böyük səviyyədə maraqlanmasının, proqramın təhər-töhürünü yaddaşına köçür-

məsinin tək bircə (ancaq çox mühüm!) səbəbi vardı. Adətən, axırda, amma dedikcə qürurla səslənirdi o səbəb: "...Verilişi aparırdı telejurnalist, filologiya elmləri namizədi Rüstəm Əzizov". İndi bütün bunları xatırlayıb yazıya çevirən həmin 10 yaşlı uşaq üçün Rüstəm Əzizov eləcə "Rustam məllim"iydi, çünki simsar adamıydı, qohumluq bir yana, ta dədə-baba vaxtından qapıbir od-yurd qonşuluğu vardı arada. Yaxşı kişiydi, Bakıya gəlib-getməyin Magellanın dövri-aləm səyahətinə tay tutulduğu əyyamda onun evi kəndin paytaxtdakı daimi nümayəndəliyinə dönmüşdü. Tez-tez ata yurduna baş çəkirdi, hər dəfə də "Rustam məllim"dən geriyə maraqlı-maraqlı söhbətlər qalırdı. Böyüklərin əfkari-ümumisi beləydi ki, "Rustam məllim" heç özünə görə deyil, orda-burda hökumətin əleyhinə danışır, halbuki onun kimi kasıb bir kənd uşağının sağ-salamat böyüməyi, gedib Bakı kimi yerdə oxumağı, o boyda yerdə işləməyi, ad-san qazanmağı – bunların hamısı Sovet hökumətinin hesabınaydı. "Gərək başını buraxa bu söhbətlərin, hayıfdı, tutdurar özünü, biabırçılıq olar..." – deyirdilər.

Ancaq, görünür, "Rustam məllim" də bildiyini bilirmiş, ona əyan imiş ki, Sovet hökuməti ta irəliki qədər "tutağan" deyil, yoxsa "antispirt" siyasətinin təbliğini antisovet ruhlu Rüstəm Əzizova tapşırmazdılar. Əvvəllər sayıqlığı həyat norması kimi əhalinin beyninə yeridən hökumət indi ayıqlığın hayındaydı.

"Rustam məllim" öz verilişinə aid "o dəhşətli həqiqətin üstünü" də elə kəndə növbəti səfərlərinin birində açmışdı. Ola blsin, bir az da hirsindən belə demişdi, onu gülünc kampaniyaya cəlb edən hökumətdən acıq çıxmaq istəmişdi bu sözlərlə: "Televizorda dediklərimə fikir verməyin, bekara söhbətlərdi, əziz canınız üçün, özüm də hər dəfə babat vurmasam, ora çıxammaram..."

İndisindən iraq!

***

Bəlkə də, elə həmin vaxtlarmış, ustad xanəndə Hacıbaba Hüseynov unudulmazlığa qovuşdurduğu məclislərdən hansındasa o ipək-məxmər, bal-qaymaq səsinin arasına bükdüyü bu lətif kəlmələrlə bir "Zabul Segah" dəstgahı başlayıbmış:

Gəlin içək meyi-nab, ey rəfiqlər, dəm olaq,
Deyək-gülək, danışaq, bir-biriylə həmdəm olaq!

İçək-içək, unudaq, bəlkə qüssəni, kədəri,
Bir az da xoş keçirək ömrü, şadü-xürrəm olaq!

"Bərdaşt"ı bu misralarla götürən Hacı bir anlığa guya xanəndəlikdən çıxırdı, elə bil muğam oxumurdu, üsyankar natiqə, cəsur tribuna çevrilir, onu illər boyu sıxıb-sıxışdırmış, ekrana-efirə gedən yolunu qıl körpüsünə döndərmiş, gününü göy əskiyə düymüş rejimə, əsas da rejimin təzə başçısına meydan oxuyurdu. Qəzəlin növbəti misrasındakı mesajın tamam başqa səmtə – hər cür maddi nemətdən, lap dünyanın özündən belə əziz-girami tutduğu Ali Mənəvi-Ruhani ünvana da yönələ biləcəyini böyük usta, söz yox ki, gözəl anlayırdı. Varlığı Allah sevgisiylə yoğrulduğu kimi, dünyagörüşünün əsasında, sənətinin, ifasının təməlində də Peyğəmbər eşqi, imamlara məhəbbət dayanırdı. Yadigar qalan oxumaları, söhbətləri bu fikrin sabit dəlilləridir. Ancaq dinə, şəriətə də musiqi ilə poeziya qədər dərindən bələd olan, Allahını, Peyğəmbərini tanıyıb-sevən, imanlı-təqvalı Hacının təbiətində əsl şərq müdriklərinə xas rindanəliyin də, Piri-Muğan aşiqliyinin də, Bəzmi-Ələst zövqünün, İlahi Mey ləzzətinin də, heç şübhəsiz, ayrıca yeri vardı. O rindanəlik indi bir az da qəti məzmun, əlavə şiddət kəsb etmişdi, özünü tanıyandan bəri Hacının həm şəxsi-sənətkarlıq planında, həm də din-iman müstəvisində düşmən, qənim kimi bəllədiyi Kompartiya hökumətini nişan alan sivri silaha çevrilmişdi. Bu mənada, dilindən çıxan sonrakı misranın da gerçək hədəfi ariflərə, hal əhlinə yaxşı məlumdu:

Şərabı mənn eləyən kəs, sən içmə, cənnətə get,
İcazə ver, biz içək, sakini-cəhənnəm olaq!

"Mayə"yə doğru irəliləyəndə bacardıqca hissiyyatını cilovlayır, musiqidəki tonallıqla birgə avazının tonunu da mümkün qədər

aşağı salıb, qocafəndi tövrlə, ağsaqqal ədasıyla nəsihətlərini sadalayırdı. Nədən ki, məclisdə hər yaşda olduğu kimi, hər ağılda da insan vardı, deyilənləri doğru-dürüst qavrayanlarla yanaşı, tamam tərs – ziyanlı nəticələr çıxaranlar da ola bilərdi:

Başında yoxdur əql, kim ki ölçüdən çox içər,
Amandır, istəmirəm, biz də əqldənkəm olaq.

Cahanda hər nə qədər istəsən, gəda tapılar,
Biz isə dostluğumuzda həmişə möhkəm olaq!

Ardınca yenə əvvəlki "xanə"yə qayıdan Hacı bir yandan fitrətindəki rindanəlikdən coşur, bir yandan da hakim siyasətin, rəsmi təbliğatın mənasızlığına qeyzlənir, sonrakı şöbəni, guşələri də meyin-şərabın tərənnümü üstündə qururdu:

Büsati-meydə hər ol aşiqin ki həmdəmi var,
Onunla gər mey içə, gör onun nə aləmi var!
Şərabdır dili-pəjmürdəyə həyat verən,
Ona fəda mən olum ki, Məsihtək dəmi var!

Səfayi-ləli-nigar özgə, zövqi-mey özgə:
Onun bir aləmi vardır, bunun bir aləmi var!

Bu oxuduqlarının arasındakı bir beyt Hacının kamalına, düşüncəsinə, zövqünə bələdçilik baxımından müstəsnadır, öz təbirincə, bir özgə aləmdir. Bu tezisi cüzvdən küllə, zərrədən kürrəyə qədər bütün səviyyələr üzrə rahatlıqla tətbiq eləməyə, hamısında da eyni nəticəni almağa mümkünat yeri var, həm də gen-bol:

Kənari-meykədədə karı olmaz hər şəxsin:
Hər adəmin yeri var, hər yerin bir adəmi var!

Ancaq yenə də işin bəd başını unutmurdu Usta, hər ehtimala qarşı, nəsihətindən qalmırdı:

Sən etmə xalqa əziyyət, mey iç, günahı mənim:
Günahı bir ola əgər, onun nə bir qəmi var?!
İndisindən iraq!

***

Mərhum Ziya Bünyadovun ömrünün qeyri-adiliyini, əslində, onun insan, şəxsiyyət kimi fitri orijinallığı şərtləndirib. Cərimə batalyonuna düşən, o batalyonun komandiri olan Ziya Musa oğlu öz halalca "Qızıl Ulduz"unu – Sovet İttifaqı Qəhrəmanı adını Sovet hökumətindən bağırda-bağırda alıb. Onu şərqşünaslığın sıra nəfərliyindən akademikliyə qaldıran bir alimlik yolu keçib. Şərqşünas kimi dünya tanıyıb onu, dar çevrədə, "ŞərŞünas" təki ad çıxaranlardan olmayıb. "Sovet alimi" ünvanı daşıyıb onilliklər boyu, amma rəsmən gur-gur guruldayan təbliğat-təşviqat motoruna "təkərcik, vintcik" kimi fırlanmayıb ortalıqda. Ateizm bayrağı dalğalanan ölkədə İslamı öyrənib-öyrədib, tanıyıb-tanıdıb. "Qurani-Kərim"in tərcümə-təfsirinə imzasını atıb, ancaq ehkamlara da boyun əyməyib, sevmədiyi ayin-adətlərdən uzaq durub.

Ziya müəllimin içkiyə-filana da özəl yanaşması – munis münasibəti varmış, deyirlər.

İndisindən iraq!

***

Əvvəl Sovet hökuməti dağıldı, sonra Hacıbaba Hüseynov haqq dünyasına köçdü...

Rüstəm Əzizovun yası təzəcə düşmüşdü, xəbər yayıldı ki, Ziya Bünyadovu vurublar!..

***

Hamını vahid içki kursuna keçirmək cəhdləri həmişə olub, indi də var. Halbuki həmişə hərənin öz müstəqil içki kursu olub, elə indi də belədir. Gələcəyə qalanda... o da dumanlı görünür...

